Rezonans SAİB .

ISSN (online): 2709-7846
ISSN (print): 2709-7854
ISSN - L: 2709-7846

# SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASƏT

(Elmi araşdırmalar jurnalı)

# SOCIOLOGY. SOCİAL PSYCHOLOGY. POLITICS

(Journal of scientific research)

Cild 2
N 4
Bakı -2022

https://asosindex.com.tr/index.jsp?modul=journal-page&journal-id=2550

http://www.gias.ge/Home/JournalListDetail/1073

**ARƏN Reyestr №: 4307**
**ISSN (print): 2709-7846**
**ISSN (online): 2709-785**
**ISSN - L: 2709-7846**

# SOSİOLOGİYA. SOSİAL PSİXOLOGİYA. SİYASƏT
**(Elmi araşdırmalar jurnalı)**

# SOCIOLOGY. SOCIAL PSYCHOLOGY. POLITICS
**(Journal of Scientific Research)**

**Cild 2**
**№4**

**Bakı – 2022**

**Təsisçi:**
**“REZONANS”**
**Sosial Araşdırmalar İctimai Birliyi**

**Baş redaktor:**
**Ramilə DADAŞOVA,** siyasi elmlər doktoru, dosent

**Baş redaktorun müavinləri:**
**Səadət MƏMMƏDOVA,** sosiologiya elmləri doktoru, dosent
**Südabə HÜSEYNOVA,** psixologiya üzrə fəlsəfə doktoru, dosent

**Məsul katib:**
**Novruz NURİYEV**

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

**Sosiologiya və sosial psixologiya üzrə:**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Bəhruz Cabbarov**
Fəlsəfə elmləri doktoru, professor **Eyyub Kərimov**
Sosial elmlər üzrə fəlsəfə doktoru, dosent **Ersin Müezzinoğlu** (Türkiyə)
Sosiologiya üzrə fəlsəfə doktoru **Farzad Qasımzadeh** (İran)
Sosiologiya elmləri doktoru, professor **Hüseyn Qaraşov**
Fəlsəfə elmləri doktoru, professor **İlham Məmmədzadə**
Fəlsəfə elmləri doktoru, professor **İzzət Rüstəmov**
Fəlsəfə elmləri doktoru, professor **Qızılgül Abbasova**
Psixologiya elmləri doktoru, professor **Məcid Mahmud Alilou** (İran)
Hüquq elmləri doktoru, professor **Mayis Əliyev**
Fəlsəfə elmləri doktoru, professor **Muxtar Yaxyayev** (Rusiya)
Fəlsəfə elmləri doktoru, professor **Mübariz Süleymanlı**
Sosiologiya elmləri doktoru, professor **Rafail Həsənov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent **Rəşad Əsgərov**
Psixologiya elmləri doktoru, professor **Rəna İbrahimbəyova**
Psixologiya elmləri doktoru, professor **Rəna Qədirova**
Fəlsəfə elmləri doktoru, professor **Rəna Mirzəzadə**
Fəlsəfə elmləri doktoru, professor **Sakit Hüseynov**
Fəlsəfə elmləri doktoru, professor **Tahirə Allahyarova**
Pedaqogika üzrə fəlsəfə doktoru **Tünzalə Verdiyeva**
Sosiologiya üzrə fəlsəfə doktoru, dosent **Üzeyir Şəfiyev**
Psixologiya elmləri doktoru, professor **Zarema Akbiyeva** (Rusiya)
Hüquq elmləri doktoru, dosent **Zaur Məmmədov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent **Zeynəddin Şabanov**

**Siyasət üzrə:**

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Ainur Nogayeva** (Qazaxıstan)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Adem Sagir** (Türkiyə)
Uluslararası Siyaset Profesörü, **Ali Asker** (Türkiyə)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Almaz İsmayılova** (Rusiya)
Siyasi elmlər doktoru, professor **Amir Ahmed Khuhro** (Pakistan)
Tarix elmləri doktoru, professor **Artur Qereviç Dalqatov** (Rusiya)
Siyasi elmlər doktoru, professor **Asem Nauşabayeva Hekimoglu** (Türkiyə)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Can Kakışım** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Christopher Gunn** (ABŞ)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Elnur Kəlbizadə**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Elvin Talışinski**

Tarix elmləri doktoru, professor **Eynulla Mədətli**
AMEA-nın müxbir üzvü **Hacıfəxrəddin Səfərli**
Tarix elmləri doktoru, professor **İbrahim Ethem Atnur** (Türkiyə)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **İshak Turan** (Türkiyə)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Kəmalə Ruintən**
Tarix elmləri doktoru, professor **Kemal Çiçek** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Quram Marxulia** (Gürcüstan)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Masaoumeh Daei** (İran)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Nasirəddin Əlizadə** (İran)
Akademik **Nərgiz Axundova**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, Professor **Numan Aruç** (Şimali Makedoniya)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, Professor **Nurgun Koç** (Türkiyə)
Tarix elmləri doktoru, professor **Okan Yeşilot** (Türkiyə)
Tarix üzrə fəlsəfə doktoru, dosent **Oleq Kupçik** (Ukrayna)
Tarix elmləri doktoru, dosent **Sevinc Əliyeva**
Tarix elmləri doktoru, professor **Yaroslav Pilipçuk** (Ukrayna)
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **Zaur Əliyev**

**REDAKSİYA HEYƏTİNİN ÜNVANI:**
**AZ11075, Azərbaycan Respublikası, Bakı şəhəri,**
**A.M.Cümə 19/69, bina 28, mənzil 28**
**Tel.: (+994 55) 768 94 26**
**E–mail: ssps.journal2020@gmail.com**
**http: // www.sosiologiya-jurnali.az**

**© Sociology. Social psychology. Politics**
**© www.sosiologiya-jurnali.az**

**Founder:**
**“REZONANS” Sosial Research Community**

**Editor-in-chief:**
**Ramila DADASHOVA**, Doctor of Political Sciences, Associate Professor

**Deputy editor-in-chief:**
**Saadat MAMMADOVA**, Doctor of Sociological Sciences, Associate Professor
**Sudaba HUSEYNOVA**, Doctor of Philosophy in Psychology, Associate Professor

**Executive secretary:**
**Novruz NURİYEV**

**EDITORIAL BOARD MEMBERS:**

**On Sociology and Social Psychology:**

Doctor of philosophy in pedagogy, associate professor **Bahruz Jabbarov**
Doctor of Philosophy, Professor **Eyyub Karimov**
Doctor of Philosophy in Sociology **Farzad Gasimzadeh** (Iran)
Doctor of Sociology, Professor **Huseyn Garashov**
Doctor of Philosophy, Professor **Ilham Mammadzade**
Doctor of Philosophy, Professor **Izzat Rustamov**
Doctor of Philosophy, Professor **Gizilgul Abbasova**
Doctor of Psychological Sciences, Professor **Majid Mahmoud Alilou** (Iran)
Doctor of legal sciences, professor **Mayis Aliyev**
Doctor of Philosophy, Professor **Mukhtar Yakhyayev** (Russia)
Doctor of Philosophy, Professor **Mubariz Süleymanli**
Doctor of Sociology, Professor **Rafail Hasanov**
Doctor of philosophy, associate professor **Rashad Asgarov**
Doctor of Psychological Sciences, Professor **Rena Ibrahimbeyova**
Doctor of Psychological Sciences, Professor **Rena Gadirova**
Doctor of philosophy, professor **Rena Mirzazade**
Doctor of Philosophy, Professor **Sakit Huseynov**
Doctor of Philosophy, Professor **Tahira Allahyarova**
Doctor of Philosophy in Pedagogy **Tunzale Verdiyeva**
Doctor of Philosophy in Sociology, Associate Professor **Uzeyir Shafiyev**
Doctor of Psychological Sciences, Professor **Zarema Akbiyeva** (Russia)
Doctor of legal sciences, associate professor **Zaur Mammadov**
Doctor of philosophy, associate professor **Zeynaddin Shabanov**

**On Politics:**
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Ainur Nogayeva** (Kazakhstan)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Adem Sagir** (Turkey)
Professor of International Politics, **Ali Asker** (Turkey)
Doctor of Philosophy in History, associate professor **Almaz Ismayilova** (Russia)
Doctor of Political Sciences, Professor **Amir Ahmed Khuhro** (Pakistan)
Doctor of historical sciences, Professor **Artur Gerevich Dalgatov** (Russia)
Doctor of Political Sciences, Professor **Asem Naushabayeva** Hekimoglu (Turkey)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Can** Kakışım (Turkey)
Professor, Doctor of History **Christopher Gunn** (USA)
Doctor of philosophy in history, associate professor **Elnur Kalbizade**
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Elvin Talishinski**
Doctor of historical sciences, professor **Eynulla Madatli**
Corresponding member of ANAS **Hajifakhraddin Safarli**
Doctor of historical sciences, professor **Ibrahim Ethem** Atnur (Turkey)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Ishak Turan** (Turkey)

Doctor of Philosophy in political sciences, associate professor **Kamala Ruintan**
Doctor of historical sciences, professor **Kemal Çiçe**k (Turkey)
Doctor of historical sciences, professor **Guram Marxulia** (Georgia)
Doctor of Philosophy in History, Associate Professor **Masaoumeh Daei** (Iran)
Doctor of Philosophy in History, Associate Professor **Nasireddin Alizadeh** (Iran)
Academician **Nargiz Akhundova**
Doctor of Philosophy in Political Sciences, Professor **Numan Aruç** (North Macedonia)
Doctor of Philosophy in Political Sciences, Professor **Nurgun Koç** (Turkey)
Doctor of historical sciences, professor **Okan Yeşilot** (Turkey)
Doctor of Philosophy in History, Associate Professo**r Oleg Kupchik** (Ukraine)
Doctor of historical sciences, associate professor **Sevinj Aliyeva**
Doctor of historical sciences, professor **Yaroslav Pilypchuk** (Ukraine)
Doctor of Philosophy in Political Sciences, Associate Professor **Zaur Aliyev**

**ADRESS OF THE EDITORIAL BOARD:**
**AZ11075, Republic of Azerbaijan,**
**Baku city, A.M.Juma 19/69, building 28, apartment 28**
**Tel.: (+994 55) 768 94 26**
**E-mail: ssps.journal2020@gmail.com**
**http: // www.sosiologiya-jurnali.az**

**© Sociology. Social psychology. Politics**
**© www.sosiologiya-jurnali.az**

**MÜNDƏRİCAT**
**TABLE OF CONTENTS**

## Sosiologiya və sosial psixologiya
## Sociology and social psychology

**Mayis ƏLİYEV**
Sosial təhlükəli vəziyyətdə olanların sosial statusu və onlara sosial xidmətin təşkilində sosial işçilərin rolu....................5

**Nargilə RZAYEVA**
Övladlığa götürmə və alternativ xidmətlər....................11

**Nəzrin MƏMMƏDOVA**
Pandemiya ilə mübarizə çərçivəsində sosial dəstək tədbirləri....................16

**Rəfail QULİYEV**
Məktəblilərdə qamətin formalaşdırılması və möhkəmləndirilməsi ilə bağlı müddəaların tədqiqi.....22

**Rövşanə MÜZƏFFƏRLİ**
Erkən nikah məişət zorakılığının təməlidir....................27

**Təranə VƏLİYEVA**
Həssas qrupa daxil olan uşaqlarin ailə daxilində məktəbəhazirliq prosesinin təşkili....................32

**Türkan MUSTAFABƏYLİ**
Ailə daxili münasibətlər və münasibətlərin sosial psixoloji xüsusiyyətləri....................38

**Ülvi ƏLİYEV**
Azərbaycanda sosial xidmət sahəsində konvengensiya nəzəriyyəsinin tətbiqi imkanları....................45

**Zeynəddin ŞABANOV**
İdarəetmə nəzəriyyələrinin spesifik cəhətləri....................52

## Siyasət
## Politics

**Ağalar QƏRİBOV**
İ.Kantın fəlsəfəsi müstəvisində hüquq anlayışının siyasət fəlsəfəsinin tərkib hissəsi olaraq nəzərdən keçirilməsi....................60

**Nailə ABDURƏHMANOVA**
Azərbaycanın neft strategiyası: ABŞ-in və Rusiyanın Cənubi Qafqazda nüfuz uğrunda mübarizəsi....................65

# Sosiologiya və sosial psixologiya

# Sociology and social psychology

UOT 34:349.2

**Mayis ƏLIİYEV***

# SOSİAL TƏHLÜKƏLİ VƏZİYYƏTDƏ OLANLARIN SOSİAL STATUSU VƏ ONLARA SOSİAL XİDMƏTİN TƏŞKİLİNDƏ SOSİAL İŞÇİLƏRİN ROLU

*Məqalə redaksiyaya daxil olmuşdur: 2 noyabr 2022; çapa qəbul edilmişdir: 10 noyabr 2022; onlayn çap edilmişdir: 28 dekabr 2022*

*The article was submitted to the editors: November 2, 2022; accepted for publication: November 10, 2022; published online: 28 December 2022*

**Xülasə**

Bu məqalədə Azərbaycanda sosial təhlükəli vəziyyətdə olanların sosial statusu və onlara sosial xidmətin təşkilində sosial işçilərin rolu məsələsi araşdırılmışdır. Məqalədə sosial təhlükəli vəziyyətdə olan şəxslərə anlayış verilmiş, onların bu vəziyyətə düşməsi səbəbləri, həmin şəxslərlə sosial işin təşkilində sosial işçinin rolu və s. məsələlər təhlil edilir. Qeyd etmək lazımdır ki, sosial təhlükəli vəziyyətdə olan şəxslər kateqoriyasını həm yetkinlik yaşına çatmayanlar, yəni uşaqlar, həm də 18 yaşdan yuxarı şəxslər əhatə edir. Tədqiqatçı tərəfindən, ölkədə sosial təhlükəli vəziyyətində olan şəxslərlə aparılan sosial işin sistemli şəkildə həyata keçirilməsi məqsədilə keys menecment metodunun geniş tətbiq edilməsini özündə əks etdirən təlimat işlənib hazırlanmasını təklif edilmişdir.

**Açar sözlər:** *sosial, xidmət, çətin vəziyyət, siyasət, təhsil, işçi, təhlükə.*

## Giriş

Müasir dövrdə Azərbaycan Respublikasının sosial xidmət siyasəti cəmiyyətdə ən mühüm sahələrdən birini əhatə edir və bu siyasətin formalaşması prosesi sosial sistemin digər sahələri ilə qarşılıqlı əlaqədə özünün uzun inkişaf yolunu keçmişdir. Hazırda respublikamızda formalaşmış sosial xidmət siyasəti sosial xidmətin ayrılmaz tərkib hissəsi olan sosial işin formalaşması ilə bağlıdır. Sosial xidmətə dair mövcud qanunvericilik sosial təhlükəli vəziyyətdə olan şəxslər kateqoriyasını da fərqləndirir. Mövzunun aktuallıq kəsb etməsi əsasən cəmiyyətdə sosial təhlükəli vəziyyətdə olanların sayının müasir dövrdə artması və onlara münasibətdə sosial xidmətin təşkili problemlərinin olması ilə bağlıdır.

## Sosial təhlükəli vəziyyətdə olanların sosial statusu

Sosial iş çətin həyat şəraitində olan insanlara yardımın göstərilməsi ilə bağlı olan fəaliyyəti özündə əks etdirir. Prof. H.M.Rəcəbli "sosial iş" terminini "sosial xidmət" termini ilə eyniləşdirir. Onun fikrincə, sosial iş tədris fənni olaraq insanlara onları əhatə edən mühitdə mümkün qədər daha yaxşı fəaliyyət göstərmələri üçün yardım etməyə istiqamətlənmişdir [4, s.147]. Aparılmış təhlillər göstərir ki, sosial iş fəaliyyət sahəsi kimi sosial xidmət sahəsini özünü əks etdirir və o, sosial xidmətin tərkib hissəsi kimi XIX əsrdə yaranmışdır. İlk dəfə 1898-ci ilin yayında Kolumbia Unversitetində sosial iş üzrə sinif açılmaqla sosial iş peşəsinin əsası qoyulmuşdur [5, s. 19].

«Sosial xidmət haqqında» 30 dekabr 2011-ci il tarixli Azərbaycan Respublikası Qanuna əsasən sosial xidmət vətəndaşa həyat fəaliyyətini obyektiv surətdə pozan, onun müstəqil surətdə aradan qaldıra bilməyəcəyi vəziyyətə görə müəyyən edilir. Həmin vəziyyət qanunla çətin həyat şəraiti kimi göstərilir. Çətin həyat şəraitinə isə qanunda şəxsin (ailənin) sosial xidmətə götürülməsi üçün əsas yaradan və həyat fəaliyyətini obyektiv surətdə pozan, təkbaşına aradan qaldıra bilmədiyi hal kimi anlayış verilir. Qanuna əsasən yetkinlik yaşına çatmayanların baxımsızlığı və ya sosial təhlükəli vəziyyətdə olması onların çətin həyat şəraitində olduğunu göstərir [6]. Ədəbiyyatda isə

* *Azərbaycan Universitetinin Sosial işin təşkili kafedrasının professoru, hüquq üzrə elmlər doktoru, Bakı, Azərbaycan*
*e-mail:* aliyev.mayis@mail.ru

çətin həyat şəraiti sosial qeyri-stabillik, yəni, böhranlı, stressli, ekstremal, qeyri-müəyyən və kəskin vəziyyət kimi xarakterizə olunur [7, s. 439].

Sosial xidmətə dair mövcud qanunvericilik sosial təhlükəli vəziyyətdə olan şəxslər kateqoriyasını da fərqləndirir. Mövzunun aktuallıq kəsb edən tərəflərindən biri regionlarda yaşayan sosial təhlükəli vəziyyətdə olanların sayının daha çox olması ilə bağlıdır. Bu da onunla izah olunur ki, regionlarda iş yerlərinin az olması, məşğulluq faizinin aşağı göstəricisi insanların yaşayışına güclü təsir göstərir, onların maddi həyat şəraiti, sosial rifah tərzi qənaətbəxş səviyyədə olmur. Ailənin təminatını ödəmək üçün ailə başçıları iş axtarmaq üçün iri şəhərlərə axışır, işçi qüvvəsi səpələnir, ailələrdə psixoloji vəziyyət gərginləşir, boşanmaların sayı artır, bəzi hallarda uşaqlar işə cəlb olunur, təhsildən uzaqlaşır, təminatsızlıq bəzən qadınlar arasında əxlaqsız həyat tərzinin yaranmasına gətirib çıxarır, banklara borcu olan insanların sayı artır, borcu ödəyə bilmədiklərinə görə, intihar, kriminal halların, cinayətkarlığın faizi yüksəlir, ekən nikahların arealı genişlənir [1, s. 5]. İlk növbədə sosial təhlükəli vəziyyətdə olan şəxslər anlayışına və onların dairəsinin müəyyən edilərək sosial statuslarına aydınlıq gətirilməsi məqsədə müvafiq olardı. Mövcud qanunvericilik baxımında sosial təhlükəli vəziyyətdə olan şəxslər dedikdə, baxımsızlıq və ya kimsəsizlik nəticəsində həyatına və ya sağlamlığına təhlükə yaranan, yaxud tərbiyə edilməsi və ya saxlanması üçün tələblərə cavab verməyən şəraitdə olan, yaxud hüquq pozuntuları törədən şəxslər başa düşülməlidir. Bu anlayışdan göründüyü kimi şəxsin sosial təhlükəli vəziyyətdə olması aşağıdakı əlamətlərlə xarakterizə olunur: baxımsızlıq; kimsəsizlik; tərbiyə edilməsi və ya saxlanması tələblərə cavab verməyən şəraitdə olması; hüquq pozuntuları törətməsi.

Baxımsız özündə təlim-tərbiyə vermək, yaxud saxlamaq vəzifəsinin valideynləri və ya digər qanuni nümayəndələri tərəfindən yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi nəticəsində şəxslərin davranışına nəzarətin olunmamasını özündə ifadə edir. Kimsəsizlik isə, müəyyən yaşayış yerinin və ya qalmağa yerinin olmaması başa düşülməlidir. Tərbiyə edilməsi və ya saxlanması tələblərə cavab verməyən şəraitdə olması əlaməti əsasən yetkinlik yaşına çatmayanlarla bağlıdır. Bu əsasən natamam ailələrdə yaşayan uşaqları əhatə edir.

"Sosial xidmət haqqında" qanun eyni zamanda şəxsin sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olmanı da çətin həyat şəraiti kimi xarakterizə edir. Belə ki, həmin qanunda sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) kimi anlayışlarından istifadə edilir və onların leqal anlayışı verilir. Belə ki, qanunun 1-ci maddəsinə görə sosial yadırğama (dezadaptasiya) şəxsin (ailənin) sosial mühitə uyğunlaşma qabiliyyətinin itirilməsi, sosial məhrumiyyət (deprivasiya) isə şəxsin (ailənin) əsas həyati tələbatlarını müstəqil şəkildə ödəmək imkanlarının məhdudlaşması və (və ya) ondan məhrum olmasıdır. Göründüyü kimi sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) şəraitində yaşayan ailələr işərsində sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlarda çətin həyat şəritində olan hesab edilirlər. Yetkinlik yaşına çatmayanlar isə uşaq statusuna malik olan şəxslər kimi çıxış edirlər.

Sosial təhlükəli vəziyyətdə olan şəxslər içərsində uşaqları, əsasəndə küçə həyatına məruz qalmış uşaqları ("küçə uşaqları") xüsusi olaraq fərqləndirmək olar. Avropa Şurasının Küçə Uşaqları İş Qrupu 18 yaşdan kiçik olan qısa və ya uzun müddətli küçə mühitində yaşayan uşaqları "küçədə yaşayan uşaq" olaraq qəbul ediblər [3, s. 98].

UNİCEF küçə uşaqları anlayışını uşaqların ailələriylə olan əlaqələrinin səviyyəsinə görə üç kateqoriyaya bölür:

I qrup: Ailələri ilə davamlı əlaqəsi olan uşaqlar "küçədə çalışan uşaqlardır". Günlərini küçədə keçirməyə çalışsalar da, ailələrinin nəzarəti altında olan uşaqlardır.

II qrup: Valideynləri və bacı-qardaşları ilə əlaqə yaradan bu uşaqların ailə bağları zəifləsə də tamamilə qopmamışdır. Onlar günlərini küçədə xırda alver edərək, ya da gəzərək keçirsələr də, amma çox vaxt evlərində gecələyirlər.

III qrup: Bunlar ailələri ilə heç bir əlaqəsi olmayan "küçə uşaqlarıdır". Ümumiyyətlə, cəmiyyətin ən yoxsul təbəqəsindən və parçalanmış ailələrdən olan uşaqlardır. Ailələrindən zorla və

ya öz istəkləri ilə ayrılan bu uşaqlar günün 24 saatını küçədə keçirirlər. Bunlara küçədə yaşayan uşaqlar da deyilir [5, s. 49].

Müəyyən araşdırmalar nəticəsində sorğu aparılan uşaqların yarıdan bir qədər çoxu Bakı şəhərinə xarici ölkələrdən və ya ölkənin digər şəhər və rayonlarından gələnlərdir. Oğlanların 56 faizi, qızların isə 12 faizi Bakı şəhərində anadan olub, müvafiq olaraq 42 və 84 faizi ölkənin regionlarından gəlib. Uşaqların 35 faizi məktəbdə təhsil aldıqlarını və hər gün məktəbə getdiklərini bildirib. 19 faizi və ya hər 7 oğlandan biri və hər 3 qızdan biri məktəbə getmədiyini söyləyib. Heç vaxt təhsil almayan uşaqlar bunun əsas səbəbi kimi kasıb olduqlarını və ya gələcəklərini qurmaq üçün pul qazandıqlarını göstəriblər. 208 küçə uşağının 94 faizinin ailəsi olub. Bununla belə, uşaqların 61 faizinin hər iki valideyni, təxminən üçdə birinin natamam ailəsi, yəni təkcə anası və ya atası, digərlərinin isə yalnız yaxın qohumları olub. Küçə uşaqlarının ailələrinin 90 faizində, özləri də daxil olmaqla, orta hesabla 18 yaşına çatmayan 2 uşaq olub. Küçə uşaqlarının mövcudluğunun səbəblərindən biri də onların ailələrində yaranan maliyyə problemləridir. Müayinənin nəticələrinə görə, hər iki valideyni olan 126 uşağın cəmi 9 faizinin həm atası, həm də anası işləyir. Valideynlərinin biri və ya hər ikisi olan uşaqların 75 faizinin təkcə anası və ya atası işləyir, hər beş uşaqdan birinin heç bir valideyni işləmir. Sorğu olunan hər 2 uşaqdan birinin ailəsi öz yaşayış yerini 1988-ci ildən, yəni Ermənistanın Azərbaycana qarşı təcavüzə başladığı dövrdən sonra dəyişib ki, bu da ölkədə küçə uşaqlarının formalaşmasına təsir edən amillərdən biridir. Şüşə qabları və metal tullantıları yığıb təhvil verməyi və dilənməyi əmək fəaliyyətinin bir növü hesab etsək, o zaman bütün sorğu aparılan küçə uşaqlarını işləyənlər kateqoriyasına aid etmək olar. Küçələrdəki uşaqların yarısı maşın yumaq (25 faiz) restoranlarda xidmətçi, avtobuslarda pul yığmaq və dilənmək (25 faiz) yolu ilə pul qazanır. Oğlanların 14 faizi ailə üzvləri tərəfindən işləməyə məcbur edildiyini qeyd ediblər. Qızların 44 faizi da həmin səbəbi göstərib [8].

Küçədə yaşayan uşaqların ümumi xüsusiyyətləri kimi aşağıdakılar çıxış edir:

- Ailə və ya ailəni əvəz edən təşkilatlarla əlaqələri məhdud və ya tamamilə qopmuş vəziyyətdədir.
- Təhsil almamış və ya təhsil müddətindən erkən ayrılmış uşaqlardır. Onların təhsil səviyyəsi aşağıdır. Uşaqlar sözləri hərf-hərf və ya hecalarla oxuyur. Bəziləri hesaba bir qədər diqqət verir (alqı-satqı ilə məşğul olanlar), çox pis yazırlar.
- Küçədə olmaları səbəbiylə fiziki, emosional, sosial, psixi inkişafları risk və təhlükə altındadır.
- Narkotik maddələrdən istifadə etmək ehtimalları yüksəkdir. Bu isə onlarda fiziki, psixoloji və sosial bir asılılıq yaradır.
- Küçədə nümunə götürdükləri və ünsiyyət qurduqları insanların qanunla münaqişədə olmaları və onlarla əlaqələrinin sıxlığı səbəbi ilə bu uşaqların da cinayət törətmə ehtimalları və ya cinayətə məruz qalma ehtimalları yüksəkdir.

Sosial təhlükəli vəziyyətdə olan şəxslər kateqoriyasına hüquq pozuntusu törədən şəxslər, yəni qanunla münaqişədə olan şəxslər, əsasən də uşaqlar aid edilir. Ona görə ki, sosial iş əsasən qanunla münaqişədə olan uşaqlara münasibətdə təşkil edilir. Məlumdur ki, Azərbaycanda tam cinayət məsuliyyəti üçün yaş həddi 16 yaş müəyyən olunmuşdur. Lakin 14 yaşlı yeniyetmənin törətdiyi cinayət əməli Cinayət Məcəlləsinin 20-ci maddəsinə uyğun gələrsə, o zaman həmin yeniyetmə cinayət məsuliyyəti daşıyır. Buraya aşağıdakılar daxildir: qəsdən adam öldürmə, bilərəkdən səhhətə ağır zərbə yetirilməsi, soyğunçuluq, zorakılıq, narkotik və psixotrop maddələrin oğurlanması, insan oğurluğu, zorlama, oğurluq və s.

Uşaqlar üçün mövcud olan saxlanma müəssisələrinə aiddir: Müvəqqəti Təcridxana Mərkəzi; Məhkəmədən əvvəl saxlanma mərkəzi; Xüsusi məktəb; Xüsusi İslah müəssisəsi; Yeniyetmələrin islah müəssisəsi.

14 yaşınadək uşaq cinayət məsuliyyəti daşımır. Eyni zamanda Cinayət Məcəlləsinin 22-ci maddəsi ilə əhatə edilməyən cinayət törətmiş 14-16 yaş arasında olan uşaq da cinayət məsuliyyəti daşımır. Lakin buna baxmayaraq onların məsələləri Yetkinlik Yaşına Çatmayan Şəxslərin İşləri üzrə

Komissiyaya verilə bilər və uşaq qanunsuz əməlinə görə inzibati cəzalar və sanksiyaların subyekti ola bilər.

**Sosial təhlükəli vəziyyətdə olanlarla sosial xidmətin təşkilində sosial işçilərin rolu**

Sosial təhlükəli vəziyyətdə olanların sosial və hüquqi statusu sosial xidmət münasibətlərinin tənzimlənməsi ilə əlaqədar respublikamızın bütün əhalisinə ünvanlanan "Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il tarixli qanunla müəyyən olunur. Həmin qanunla sosial təhlükəli vəziyyətdə olanlarla yanaşı ahılların, valideynlərini itirən və valideyn himayəsindən məhrum olan uşaqların, qaçqınların və məcburi köçkünlərin, əlillərin, daimi yaşayış yeri olmayan digər şəxslərin sosial xidmət və sosial reabilitasiya məsələləri tənzimlənir [6].

Ümumiyyətlə, müasir sosial xidmət sistemində təşkilati və hüquqi islahatlar dövlətin siyasi iradəsi əsasında son 5 ildə özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Sosial xidmət sektorunda ilkin olaraq islahat "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 30 dekabr 2011-ci il tarixli Qanununun qəbul edilməsi və qüvvəyə minməsi ilə başlanmışdır. Bundan sonra həmin qanunun icrası məqsədi ilə tez bir zaman kəsiyində Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən çoxsaylı normativ hüquqi aktlar qəbul edilmişdir.

Müasir dövrdə sosial təhlükəli vəziyyətdə olanların sosial müdafiəsinin səmərəli və real surətdə həyata keçirilməsində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və mərkəzlərinin fəaliyyəti danılmazdır. Azərbaycan dövlətinin sosial xidmət siyasətinin, bütövlükdə sosial siyasətinin ən uğurlu nəticələrindən biri kimi DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və mərkəzlərinin yaradılmasını göstərmək olar. Azərbaycan Respublikasının Prezidentinin 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyndə DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyi və 6 DOST mərkəzi yaradılmışdır. Mərkəzdə bütün xidmətlər sistemləşdirilmiş formada "bir pəncərə" prinsipi üzrə şəffaf, operativ şəkildə vətəndaşlarla açıq iş şəraitində təqdim olunur. Həmin xidmətlərin siyahısında əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələrdə 126 xidmət əhatə olunur. Mərkəzin iş mexanizmi elə qurulub ki, xidmətlərdən istifadə prosedurları sadəliyi, çevikliyi, müraciət edən vətəndaş üçün rahatlığı, tam şəffaflığı ilə ictimai məmnunluğa səbəb olub. Bütövlükdə DOST layihəsi məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, bu xidmətlərdə şəffaflığın artırılmasına və vətəndaş məmnunluğunun təmin olunmasına xidmət edir.

Sosial təhlükəli vəziyyətdə olanlara münasibətdə sosial xidmət siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti də olduqca təqdirəlayiqdir. Belə ki, komitənin 12 rayonda Uşaq və ailələrə dəstək mərkəzləri fəaliyyət göstərir və hazırda həmin mərkəzlər faktiki olaraq sosial xidmətin subyekti hesab edilən çətin həyat şəraitində olan ailələrin sosial problemlərinin aradan qaldırılmasında mühüm rol oynayırlar.

Sosial təhlükəli vəziyyətdə olanlara, eləcədə küçə həyatına məruz qalmış uşaqların sosial probleminin həllində və onların sosial xidmətlərə cəlb edilməsində *sosial işçinin* yerinə yetirməli olduğu *vəzifələri* aşağıdakı kimi təsnifləşdirmək olar:

a)uşaqlara aid məlumatları toplamaq, qeydlər aparmaq və şəxsi dosyelər hazırlamaq; uşaqların inamını qazanmaq. Küçə həyatına məruz qalmış uşaqlarla iş zamanı ən başlıca prinsiplərdən biri budur. Onlar heç kimə inanmırlar, hər kəs tərəfindən aldadılırlar, dostluq əlaqələri yoxdur, hətta valideynləri də onlar üçün düşməndir;

b)uşaqlara real kömək göstərmək. Bu, tibbi kömək, valideynlərin axtarışı, sənədlərin qeydiyyatı, psixoloji və maddi köməkdir;

c)Əlaqədar orqanlarla əlaqələr qurub küçə həyatına məruz qalmış uşaqların problemlərini onlara çatdırmaq;

d)uşaqların ailələri və yaxın çevrələri ilə əlaqələr qurmaq;

e)hər hansı bir uşağı ailəyə qaytarmaq və ya onun alternativ xidmətlərlə (foster ailə, ailə qrup evi və s.) təmin edilməsi üçün işlər görmək;

f)vəziyyətin (case-in) müzakirəsi və dəyərləndirilməsi hesabatları hazırlamaq;

g)uşaqların reabilitasiyasına yönəlimiş müşahidə, qoyulmuş diaqnoz və aparılan müalicəni sonrakı müddətdə də davam etdirmək;

h)ailəsinə və cəmiyyətə reinteqrasiya olunan uşaqların ixtisasa yiyələnmələrində, işlə təmin olunmalarında və təhsil müddətini tamamlamaları istiqamətində rəhbərlik etmək;

x)uşaqların qabiliyyətlərini kəşf etmək və dünyagörüşlərini genişləndirmək;

i)iqtisadi kasıblıq vəziyyətində olduğu təsbit olunan uşaqlara və ailələrinə, sosial yardımların göstərilməsi qaynaqlarından və qurumlarından yararlanmalarına yardım göstərmək;

j)uşaqların sosiallaşmasına yardım edəcək hər cür sosial, mədəni və idman fəaliyyətlərini yerinə yetirmək;

k)uşaqların peşə fəaliyyətləri və onlarla əlaqədar bütün qeydlərin məxfilik prinsipinə uyğun hazırlamaq və həyata keçirmək.

**Nəticə**

Müasir dövrümüzdə cəmiyyətin sosial strukturunda sosial təhlükəli vəziyyətdə olan şəxslər kateqoriyasını fərqləndirmək olar. Hesab edirik ki, sosial təhlükəli vəziyyətdə olan şəxslər dedikdə, baxımsızlıq və ya kimsəsizlik nəticəsində həyatına və ya sağlamlığına təhlükə yaranan, yaxud tərbiyə edilməsi və ya saxlanması üçün tələblərə cavab verməyən şəraitdə olan, yaxud hüquq pozuntuları törədən şəxslər başa düşülməlidir. Bu anlayışdan göründüyü kimi şəxsin sosial təhlükəli vəziyyətdə olması aşağıdakı əlamətlərlə xarakterizə olunur: 1. baxımsızlıq; 2. kimsəsizlik; 3. tərbiyə edilməsi və ya saxlanması tələblərə cavab verməyən şəraitdə olması; 4. hüquq pozuntuları törətməsi.

Baxımsız özündə təlim-tərbiyə vermək, yaxud saxlamaq vəzifəsinin valideynləri və ya digər qanuni nümayəndələri tərəfindən yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi nəticəsində şəxslərin davranışına nəzarətin olunmamasını özündə ifadə edir. Kimsəsizlik isə, müəyyən yaşayış yerinin və ya qalmağa yerinin olmaması başa düşülməlidir. Tərbiyə edilməsi və ya saxlanması tələblərə cavab verməyən şəraitdə olması əlaməti əsasən yetkinlik yaşına çatmayanlarla bağlıdır. Bu əsasən natamam ailələrdə yaşayan uşaqları əhatə edir.

Sosial təhlükəli vəziyyətdə olan şəxslər içərsində uşaqları, əsasəndə küçə həyatına məruz qalmış uşaqlar ("küçə uşaqları") xüsusi olaraq fərqləndirilir. *Küçə uşaqlarının küçəyə yönəlməsi və ya küçədə yaşaması səbəblərini aşağıdakı faktorlar üzrə təsnifləşdirmək olar:*

1. Sosial-iqtisadi faktor - yoxsulluq, işsizlik.
2. Ailənin "mədəni" quruluşu - çöl quruluşun davamı olaraq uşağın işlədilməsi.
3. Ailənin dağılması - boşanma, valideynlərin ölümü.
4. İstismar - ailənin uşağı iqtisadi baxımdan istismarı.
5. Ailə problemləri – zorakılıq, imtina, münaqişə və s.
6. Ailədəki ağır iş tələblərindən qurtuluş yolu.
7. Valideynlərin spirtli içkilərdən və narkotik vasitələrdən istifadə etmələri.
8. Sosial müəssisələrdə yaşayan uşaqların müəssisədən qaçmaq istəyi.
9. Uşaq üçün küçə azadlığı - küçə həyatının cazibədarlığı. Bəzən uşaqlar, yeniyetmələr küçədə həyatın daha maraqlı olduğunu, sərbəstliyin, azadlığın olduğunu, özlərini orada daha yaxşı ifadə edəcəklərini, daha yaxşı təmin ediləcəklərini düşünürlər.
10. Miqrasiya proseslərinin kəskin artması, əyalətlərdən böyük şəhərlərə miqrasiya, urbanizasiya – kənddən, əyalətdən nisbətən inkişaf etmiş şəhərə, paytaxta insanlar miqrasiya edir. Böyük şəhərlər isə heç də hər zaman gələn insanları qəbul edəcək vəziyyətdə olmur. Belə olan halda isə gələnlər dağılmış evlərdə qalmağa məcbur olurlar. Təbii ki, iş tapmaq da çətin olur. Bu zaman ailə uşağın əməyindən istifadə etməyə başlayır. Uşaq böyük şəhərlərdə ya dilənçilik edir, ya maşın yuyur, təkər qaraldır, ya da küçələrdə oğurluqla məşğul olub ailəsini saxlayır.

Aparılmış təhlillər əsasında hesab edirəm ki, ölkədə sosial təhlükəli vəziyyətində olan şəxslərlə aparılan sosial işin sistemli şəkildə həyata keçirilməsi və onların sosial probleminin həllinə sosial işçilərin daha səmərəli şəkildə cəlb edilməsi məqsədilə keys menecment metodu

(“keys menecment” dedikdə geniş mənada sosial xidmətin göstərilməsi, sosial işçilərin fəaliyyəti sayəsində aparılan iş və metodlar nəzərdə tutulur) geniş tətbiq edilməli və həmin metodu özündə əks etdirən təlimat işlənib hazırlanmalıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1.Bağırlı A.H. Azərbaycan cəmiyyətinin sosial strukturunda aztəminatlı ailələrin yeri və rolu. Sosiologiya üzrə fəlsəfə dok. dis. …avteoreferatı. Bakı, 2017, 29 c.
2.Həsənov R.M. Sosial siyasət. Bakı: Avropa, 2016, 310 s.
3.Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla sosial işin əsasları. Bakı: Avropa, 2019, 72 s.
4.Rəcəbli H.M. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Dərs vəsaiti. Bakı: MBM, 2012, 408 s.
5.Sosial iş bacarıqları. Bakı: Meqa, 2018, 72 s.
6.“Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: http://www.meclis.gov.az/?/az/legislation/view/1998/ Müraciət olunub: 1.12.2022
7.Мачульская Е.Е. Право социального обеспечения. Учебник для бакалавров. М.: Юрайт, 2012, 575 c.
8. Домохозяйка — тоже профессия: предлагается платить пособие неработающим женам и мамам. [Elektron resurs]. URL: https://zerkalo.az/domohozyajka-tozhe-professiya-predlagaetsya-platit-posobie-nerabotayushhim-zhenam-i-mamam/. Müraciət olunub: 4.12.2022

**Маис АЛИЕВ**

**СОЦИАЛЬНЫЙ СТАТУС ЛИЦ НАХОДЯЩИХСЯ В СОЦИАЛЬНО ОПАСНОМ ПОЛОЖЕНИИ И РОЛ СОЦИАЛЬНЫХ РАБОТНИКОВ В ОРГАНИЗАЦИИ ИХ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ**

**Резюме**

В данной статье исследуются вопросы социального статуса лиц находящихся в социально опасном положении и рол социальных работников в организации их социального обслуживания в Азербайджане. В статье определяется понятие лиц находящихся в социально опасном положении, анализируется причины попадания их в такое положения и рол социальных работников в организации их социального обслуживания. В целях качественного осуществления социально работы с лицами находящихся в социально опасном положении, исследователем предлагается разработка инструкции, заключающей в себя широкого применения метода кейс менеджмента.

**Ключевые слова:** *социальная, обслуживание, трудная ситуация, политика, образование, опасность*

**Mais ALİYEV**

**THE SOCIAL STATUS OF PERSONS IN A SOCIALLY DANGEROUS SITUATION AND THE ROLE OF SOCIAL WORKERS IN ORGANIZING THEIR SOCIAL SERVICES**

**Summary**

This article examines the issues of the social status of persons in a socially dangerous situation and the role of social workers in organizing their social services in Azerbaijan. The article defines the concept of persons in a socially dangerous position, analyzes the reasons for falling into such positions and the role of social workers in organizing their social services. In order to carry out high-quality social work with persons in a socially dangerous situation, the researcher proposes to develop an instruction that includes the widespread use of the case management method.

**Keywords:** *social, service, difficult, politics, education, danger.*

**Sahə redaktoru: professor İzzət Rüstəmov**

UOT: 364.044.22

**Nargilə RZAYEVA***

# ÖVLADLIĞA GÖTÜRMƏ VƏ ALTERNATİV XİDMƏTLƏR

*Məqalə redaksiyaya daxil olmuşdur: 16 dekabr 2022; çapa qəbul edilmişdir: 18 dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: December 16, 2022; accepted for publication: 18 December 2022; published online: 29 December 2022*

**Xülasə**

Doğulan hər bir uşaq unikaldır və doğulduğu vaxtdan etibarən bəzi hüquqlara sahibdir. Özünəməxsus qayğıya ehtiyacı olan uşaqların ailə mühitində yaşamaq və tərbiyə almaq hüququ vardır, lakin bəzi hallarda uşaq bu hüquqlardan məhrum olur. Övladlığa götürmə prosesi isə uşağın itirilmiş bu hüquqlarını nisbətən bərpa etməyə xidmət edir.

Bu məqalə yalnız Azərbaycanda deyil, dünya təcrübəsində övladlığa götürmə prosesinin dövlət çərçivəsində necə tənzimlənməsini araşdırmaq və övladlığa götürmənin həm uşaq, həm də ailə üçün əhəmiyyətini vurğulamaq məqsədilə yazılmışdır.

***Açar sözlər:*** *Övladlığa götürmə, himayədar ailə, foster ailə, bioloji valideyn, namizəd valideyn.*

## Giriş

Cəmiyyətin bir üzvü hesab olunan uşaqların sağlam şəkildə böyüməsi, sosiallaşması ilk öncə ailə mühitində baş verir. Kiçik bir dövlət hesab olunan ailə ər-arvad münasibətləri əsasında yaranır, valideyn-övlad münasibətləri zəminində isə inkişaf etməyə başlayır. Lakin bu münasibətlər hər zaman müsbət istiqamətdə inkişaf etmir və nəticədə övlad valideyn himayəsindən kənar qalır. Valideyn himayəsindən məhrum olmuş uşaqlarda istər sosial, istər iqtisadi, istərsə də psixoloji problemlər özünü biruzə verməyə başlayır. Bu kimi problemləri həll etmək həm cəmiyyətin, həm də dövlətin əsas öhdəliklərindən biridir. Uşağın normal inkişafına təkan verən faktor ailə olduğundan valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətə faydalı fərd kimi yetişdirilməsi üçün onların ailə mühiti ilə əhatə olunması və ya övladlığa verilməsi ən optimal variantdır [2].

## Övladlığa götürmə prosesinin əhəmiyyəti

Dünyaya göz açan hər bir uşağın onu əzizləyən, qayğısına qalan, sevgi göstərən, ilkin fizioloji tələbatlarını təmin edən (yedizdirən, içizdirən, təmizləyən), bir sözlə, uşağın təməl ehtiyaclarını ödəyən valideynə ehtiyacı vardır. Bu, ən yaxşı halda uşağın öz bioloji valideyni olsa da, hər iki valideynin ölümü, valideynlərin valideynlik hüququndan məhrum edilməsi, valideynlərin öz istəkləri əsasında övladlarından imtina etməsi, valideynlərdən birinin və ya hər ikisinin həbs edilməsi, maliyyə-iqtisadi problemlər ilə əlaqədar uşağın ehtiyaclarını ödəyə bilməmək və s. səbəblərdən bəzi uşaqlar bioloji valideynlərinin himayəsindən məhrum olurlar. Belə olduqda uşağın ehtiyaclarını qarşılayan şəxs qismində onu övladlığa və ya himayəyə götürən tərəf çıxış edir. Məhz vacib olan da uşağın ailə mühitində böyüməsi və lazımi mənəvi hisslərlə ( sevgi, qayğı, diqqət, mərhəmət, empatiya) təmin olunmasıdır. Bioloji valideynlərini itirən və ya valideyn himayəsindən məhrum olmuş uşağın hər hansı səbəbdən başqa ailə və ya subay şəxs tərəfindən qanuni şəkildə götürülüb böyüdülməsi övladlığa götürmə adlanır [2].

Övladlığa götürmə prosesinin subyektini ilkin olaraq ailələr, daha sonra isə subay şəxslər təşkil edir. Ailə həyatı quran hər bir fərdin övlad sahibi olmaq istəyi zamanla mövcud olmuşdur. Lakin bəzi ailələr ya övlad sahibi ola bilmədiklərindən dolayı, ya da sadəcə olaraq kimsəsiz bir

* *Azərbaycan Universiteti, magistr, Bakı, Azərbaycan*
*E-mail:* nargilerzayeva1122@gmail.com

uşağa yuva olmaq məqsədilə övladlığa götürmə prosesinə müraciət edir. Qeyd etmək lazımdır ki, ailələrin övladlığa götürmə məsələsinə münasibəti də birmənalı deyildir və bu münasibət cəmiyyət həyatından, ailənin fərdi xüsusiyyətlərindən, müxtəlif ölkələrdə övladlığa götürmə prosesinin strukturundan və s. asılı olaraq dəyişə bilər.

**Azərbaycan Respublikasında övladlığa götürmə prosesi**

Azərbaycan Respublikasında övladlığa götürmə məsələsi Ailə Məcəlləsinin 18, 19, 20, 24-cü fəsilləri ilə tənzimlənir [11]. 2019-cu ildən etibarən övladlığa götürmə prosesi Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə həvalə olunub. Nazirliyin iki tabe qurumu – Sosial Xidmətlər Agentliyi (SXA) və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) övladlığa götürmə prosesi üzrə məsul orqanlar hesab olunurlar. Həmçinin 2019-cu ildən etibarən övladlığa götürmə ilə bağlı altsistem formalaşıb. Övladlığa uşaq götürmək istəyən valideyn namizəd öncə e-sosial saytından qeydiyyatdan keçib şəxsi kabinet yaradır və övladlığa götürmə alt sisteminə daxil olur. İlk olaraq lazımi informasiyaları daxil etdikdən sonra şəxsin və ya ailənin övladlığa uşaq götürmək üçün uyğun olub-olmadığı müəyyənləşir. Əgər müraciətçi uyğun vətəndaşdırsa, müəyyən sənədləri skan edib yerləşdirməsi tələb olunur. (notariatdan ərizə, sağlamlıq haqqında arayış və s)

Müraciətçinin təmasda olduğu ilk orqan DOST Agentliyidir (məsləhət, hansı sənədlər lazımdır, sənədlər uyğundursa onları sistemə əlavə etmək). Sistemə daxil olduqdan sonra vətəndaşın DOST Agentliyi ilə əlaqəsi sonlanmış olur. Sonraki mərhələdə isə məlumatlar SXA-ya yönləndirilir, daha sonra SXA lazımi prosedurları - sosial işçilər qrupunun şəxslə və ya ailə ilə görüşünü, onların psixoloji vəziyyətlərinin yoxlanılmasını, məişət şəraitlərinin uyğun olub-olmamasını həyata keçirir. Müsbət rəy verildiyi təqdirdə valideyn namizəd təlimlərə cəlb olunur. Əgər valideyn namizəd övladlığa götürmə üçün uyğun görülərsə, müəssisəyə getmədən elektron qaydada öz şəxsi istəklərinə uyğun kriteriyaları sistemə daxil edir. Yalnız irəli sürülmüş kriteriyalara uyğun uşaq tapılarsa (sistem uyğun uşaq tapıldıqca onların video və şəkillərini valideynin şəxsi kabinetinə yerləşdirir), bundan sonra müəssisədə namizəd valideyn və uşaq arasında görüş keçirilir. Görüşlər 2 ay 40 saatdan az olmamaq şərtiylə sosial işçinin iştirakı ilə davam edir. Daha sonra valideyn ilə Sosial Xidmətlər Agentliyi arasında müqavilə imzalanır və uşaq 3 aylıq valideyn namizədin evinə yerləşdirilir. 3 ay ərzində mütəmadi olaraq sosial işçilər tərəfindən monitorq aparılır. Agentlik sonda məhkəməyə müsbət rəy verərsə, proses tamamlanır.

**Türkiyə Respublikasında övladlığa götürmə prosesi**

1 yanvar 2002-ci ildə Türkiyə Respublikasında 4721 saylı Türk Mülki Məcəlləsi qüvvəyə minmişdir və övladlığa götürmə məsələsinin hüquqi tərəfləri bu məcəllənin 2-ci bölümünün (Qohumluq) 4-cü fəsli (Övladlığa götürmə) ilə tənzimlənir. Yetkinlik yaşına çatmayan hər hansı bir şəxsin övladlığa verilməsinin ilkin şərti onun qanuni valideynlərinin razılığının olmasıdır. Əgər uşağın bioloji valideyninin kim olması, harada yaşaması bəlli deyilsə və ya uşağa lazımi qayğını göstərə bilmirsə bu halda razılığa ehtiyac yoxdur. Övladlığa götürən şəxslər bəlli olmamışdan əvvəl və ya sonra uşağın yaşadığı yer üzrə məhkəməyə bioloji valideynin həqiqətən uşağının övladlığa götürülməsinə icazə verməsi ilə bağlı razılıq ərizəsi yazması vacibdir. Bioloji valideyn tərəfindən razılıq ərizəsi yalnız yeni doğulmuş uşağın 6 həftəsi tamam olduqdan sonra məhkəməyə təqdim edilə bilər. Həmçinin verilən razılıq məhkəmə tərəfindən təsdiqləndikdən sonra 6 həftə içərisində eyni qaydayla geri alına bilər. Lakin icazə geri alındıqdan sonra yenidən verilən razılıq ərizəsi qəti xarakter daşıyır. Evli olmayan şəxslərin birgə övladlığa uşaq götürməsinə icazə verilmir. Evli şəxslərin isə övladlığa uşaq götürə bilməsi üçün bir-birinə alternativ 2 şərt mövcuddur: 5 ildən artıq evli olmaq və ya 30 yaşına çatmaq. Ən azı 2 il evli olması və ya 30 yaşı keçməsi şərti ilə evli olan şəxslərin hər hansı birinin digərinin uşağını övladlığa götürməsi də mümkündür. Övladlığa götürmə prosesinin subyekti yalnız ailələr deyil, subay şəxslər də ola bilər. Subay şəxslərin övladlığa uşaq götürə bilməsi üçün minimum yaş həddi 30-dur. Övladlığa götürən şəxslə övladlığa götürülən uşaq arasında yaş həddi minimum 18 yaş olmalıdır. Müvafiq məcəlləyə əsasən, yetkinlik yaşına çatmayanların övladlığa götürülməsi üçün uşağın onu övladlığa götürmək istəyən şəxs tərəfindən 1 il müddətinə himayədə saxlanılması lazımdır. Həmçinin, övladlığa götürənlə övladlığa götürülmüş

uşaq arasında və ya onlardan biri ilə digərinin övladları və həyat yoldaşı arasında nikahın bağlanılması qadağandır [3, s.4].

Valideyn himayəsindən məhrum olmuş uşaqlar dövlət tərəfindən qorunsalar da, tərbiyəçilər tərəfindən nəzarət altında olsalar da, elmi tədqiqatlarda da təsdiqini tapdığı kimi uşağın ailə mühitində böyüməsi onun həm fiziki, həm də psixoloji inkişafı üçün daha əhəmiyyətlidir. Dövlət uşaq müəssisələrində böyüyən uşaqların övladlığa verilməsi üçün bioloji valideynlərin icazəsi mütləqdir. Araşdırmalara əsasən, müəssisədə böyüyən uşaqların əksəriyyəti bioloji ailələri olan uşaqlardır və ailə müxtəlif səbəblərdən uşağın qayğısına qala bilmədiyi üçün onu müəssisəyə vermişdir. Belə olan halda bioloji valideynlər yalnız uşaqlarının fiziki tələbatlarının ödənilməsini vacib hesab edir və uşaqlarının övladlığa verilməsinin tərəfdarı olmurlar. Övladlığa götürmə prosesinə alternativ variant hesab olunan himayədar ailələr də məhz bu zaman əhəmiyyət kəsb edir. Türkiyə Respublikasında himayədar ailə sistemi mövcuddur. Uşaq müəssisəsində böyüyən uşaqlar bioloji valideynlərinin razılığına ehtiyac olmadan himayədar ailəyə verilir. Müntəzəm gəliri olub, ən az orta təhsil almış 25-65 yaş aralığında olan şəxslər və ailələr himayədar ailə kimi müraciət etmək hüququna sahibdirlər. Uşaqlar himayədar ailəyə verildikləri zaman 18 yaşına çatanadək ailənin soyadını qəbul edə bilmir və ailənin qanuni varisi hesab edilmir. Bu sistemdə önəmli nüans ondan ibarətdir ki, uşağa fiziki və psixoloji olaraq sağlam mühiti formalaşdıran ailənin modeli mövcuddur. Həmçinin, Türkiyə Respublikasında uşağın təhsil, geyim, cib xərci kimi ehtiyaclarını qarşılaya bilmələri üçün himayədar ailələrə dövlət tərəfindən iqtisadi dəstək göstərilir [10].

**ABŞ-da övladlığa götürmə prosesi**

2000-ci ildən etibarən 19 noyabr ABŞ-da Milli Övladlığa Götürmə Günü kimi qeyd olunur. Amerika Birləşmiş Ştatlarında övladlığa götürmə prosesinin iştirakçılarını, əsasən, ögey valideynlər təşkil edir. Digər qrupa isə himayədar ailələr daxildir. Övladlığa götürülən uşaqlar daha çox kiçik yaş qrupuna daxil olan uşaqlardır.

Amerikada hər bir ştatın övladlığa götürmə sahəsində özünəməxsus qanunları və tələbləri mövcuddur. Buna görə də övladlığa uşaq götürmək istəyən namizədlər mütləq həmin ştatın qanunlarından xəbərdar olmalı və mütəxəssisə müraciət etməlidirlər. Övladlığa götürmə prosesi namizədin yaşadığı yerdən, hansı agentliklə əlaqə saxlamasından və övladlığa götürmənin hansı növünə (yerli övladlığa götürmə, beynəlxalq övladlığa götürmə, az yaşlıların və böyüklərin övladlığa götürülməsi, açıq övladlığa götürmə, himayədarlıq) müraciət etməsindən asılı olaraq dəyişə bilər. Açıq övladlığa götürmə nədir? Açıq övladlığa götürmə bioloji və namizəd ailənin ad, soyad, telefon nömrəsi, email adresi və s. kimi lazımi məlumatları bir-biri ilə paylaşdığı və mütəmadi olaraq bir-biri ilə əlaqə saxladığı övladlığa götürmə formasıdır. Lakin bir ailə üçün açıq hesab edilən övladlığa götürmə digəri üçün eyni təəssürat yaratmaya bilər. Burada əsas məsələ bioloji ailənin nəyi tələb etməsi, namizəd ailənin isə nəyi qəbul etməsidir və hər bir halda açıq övladlığa götürmə bioloji və namizəd ailənin birgə övladlığa götürməsi demək deyil [6, s.12].

9 noyabr Dünya Övladlığa Götürmə Günüdür. Belə ki, Los Ancelesdə bir qrup gənc beynəlxalq səviyyədə övladlığa götürmə gününün qeyd olunmadığını müşahidə etmiş və komanda halında toplanaraq bu günü təsis etmişdilər. 2014-cü ildən başlayaraq hər il 9 noyabr tarixində övladlığa götürmə günü qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd övladlığa uşaq götürən ailələri dəstəkləmək, bu sahədə geniş maarifləndirmə tədbirlərinə diqqəti çəkməkdən ibarətdir [18].

**Almaniyada övladlığa götürmə prosesi**

Almaniyada övladlığa götürmənin hüquqi əsasları Almaniya Mülki Məcəlləsinin 1741-1772-ci maddələri ilə tənzimlənir. Bürgerliches Gesetzbuch və ya BGB uşaq götürmək üçün Bremen Övladlıq Mərkəzinə (Adoption Center Bremen) müraciət etmək lazımdır. Bu mərkəz övladlığa götürmə ilə bağlı müraciət edən şəxslərin prosesə uyğunluğunu yoxlayır və uyğun olduğu təqdirdə lazımi prosedurları həyata keçirir. Valideyn namizədin uyğunluğunun yoxlanılması müraciətçinin məişət şəraitinin yoxlanılmasına, təlimlərdə iştirakına, keçirilən müsahibələrə, övladlığa götürmə üçün tələb edilən sənədlərin düzgünlüyünə əsaslanaraq həyata keçirilir. Uşağın rifahı hər zaman önəm kəsb etdiyi üçün, mərkəzdə işləyən komanda uşağa uyğun valideynin seçilməsinə qərar verir [7].

Birgə övladlığa uşaq götürmək səlahiyyəti yalnız evli şəxslərə aiddir. Cütlüklərdən birinin ən az 25 yaşı, digərinin isə 21 yaşı olmalıdır. Həmçinin maddi vəziyyətin qənaətbəxş olması, sağlamlığı təsdiq edən arayışın mövcudluğu, iş şəraitinin uşağın qayğısına qalmaq üçün münasib olması və s. göstəricilər də övladlığa götürmə üçün nəzərdə tutulan şərtlər sırasına daxildir. Almaniyada övladlığa uşaq verilərkən daha çox evli şəxslərə üstünlük verilir. Lakin uşaqla namizəd arasında əhəmiyyətli dərəcədə yaxınlığın mövcudluğu, yaxın qohumu övladlığa götürmə halları olduğu halda yalnız 1 uşaq götürmək şərtiylə subay şəxslər də övladlığa götürmə prosessinin subyekti kimi çıxış edə bilər. Uşağın ailəyə yerləşdirildiyi vaxtdan etibarən övladlığa götürmə prosessi başlayır, ailə məhkəməsinin övladlığa götürməni təsdiqləməsi ilə isə prosess yekunlaşır [6, s.18].

Həmçinin Almaniyada homoseksual fərdlərin rəsmi şəkildə nikaha daxil olmasına icazə verildiyi üçün övladlığa uşaq götürülməsinə də icazə verilir.

**Hindistanda övladlığa götürmə prosesi**

Hindistan Respublikasının Mərkəzi Övladlığa Qəbul Resursları İdarəsi (CARA) Qadın və Uşaq İnkişafı Nazirliyinin qanuni orqanı hesab olunur. Bu orqanın səlahiyyətləri həm ölkədaxili, həm də ölkələrarası övladlığa götürmə prosesini tənzimləməkdən ibarətdir [8].

Hindistanda övladlığa götürməni tənzimləyən qanuna görə uşağın əsasən Hindistan vətəndaşlarına övladlığa verilməsi, övladlığa götürülən uşağın maraqlarının üstün tutulması, bütün övladlığa götürmə hallarının qeydə alınması və təşkilat tərəfindən məxfiliyin qorunması əsas prinsiplər hesab olunur. Subay valideyn namizədin övladlığa uşaq götürməsi həm övladlığa uşaq götürmək istəyən şəxsin, həm də övladlığa götürüləcək uşağın cinsindən asılıdır. Belə ki, qadın namizədlərə həm oğlan, həm qız uşaqlarını övladlığa götürmək icazəsi verildiyi halda, kişi namizədlər yalnız oğlan uşaqlarını övladlığa götürə bilərlər. Ailələrin övladlığa uşaq götürə bilməsi üçün ən az 2 il rəsmi şəkildə evli olmaları tələb edilir [8, s.9].

**Nəticə**

Bəzi ailələr və fərdlər övladlığa götürmə məsələsinə tərəddüdlə yanaşsalar da, bu proses nəticəsində həm uşaq sahibi ola bilməyən ailələr artıq uşaq sahibi olmuş olur və xəyalındakı ailə modelinə qovuşur, digər tərəfdən isə valideyn qayğısından məhrum bir uşaq yeni bir ailə qazanır və daha güvənli şəkildə böyümüş olur [4].

Azərbaycan Respublikasında dövlət səviyyəsində övladlığa götürmə prosesi mövcud olsa da, müəssisə şəraitində böyüyən uşaq sayı üstünlük təşkil edir. Bunun üçün də sosial şəbəkələrdə, KİV-lərdə övladlığa götürmənin və ona alternativ olan himayədar ailənin əhəmiyyətini vurğulamaq, sosial maarifləndirmə tədbirlərinin düzgün şəkildə təbliğinə yönələn addımlar atılmalıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1.BGB - Bürgerliches Gesetzbuch. [Elektron resurs]. URL: https://www.gesetze-im-internet.de/bgb/. Müraciət olunub: 12.04.2022

2.Central Adoption Resource AuthorityMinistry of Women & Child DevelopmentGovernment of India. [Elektron resurs]. URL: http://cara.nic.in. Müraciət olunub: 3.04.2022

3.Evlat-edinme. [Elektron resurs]. URL: https://www.artemishukuk.com/makaleler/evlat-edinme/ Müraciət olunub: 1.04.2022

4.Evlat Edinme. [Elektron resurs]. URL:https://www.nvi.gov.tr/evlat-edinme Müraciət olunub: 12.04.2022

5.How The Adoption Process Works. [Elektron resurs]. URL: https://www.americanadoptions.com. Müraciət olunub: 12.03.2022

6.Gemütliches Bremen. [Elektron resurs]. URL:https://www.bremen.de/ Müraciət olunub: 12.04.2022

7.Fikriye Ceren Sadioğlu. Türk ve İsviçre medeni kanunlarına göre eşlerin birlikte evlât edinmesi kuralı // Hacettepe Üniversitesi Hukuk Fakültesi Dergisi. Hacettepe HFD, 10(2) 2020, 730-759

8. Koruyucu aile, evlat edinme. [Elektron resurs]. URL:https://www.korev.org.tr Müraciət olunub: 10.04.2022

9. Koruyucu Aile Hizmeti. [Elektron resurs]. URL: https://aile.gov.tr/koruyucuaile/koruyucu-aile. Müraciət olunub: 11.04.2022

10.Küsmez B.Korunma İhtiyacı Olan Çocuklar İçin Kurumsal ve Alternatif Hizmet Modelleri: Bir Değerlendirme // International Journal of Social and Humanities Sciences. Yıl 2020, Cilt 4, Sayı 3, s.201 - 225

11.Neva Nigar İsgenderli. Türk ve Azerbaycan hukukunda evlat edinmenin şartları // T.C. Bahçeşehir Üniversitesi, yüksek lisans tezi. 2019, 118 s.

12.Oğuz Sadık Aydos, Yeni Medeni kanuna göre evlat edinme // Türkiye Sosyal Hizmet Araştırmaları Dergisi. Yıl 2000, Cilt 4, Sayı 2. S.1-23

13.Övladlığa götürmə və övladlığa götürmənin ləğvi ilə əlaqədar mülki işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarı. [Elektron resurs]. URL:https://e-qanun.az/framework/19146. Müraciət olunub: 12.04.2022

14.Resul Duran. Türkiye aile yapısında evlat edinme üzerine bir değerlendirme // Türkiye Sosyal Hizmet Araştırmaları Dergisi. Yıl 2021, Cilt 5, Sayı 1, 2021, s.19 - 31

15.Tarja Pösö, Marit Skivenes and June Thoburn. Adoption from care. International perspectives on children's rights, family preservation and state intervention // Research in Social Work series. 2021, P. 286

16.Türk Medeni Kanunu. [Elektron resurs]. URL:https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.4721.pdf Müraciət olunub: 12.04.2022

17.The Gazette Of India : Extraordinary [Part Ii—Sec. 3(i)]. [Elektron resurs]. URL: http://cara.nic.in/PDF/adoption_regulations_2022_2709.PDF. Müraciət olunub: 12.04.2022

**Nargila RZAYEVA**

## ADOPTİON AND ALTERNATİVE SERVİCES İN THE WORLD EXPERİENCE

**Summary**

Every child is unique and has some rights after the time of birth. Children, who needs special care, have the right to live in family environment, but in some cases, those rights may be defrauded. By the way, the process of child adoption subserves to restorate those rights of children. This article is written to analyse the process of how to regulate the child adoption governmentally not only in Azerbaijan, but also in world experience, and to emphasise the importance of child adoption for both family and child.

***Keywords:*** *Adoption, patronage family, foster family, biological parent, adoptive parent.*

**Наргила РЗАЕВА**

## УСЫНОВЛЕНИЕ И АЛЬТЕРНАТИВНЫЕ УСЛУГИ В МИРОВОЙ ПРАКТИКЕ

**Резюме**

Каждый родившийся ребёнок уникален и с момента рождения имеет определённые права. Дети с особыми потребностями в уходе имеют право жить и получать образование в семейном окружении, но в некоторых случаях эти права ребёнка нарушаются. Процесс усыновления служит для относительного восстановления этих утраченных прав ребёнка. Эта статья написана с целью прояснить, как в рамках государства регулируется процесс усыновления не только в Азербайджане, но и в мировой практике, и подчеркнуть важность усыновления как для ребёнка, так и для семьи.

**Ключевые слова**: *усыновление, приёмная семья, фостерные семьи, биологический родитель, приемный родитель.*

**Rəyçi: dos. Rəşad Əskərov**

UOT: 364.044.68

**Nəzrin MƏMMƏDOVA***

# PANDEMİYA İLƏ MÜBARİZƏ ÇƏRÇİVƏSİNDƏ SOSİAL DƏSTƏK TƏDBİRLƏRİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 dekabr 2022; çapa qəbul edilmişdir: 17 dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: December 15, 2022; accepted for publication: 17 December 2022; published online: 29 December 2022*

**Xülasə**

Məlum olduğu üzrə 2019-cu ildə bəşəriyyət çox böyük bir təhlükə - Covid-19 pandemiyası ilə üz-üzə qaldı. Dünya dövlətləri pandemiyanın yarandığı ilk gündən etibarən xüsusi karantin rejimi elan etməyə və qapanmalara getməyə məcbur qaldılar. Pandemiyanın bütün dünyanı ağuşuna aldığı belə çətin bir zamanda karantin rejimi təbiidir ki, dünya əhalisinə mənfi təsir göstərdi, insanların gündəlik həyat tərzi pozuldu. Evdən çıxmamaq, sosial məsafə saxlamağa məcbur qalmaq, tibbi maskadan istifadə etmək zərurəti insanların həyatına zərbə vurdu.Məqalənin də əsas məqsədi bu zərərlərin əhalinin gəlirlərinə,iqtisadi durumuna göstərdiyi mənfi təsirləri araşdırmaq və pandemiya dövründə ona qarşı həyata keçirilən sosial mübarizə tədbirlərini təhlil etməkdir. Bunun üçün mövzu ilə bağlı olan həm yerli, həm də xarici ədəbiyyatlardan istifadə edilmişdir.

**Açar sözlər:** *xüsusi karantin rejimi, pandemiya, sosial dəstək, gündəlik həyat tərzi, sosial məsafə.*

## Giriş

Beynəlxalq Əmək Təşkilatının araşdırmalarına əsasən, koronavirus (COVID-19) pandemiyası səbəbindən həyata keçirilən tam və yaxud məhdud iş tətilləri qlobal səviyyədə əmək qabiliyyətli çalışanların təqribən 81%-ni təmsil edən 2.7 milyard işçiyə təsir göstərib. Digər tərəfdən pandemiya risk qrupuna məxsus sektorlarda çalışan 1.3 milyard işçiyə ciddi dərəcədə təsir göstərib. Müxtəlif beyin mərkəzlərinin araşdırmalarına istinad edərək deyə bilərik ki, dünya iqtisadiyyatında ən yüksək ehtimalla 3%-ə, orta ehtimalla 6%-ə və ən aşağı ehtimalla isə 10%-ə çatan sıxılma səbəbindən 2020-ci ilin sonuna kimi 25 milyon insanın işsiz qalma ehtimalı yüksək qiymətləndirilir. ABŞ-da aparılan bir tədqiqata görə, evdən işləmək imkanı ilə adi qaydada işləməkdən əldə edilən qazanc arasında böyük bir korrelyasiya mövcuddur. Belə ki, gəlir bölgüsünün ən alt seqmentinə (alt 25%) daxil olan işçilərin sadəcə 9.2%-i evdən işləmək imkanına sahib olmasına baxmayaraq, bu səviyyə ikinci gəlir seqmenti üçün 20.1%, üçüncü gəlir seqmenti üçün 37.3% və nəhayət, ən yüksək gəlirə malik olan seqmentdə çalışanlar ücün 61.5% civarındadır. EKOSOS-un (Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial İşlər üzrə Qurumu) geniş ictimaiyyətə təqdim etdiyi "COVID-19-un sosial təsirləri" (The Social Impact of COVID-19) adlı hesabatına əsasən, optimal siyasətlər tətbiq olunmasa, pandemiyanın səbəb ola biləcəyi sosial böhran orta və uzunmüddətli dövr üçün bərabərsizlik, diskriminasiya və qlobal işsizliyin ciddi dərəcədə artmasını qaçılmaz edəcəkdir. Xüsusən qeyd etmək lazımdır ki, xidmət sektorunda çalışan aşağı gəlirli işçilərin ciddi bir hissəsi evdən işləmək imkanından məhrum olduqları kimi hərəkət məhdudiyyətlərinin həyata keçirilməsi onların işə getmə imkanlarını da əhəmiyyətli dərəcədə azaldır [3].

* *Azərbaycan Universitetinin Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial işin təşkil edilməsi ixtisası üzrə magistr*
*Email:* nezrin.memmedova099@gmail.com

Azərbaycan Respubikası Prezidenti cənab İlham Əliyevin 2010-cu il 19 mart tarixli sərəncamının icrası ilə əlaqədar olaraq Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planında iş yerlərinin qorunması, məşğulluğa və sosial rifaha dəstəyin təmin olunması əsas istiqamətlər sırasına əlavə edilib. Bu çərçivədə 2.5 milyon vətəndaşı əhatə edən Tədbirlər Planında dövlət sektoru üzrə işçilərin əsassız işdən uzaqlaşdırılmasına, ixtisarına yol verilməməsi və məzuniyyətə buraxılan işçilərin əmək haqlarının saxlanılması üçün aprel-may aylarında müvafiq tədbirlərin həyata keçirilməsi, qeyri-dövlət sektoru üzrə işəgötürənlərlə bağlı iş aparılması, gündəlik nəzarətin təmin edilməsi qeyd edilmişdir. Bunlarla yanaşı, özünüməşğulluq və ünvalı sosial yardım proqramlarının spektri genişləndirilib, işsiz və işdən azad edilmiş şəxslərin məşğulluğu və sosial müdafiəsini təşkil etmək istiqamətində iş yerlərinin sayı artırılıb. Sosial rifahın yüksəldilməsi istiqamətində müvafiq dövlət məşğulluq orqanlarında işsiz kimi siyahıya alınmış 600 min şəxsə aprel-may aylarında hər ay üçün yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə təqdim edilib, aktiv əmək müqaviləsi bildirişi olan 320 min şəxsə birdəfəlik ödəmənin verilməsindən imtina edilib. Ünvanlı dövlət sosial yardımı və əlillik müddəti xüsusi karantin rejimi dövründə bitən şəxslərə yardımlar davam etdirilib. Eləcə də sosial dəstək tədbirləri daxilində tənha yaşlılara və aztəminatlı ailələrə münasibətdə digər müxtəlif güzəşt və yardımlar həyata keçirilib. Əhali üzrə elektrik enerjisinin güzəştli istehlak həcminin genişləndirilməsi, aztəminatlı ailələrə aid tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi, həmçinin ƏDV-nin bir hissəsinin fiziki şəxs olan istehlakçılara geri verilməsi bu çərçivədə qiymətləndirilə bilər. Bütün bunlarla bərabər, əhalinin həssas təbəqəsinə yüksək sosial xidmət göstərən şəxslərin, həmçinin, xəstəliklə mübarizəyə cəlb olunan tibb və qeyri-tibb işçilərinin gəlirlərinə müddətli əlavələr və mükafatlar olunub.

**Müvafiq tədbirlərlə bağlı vətəndaş sorğusu**

Azərbaycanda dövlət səviyyəsində həyata keçirilən pandemiya şəraitinə müvafiq tədbirlərlə bağlı məlumatsız olan və cavab verməkdə çətinlik çəkən respondentlərin rəylərini çıxmaq şərti ilə, yuxarıda sözügedən istiqamətlər üzrə münasibət bildirənlərin çox hissəsi (orta göstərici 97.5%) dövlətin sosial dəstək tədbirləri ilə bağlı strategiyasını müsbət dəyərləndirilib.

Respondent rəylərinə əsasən, təqdim edilən dəstək alətləri ilə bağlı məlumatlılıq səviyyəsinin ən zəif olduğu istiqamətlər müvafiq olaraq 29.3%-lik göstərici ilə fiziki şəxs olan istehlakçılara ƏDV-nin geri verilməsi, 26.8%-lik göstərici ilə əlillik müddətinin artırılması və beləliklə, 17.2%-lik göstərici ilə sosial xidmətlərin yerinə yetirilməsi sahəsində işləyənlərin məvaciblərinə əlavələrin edilməsi tədbirləridir [1].

- Yuxarıda sadalanan dəstək tədbirləri ilə bağlı məlumatlılıq səviyyəsinin daha çox müşahidə edildiyi yaşayış yeri kimi şəhər respondentləri (55.0%) digər respondentlərlə müqayisədə ilk sırada qərarlaşıb.
- Ümumilikdə götürdükdə rəyi alınanların mütləq əksəriyyəti pandemiyanın sosial rifaha mənfi təsirinin minimallaşdırılması istiqamətində dövlət dəstəyi tədbirlərini müsbət qiymətləndirib. Dövlət qurumlarının sosial dəstək tədbirləri ilə bağlı siyasətinə əksər respondentlərin orta müsbət münasibət göstəricisi 83.6% təşkil edir. Dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətinə münasibətlə yanaşı, sözügedən dəstək tədbirlərindən məmnuniyyətin səviyyəsinin müəyyən edilməsi prioritet kimi diqqət mərkəzində saxlanılıb. Burada seçim ölçüsü kimi ümumi faydalanma spektirinin yüksək olduğu addımlar prioritetləşdirilib.
- İlk növbədə, qeyd etmək lazımdır ki, sosial dəstək tədbirindən respondentlərin faydalanma səviyyəsi zəif olduğundan onlarla bağlı məmnuniyyət meyarlarını müəyyənləşdirmək sosioloji baxımdan qeyri-mümkündür.
- İlkin araşdırmalar bizə sosial baxımdan həssas ailələrə məxsus tələbələrin təhsil haqlarının dövlət tərəfindən ödənilməsi tədbirindən faydalanma meyarının ümumi respondentlərin sadəcə 0.3%-i, ictimai iş yerlərindən yararlanma ilə bağlı analoji göstəricinin isə 0.5%-i kimi qərarlaşdığını söyləməyə əsas verir.
- Həssas əhali qruplarının təhsil haqlarının dövlət tərəfindən ödənilməsi tədbirindən iyirmi dörd mindən cox tələbənin faydalanması proqnozlaşdırılır. Araşdırmalar bizə onu deməyə əsas verir ki, sorğunun yekunu real mənzərəni özündə əks edir.

Sorğu daxilində xüsusi karantin rejiminin əhalinin məşğulluq səviyyəsinə təsirləri də nəzərə alınıb. Araşdırmalar göstərir ki, "çalışmırdım" deyən 52.3% respondentin əhəmiyyətli hissəsi - 35.6%-i təqaüdçü, 33.6%-i evdar qadın, 5.7%-i tələbə, 1.6%-i ev təsərrüfatı və 4.4%-i isə digər fəaliyyət sahələri ilə məşğul olanlardan ibarətdir. İşsizlik statistikasına əsaslanaraq söyləyə bilərik ki, bu respondent qrupları işsiz əhali kateqoriyasına aid olmaqla, bu istiqamətdə rəsmi statistika ilə təqribən eyniyyət təşkil edir. Sorğunun nəticələrinə görə ümumi respondentlərin 13.5%-i xüsusi karantin dövrünə kimi işsiz statusunda olub. Bu göstərici işsizliklə bağlı rəsmi statistikadan (4.9%) fərqlənir. Həmçinin rəylə tanış olanların 11%-i xüsusi karantin dövrü ərzində işini itirdiyini söyləyib. Lakin bu mövqedən yanaşan respondentlərin 65.4%-i tələbə, təqaüdçü, evdar qadın və digər kateqoriyalara aid olmaqla rəsmi işsizlik statusuna uyğun deyildir. Sorğunun nəticələrinin araşdırılması bizə təxmin etməyə imkan verir ki, 3.5% respondent xüsusi pandemiya dövründə işini itirmədiyini və hal-hazırda özünü işsiz kimi təqdim edən karantin dövründən öncəki işsizlərə aiddir. Yekun olaraq, sorğunun nəticələrinə görə, xüsusi karantin dövründə işsizlik səviyyəsi 3.7% artmaqla 17.2% təşkil edib.

1. Respondentlərə verilən "Xüsusi karantin rejiminin tətbiqi nəticəsində özünüz və ya ailə üzvləriniz işinizi itirdinizmi?" sualı ətrafındakı rəylərin 9 müxtəlif kombinasiyada qruplaşdıra bilərik. Özü və ailə üzvlərinin gəlirlərinə ən çox mənfi təsir etdiyini qeyd edən I, II və III qrup respondent rəyləri müvafiq olaraq 80.3%, 89.7% və 90.9%-lik göstəricilərlə xarakterizə edilə bilər.

2. Şəxslərin hərəkətinin SMS vasitəsilə məhdudlaşdırılması ilə bağlı dövlət tədbirini nisbətən mənfi qiymətləndirən respondent qrupu II qrup olmaqla 1.71 orta göstərici ilə xarakterizə edilə bilər.

3. İşsiz kimi qeydə alınan şəxslərə birdəfəlik ödəmənin (190AZN) verilməsi ilə bağlı dövlət dəstəyinə ən müsbət fikir bildirən işsiz qrup 97.2%-lik göstərici ilə VII qrupdur. Bu istiqamətdə müqayisə etibarilə ən aşağı qiymətləndirmə isə 82.1%-lə II qrupda müşahidə olunur [1].

4. İctimai iş yerlərinin yaradılması ilə bağlı dövlət təşəbbüsünə hansı qrupu təmsil etmələrindən asılı olmayaraq müsbət qiymətləndirmə səviyyəsi 97%-dən yüksək müşahidə edilib.

Tədqiqat çərçivəsində xüsusi karantin rejiminin tətbiqi nəticəsində özünün və ya ailə üzvlərinin işini itirdiyini bildirən respondentlərin xüsusi qrup kimi dövlət dəstək alətlərinə münasibəti və məmnuniyyəti qiymətləndirilib. Sözügedən respondent qrupunun demoqrafik göstəriciləri arasında qadınlar daha çox yer tutur. Adı çəkilən respondent qrupunun dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətinə baxışı aşağıdakı qənaətə gəlməyə imkan verir:

- Gördüyümüz kimi, pandemiya dövründə işini itirən respondent qrupunun ən çox məlumatsız olduğu dəstək tədbiri fiziki şəxs olan istehlakçılara ƏDV-nin geri verilməsidir (60.5%). Eyni zamanda adı çəkilən qrupun 43.5%-i ictimai iş yerlərinin təsis edilməsi ilə bağlı dövlət tədbirlərindən də məlumatsızdır.
- Bu qrup üzrə respondentlərin ən çox məlumatlı olduğu dəstək tədbiri işsiz kimi qeydiyyata alınan şəxslərə birbaşa birdəfəlik ödəmənin təqdim edilməsi ilə bağlı dövlət tədbiridir (99.2%).
- Ümumilikdə götürdükdə bu qrup üzrə fikri öyrənilənlərin mütləq əksəriyyəti-yəni, böyük hissəsi pandemiyanın sosial rifaha mənfi təsirinin minimallaşdırılması istiqamətində dövlət dəstək tədbirlərini müsbət dəyərləndirib. Dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətinə qeyd edilən qrupun münasibəti 85.4.% ilə 97.4% göstəricilər arasındadır.
- Rəyi öyrənilən qrupun mütləq əksəriyyəti (97.4%) sosial baxımdan həssas əhali qrupuna məxsus tələbələrin təhsil haqlarının dövlət tərəfindən qarşılanması üzrə addımı müsbət qiymətləndirib.
- Müqayisə etibarilə ən az müsbət qiymətləndirilən dəstək aləti isə 85.4%-lik göstərici ilə işsiz kimi qeydiyyata alınan şəxslərə birdəfəlik ödəmənin (190 AZN) təqdim edilməsidir.
- Araşdırmalar göstərir ki, sözügedən qrup üzrə işsiz kimi qeydiyyata alınan vətəndaşlara birdəfəlik ödəmə (190 AZN) barədə məlumatlı olan 99.2% respondentin mütləq əksəriyyəti (82.9%) bu dəstək alətindən yararlanmaq üçün müraciət edib. Məskunlaşma göstəricisi baxımından müraciət edənlərin 61%-i şəhər respondentləridir. Ailə vəziyyəti kontekstindən qiymətləndirilən müraciət edənlərin 70.6%-i evli, 19.6%-i subay və 9.8%-i isə boşanmış, duldur. Bu dəstək tədbirinə

müraciət edən işsiz kimi qeydiyyata alınmış respondentlərin ancaq 24.6%- i ictimai iş yerlərinə müraciət edib. Adı çəkilən dəstək tədbirinə müraciət edənlərin 85.3%-i 26-55 yaş aralığında olan şəxslərdir.

- İşsiz kimi qeydə alınan şəxslərə birdəfəlik ödəmə (190 AZN) dəstək alətinə müraciət edən 82.9% respondentin sadəcə 28.4%-i bu dəstəkdən yararlandığını bəyan edib, 71.6%-i isə mənfi cavab almaqla faydalanmadıqlarını bildirib [1].

Karantin dövründə işini itirənlərin dövlət dəstək tədbirlərinə müraciəti və yararlanma səviyyəsinin dəyərləndirilməsi, dövlət dəstək tədbirlərindən istifadə edən respondentlərin məmnuniyyətinin qiymətləndirməsi, eyni zamanda müraciəti təmin olunan respondentlərlə (3.4%) müqayisədə bu dəstəkdən faydalana bilməyən respondentlərin 39.2%-i Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) fəaliyyətini mənfi qiymətləndirib.

Karantin dönəmində işsizlərlə bağlı həyata keçirilmiş ən önəmli dəstək tədbirlərindən biri, heç şübhəsiz, ictimai iş yerləri ilə təminat məsələsidir. İctimai iş yerləri ilə bağlı informasiyaya malik olan 56.4% respondentin cəmi 20%-i, ümumi olaraq, karantin dövründə işini itirənlərin isə cəmi 11.3%-i ictimai iş yerlərinə müraciət etdiyini qeyd edib. Müraciət edən 14.3% respondent bu tədbirdən yararlandığını bildirib. Müraciətlərinə baxılmayan 85.7% respondentin profili belədir : Müraciət edən 6.5% respondentin hamısı (100%) müraciətlərinin təmin olunmadığını bildirib. Digər iki dəstək tədbirindən faydalandıqlarını bildirən karantin dövründə işini itirmiş respondentlər isə müvafiq olaraq 22.5% və 22.9% civarındadır.

Əhali üzrə elektrik enerjisi tariflərinin güzəştli istehlak həcminin çoxaldılması tədbirindən yararlananların 43.5%-i şəhər, 21.7%-i qəsəbə və 34.8%-i kəndlərdə məskunlaşan respondentlərdir.

Sorğu çərçivəsində yuxarıda qeyd edilən istiqamətdə rəyi araşdırılanların sayının əhəmiyyətli dərəcədə az olduğunu nəzərə alaraq (ən çox rəy bildirilən dəstək alətinə 29 nəfər respondent) sosioloji cəhətdən qiymətləndirmə yüksək xəta ilə xarakterizə edilə bilər. Məhz buna görə sorğunun nəticəsinin deskriptiv təhlili məqsədəuyğun deyildir. Araşdırmalar bizə onu deməyə imkan verir ki, bu qrup respondentlərin təqdim edilən dövlət dəstək tədbirlərinə müraciət etməmə səbəbləri müxtəlifdir. Eyni zamanda onu da vurğulamaq lazımdır ki, işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi (190 AZN) tədbiri istisna olmaqla, digər tədbirlərə müraciət olunmaması səviyyəsi 75%-dən daha yüksəkdir.

Respondentlərin işsiz kimi qeydə alınan şəxslərə birdəfəlik ödəmənin təqdim edilməsi (190 AZN) tədbirinə müraciət etməməsinin səbəbi kimi daha çox tələblərə uyğun olmadıqları qənaətləridir (82.9%). Müraciət formasından məlumatsız olanlar sadəcə 4.8%-dir. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, bu tədbirdən yararlana biləcəyinə ümidi olmayanlar isə müraciət etməyən respondentlərin ancaq 4.8%-ni təşkil edir. Xüsusən qeyd etmək vacibdir ki, müraciət etməyən respondentlərdən heç biri verilən məbləğin azlığını səbəb kimi bildirməyib.

Fiziki şəxs olan istehlakçılara ƏDV-nin geri verilməsi ilə bağlı tədbirə müraciət etməyənlərin 68.4%-i müraciət formasını bilmədiklərini qeydə aldıqları halda 5.3%-i geri qaytarılan məbləğin az olması, 2.6%-i isə tədbirin əhatə arealının məhdudluğunu əsas səbəb kimi göstərib.

İctimai iş yerlərinə müraciət etmədiklərini əsas gətirən işsiz kəsimin arqumentləri isə çoxistiqamətliliyi ilə diqqəti cəlb edir. Belə ki, rəyi öyrənilən işsizlərin 21.4%-i tələblərə uyğun dövlət dəstək alətlərinin reallaşdırılması çərçivəsində tələb olunan şərtlərə ictimai münasibət birmənalı olmadığı üçün hədəf respondent qrupunun adı çəkilən şərtlərə münasibəti araşdırılıb. Sorğunun nəticələrinin deskriptiv təhlili bizə aşağıdakı nəticələrə gəlməyə əsas verir:

- Rəyi araşdırılan qrup sosial dəstək tədbirləri sırasında işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin (190 AZN) təqdim edilməsi və ictimai iş yerləri ilə bağlı tələb olunan şərtləri digərləri ilə bağlı tələblərlə müqayisədə daha qeyri- məqbul hesab edib.

- Müraciəti təmin olunanların 89.7%-i işsiz kimi qeydə alınan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtlərini məqbul hesab etdiyi halda, müraciəti təmin olunmayan respondentlərdə bu göstərici 37% olub.

- Şərtləri məqbul hesab etməyən respondentlərin 76.5%-i 26-55 yaş intervalında olmaqla, 69.1%-i kişilərdən ibarətdir.

- Təhsil səviyyəsi baxımından əsasən orta təhsilli respondent qrupu (80%) işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtlərini qeyri-məqbul hesab edib.

- İşsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtlərini məqbul hesab edən əsas region kimi Gəncə-Qazax iqtisadi rayonu 36.8%-lik göstərici ilə fərqləndiyi halda, bu dəstək növünün şərtlərini qeyri-məqbul hesab edən Aran iqtisadi rayonu 21.8%-lik göstərici ilə zidd mövqedə qərarlaşır.

- Sözügedən dəstək növünü məqsədyönlü hesab etməyən 44.7% respondent qrupu bu dəstək alətinin həyata keçirilməsindən birbaşa məsul olan təşkilat kimi ƏƏSMN-in işini 46%-lik göstərici ilə mənfi qiymətləndirib. Eyni göstərici üzrə şərtləri uyğun hesab edən respondentlər 18%-lik göstərici ilə müsbət rəy bildirib.

- İctimai iş yerlərinin təsis edilməsi və işə qəbul kriteriyaları üzrə dəyərləndirmə zamanı bu dəstək alətindən məlumatlı respondentlərin 60%-nin şərtləri müsbət dəyərləndirdikləri halda, 40%-ə qədəri əks mövqedən çıxış edib.

- Müvafiq olaraq bu istiqamətdə mənfi rəy söyləyən respondentlərin 89.3%-i 26-55 yaş aralığında yer alıb. Həmçinin şərtləri uyğun hesab etməyənlərin 60.7%-i kişilərdir. Təhsil dərəcəsinə görə isə respondentlərin 85.7%-i orta və peşə ixtisas təhsillilərdir.

- Region olaraq Bakı şəhərində bu dəstək növləri üzrə şərtləri qeyri-məqbul hesab edən respondentlər 32.1%-lik göstərici ilə ön sırada yer alıblar

**Nəticə**

Məqalə yazılan zaman əldə edilən araşdırmalara əsasən gəlinən nəticələrlə tanış olaq:

- İlk növbədə Azərbaycan dövlətinin pandemiya ilə mübarizə siyasətinə, istər ölkə miqyasında həyata keçirilən qabaqlayıcı tədbirlərə, istərsə də dövlət dəstək alətlərinə ictimai rəy əsas etibarilə müsbətdir (ümumölkə səviyyəsində keçirilən sorğunun nəticələrinə görə 93.0%-lik göstərici ilə).

- Digər tərəfdən Azərbaycan dövlətinin pandemiya ilə mübarizə siyasətinin icrası ilə bağlı ictimai rəy də müsbət tendensiya ilə xarakterizə edilməkdədir (ümumi respondentlərin 51.9%-i pandemiya ilə mübarizə siyasətini “çox yaxşı”, 36.5%-i isə “əsasən yaxşı” qiymətləndirib).

- Xüsusi karantin rejimindən çıxış kimi strateji yanaşmada respondentlərin böyük bir hissəsi arasında bu istiqamətdə azalan tendensiya müşahidə edilsə də, əsasən mərhələli yanaşmaya üstunlük verilir (əgər tədqiqatın birinci mərhələsində ümumi respondentlərin 75.7%-i bu nəticədən çıxış edirdisə sonuncu mərhələdə bu göstərici 66.6% təşkil edib).

- Digər tərəfdən tədqiqat çərçivəsində rəyi öyrənilənlərin 55.6%-i pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərini yetərli hesab etdiklərini bəyan edib (bu istiqamətdə əks mövqedən çıxış edənlər ümumi respondentlərin 24.0%-ni təşkil etdiyi halda, təqribən 20.4% respondent sözügedən istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib).

İdarəedicilərə yönəlik nəticələr:

- Sərtləşdirilmiş karantin rejimindən çıxışın zamanlamasını müxtəlif parametrlər əsasında ciddi şəkildə nəzərdən keçirmək və mərhələli çıxış strategiyası çərçivəsində bütün detalları diqqət mərkəzində saxlamaq məqsədəuyğundur.

- Mümkün ikinci dalğanın ilkin simptomları müşahidə edildiyi zaman sərtləşdirilmiş karantin rejiminə keçid və sosial izolyasiya tədbirlərinə hazırlıqlı olmaq, eləcə də tərəddüd etmədən bunu reallaşdırmaq lazımdır.

- Dövlət və həmçinin özəl sektor subyektləri orta və uzunmüddətli fəaliyyət strategiyalarını potensial dalğalanmalara görə planlaşdırmalı, mövcud imkanlar dəyərləndirilməklə karantin rejimlərinə uyğun iş modelləri və texnologiyaları müxtəlif kombinasiyalarda nəzərdən keçirilməlidir.

- Epidemiya ilə mübarizənin ilkin mərhələsində “resursların birgə istifadəsi və yaxud optimal bölüşdürülməsi” ilə bağlı önəmli sosial-iqtisadi və humanitar tənzimləmə mexanizmlərinə yönəlik hüquqi müddəaların zəruriliyi diqqət mərkəzində saxlanılmadır.

**İstifadə edilmiş ədəbiyyat**

1.Əliyev S., Çıraqov E. Pandemiya ilə mübarizədə dövlətin anti-böhran siyasəti ictimai rəydə // Azərbaycan barometri. Sosial Tədqiqatlar Mərkəzi, 2020, onüçüncü buraxılış. 104 s.

2. János Besenyö, Marianna Kármán. Effects of COVID-19 pandemy on African health, political and economic strategy // Insights into Regional Development, 2020, 2 (3), pp.630 - 644

3.Preventation Covid-19 pandemy in social life. [Elektron resurs]. URL: https://www.collegetsm.in/prevention-of-covid-19-pandemic-in-social-life/. Müraciət edilib: 12.12.2022

4. Şükürov A. Müasir dövrdə ictimaiyyətlə əlaqələr işinin dövlət orqanlarının səmərəli fəaliyyətinə təsiri // Peşə təhsili və insan kapitalı. 2022, Cild 5, N 2, s.78-82

**Nazrin MAMMADOVA**

**SOCIAL SUPPORT MEASURES WITHIN THE FRAMEWORK OF FIGHTING THE PANDEMIC**

**Summary**

As it is known, in 2019, humanity faced a very big threat - the Covid-19 pandemic. Since the first day of the pandemic, the countries of the world have been forced to declare a special quarantine regime and go into lockdowns. In such a difficult time, when the pandemic has gripped the whole world, it is natural that the quarantine regime had a negative impact on the world population, and people's daily lifestyle was disrupted. Not leaving the house, being forced to maintain social distance, and the need to use a medical mask affected people's lives. The main purpose of the article is to investigate the negative effects of these damages on the incomes and economic status of the population and to analyze the social measures against it during the pandemic. For this, both local and foreign literature related to the topic were used.

**Keywords:** *special quarantine regime, pandemic, social support, daily lifestyle, social distance.*

**Назрин МАМЕДОВА**

**МЕРЫ СОЦИАЛЬНОЙ ПОДДЕРЖКИ В РАМКАХ БОРЬБЫ С ПАНДЕМИЕЙ**

**Резюме**

Как известно, в 2019 году человечество столкнулось с очень большой угрозой – пандемией Covid-19. С первого дня пандемии страны мира были вынуждены объявить особый карантинный режим и уйти на самоизоляцию. В столь непростое время, когда пандемия охватила весь мир, естественно, что режим карантина негативно сказался на населении планеты, нарушился повседневный образ жизни людей. Невыход из дома, принуждение к соблюдению социальной дистанции, необходимость использования медицинской маски повлияли на жизнь людей.Основной целью статьи является исследование негативного влияния этих повреждений на доходы и экономическое положение населения и проанализировать социальные меры против него во время пандемии. Для этого использовалась как местная, так и зарубежная литература по теме.

**Ключевые слова:** *особый карантинный режим, пандемия, социальная поддержка, повседневный образ жизни, социальная дистанция.*

**Rəyçi : dos. Üzeyir Şəfiyev**

UOT: 364.044.26

**Rəfail QULİYEV***

# MƏKTƏBLİLƏRİN QAMƏTİNİN FORMALAŞDIRILMASI VƏ MÖHKƏMLƏNDIRILMƏSI ILƏ BAĞLI MÜDDƏALARIN TƏDQİQİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 14 dekabr 2022; çapa qəbul edilmişdir: 16 dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: December 14, 2022; accepted for publication: 16 December 2022; published online: 29 December 2022*

**Xülasə**

Məktəblilərin bəzi problemlərinin həll edilməsi üçün ilk növbədə onların fiziki təhsil səviyyəsinin təkmilləşdirilməsi tələb olunur. Bu problemlərdən biri də qamət pozuntusunun profilaktikası hesab olunur.

Uşaqlarda həyat üçün zəruri olan hərəki vərdişlərin formalaşdırılması kimi qamətin düzgün tərbiyə edilməsi də əsasən pedaqoji problem kimi xarakterizə edilir.

Tədqiqatlar göstərir ki, uşaqlarda qamətin formalaşması və fiziki inkişaf prosesləri eyni vaxtda baş verir. Onda belə bir nəticəyə gəlmək olar ki, qamətin düzgün formalaşması fiziki inkişaf göstəricilərinin yüksəlməsinə müsbət təsirlər göstərir.

**Açar sözlər:** *qamət, profulaktika, fiziki inkişaf, fizioloji əyinti, onurğa sütunu, əzələ qüvvəsi, frontal səth.*

## Giriş

Məktəblilərin funksional vəziyyətini xarakterizə edən elmi-metodiki ədəbiyyat mənbələrini təhlil edərkən belə bir nəticəyə gəldik ki, funksional inkişaf anlayışının məzmununun mahiyyətini ayrı-ayrı müəlliflər fərqli qaydada izah edirlər. Belə ki, mütəxəssislərin böyük əksəriyyəti funksional hazırlığı insanın hər hansı bir fiziki işi yerinə yetirməsi və idman məşğələlərinə hazır olması kimi təqdim edirlər. Yəni bu o deməkdir ki, fiziki hazırlıq anlayışı ilə bağlı vahid fikir yoxdur. Bəziləri bu anlayışı birbaşa fiziki inkişafın vəziyyəti ilə əlaqələndirir.

Ölkəmizdə fəaliyyət göstərən bəzi mütəxəssislər fiziki vəziyyəti məktəb proqramının əsasında tərtib edilmiş xüsusi testlərin vasitəsi ilə müəyyən etməyi təklif edirlər. Çünki bu test göstəriciləri uşaqların funksional hazırlığı ilə sıx əlaqə təşkil edirlər.

Digər mütəxəssislər isə hesab edirlər ki, insanın funksional imkanlarının qiymətləndirilməsi üçün yeganə amil onun fiziki inkişaf səviyyəsidir. Çünki normal fiziki inkişaf fiziki hazırlığın əsas göstəricisidir.

Funksional inkişaf anlayışını fərqli nöqteyi-nəzərdən xarakterizə edənlər də var. Onlar hesab edirlər ki, bu göstəricilərin qiymətləndirilməsi üçün bir-birləri ilə qarşılıqlı əlaqədə olan əlamətlərin vəhdət şəklində qiymətləndirilməsi daha məqsədəuyğundur.

## Funksional vəziyyət modelləri

Rusiyalı alim A.A.Qujalovski təklif edir ki, funksional vəziyyət modeli bütün idman növləri üçün ümumi olmalı və bu məsələdə üç əsas göstərici nəzərə alınmalıdır:

- sağlamlıq vəziyyəti;
- bədən quruluşunun komponentləri;
- seçilmiş idman növünə uyğun fiziki qabiliyyət.

* *Bədən Tərbiyəsi və İdman Akademiyası, magistr, Bakı, Azərbaycan*
*E-mail:* rafael_770@mail.ru

L.Y.İvaşenko hesab edir ki, insanların funksional imkanlarını müəyyən etmək üçün əsas amillər –

- fiziki hazırlıq;
- yaş və cinsi xüsusiyyətlər;
- bunların əsasında müəyyən edilən test tapşırıqlarıdır.

Bizim fikrimizcə, V.M.Zatsiorskinin təklif etdiyi model daha məqsədəuyğundur. O hesab edir ki, funksional vəziyyətin düzgün müəyyən edilməsi üç əsas amildən asılıdır:

- orqanizmin əlverişsiz xarici təsirlərə qarşı müqavimət göstərmək qabiliyyətinin formalaşdırılması üçün sağlamlıq vəziyyətinin normal olması;
- bədənin quruluşu;
- hərəkət fəaliyyəti ilə bağlı fizioloji funksiyaların vəziyyəti:

a) texniki hazırlıq;
b) fiziki hazırlıq.

Bədən tərbiyəsi və idman sahəsində fəaliyyət göstərən mütəxəssislər uşağın funksional vəziyyətini öyrənmək üçün səhiyyə işçilərindən fərqli olaraq ilk növbədə fiziki inkişaf, fiziki hazırlıq və fiziki iş qabiliyyətlərini müəyyən etməlidirlər.

Ədəbiyyat mənbələrini təhlil edərkən məktəblilərin funksional vəziyyətini kompleks şəkildə qiymətləndirmək üçün müəyyən məlumatlar əldə edilmişdir. Ona görə də biz əsas diqqəti fiziki inkişafın, fiziki hazırlığın və fiziki iş qabiliyyətinin tədqiq edilməsi ilə bağlı ədəbiyyat mənbələrinə yönəltməyə daha çox üstünlük verdik.

Məlum olduğu kimi yetişməkdə olan gənc nəsiln hərtərəfli inkişafının təmin olunması üçün onların yüksək mənəviyyata, humanist keyfiyyətlərə və intellektə malik olması ilə yanaşı həm də möhkəm sağlamlıqa və həyat fəaliyyəti üçün zəruri olan əsas fiziki qabiliyyətlərə yiyələnməsi zəruridir. Yadda saxlamaq lazımdır ki, sağlamlıq insanın yalnız şəxsi firavanlığı üçün deyil, sosial münasibətləri üçün də əhəmiyyətlidir. Yəni sağlam insan əmək fəaliyyəti və Vətənin müdafiəsi üçün daha yararlıdır.

Uzun illərin təcrübəsi və eləcə də mütəxəssislərin yekdil fikri göstərir ki, sağlamlığın qorunması və daha da möhkəmləndirilməsi üçün ən səmərəli vasitə bədən tərbiyəsi və idmandır. Ədəbiyyat mənbələrində bu məsələ ilə bağlı kifayət qədər məlumat var. Qamət pozuntularının aradan götürülməsi üçün aparılan elmi-tədqiqat işlərinin böyük əksəriyyətində əsas üstünlük fiziki hərəkətlərə verilmişdir.

Sağlamlıq insanın mənəvi və fiziki keyfiyyətlərinin məcmusudur. Çünki şəxsiyyətin ahəngdarlığı elə ümumbəşəri dəyərdir ki, ona yalnız fiziki və mənəvi kamillik vasitəsilə nail olmaq mümkündür. Odur ki, insanın mənəvi və fiziki sağlamlığı uğrunda mübarizəsi zəmanəmizin ən ümdə vəzifələrindən biridir. İnsanın uzunömürlüyü, müvəffəqiyyətli əmək fəaliyyəti, ailə həyatı, sağlam nəsil yetişdirməsi və onu düzgün tərbiyələndirməsi sağlamlıqdan çox asılıdır.

**Uşaqların fiziki inkişafı əhalinin sağlamlıq vəziyyəti üçün aparıcı meyar kimi**

Müasir dövrdə böyüməkdə olan gənc nəslin sağlamlığının təmin edilməsi üçün əsas şərtlərdən biri də bədən tərbiyəsi mütəxəssisləri ilə tibb işçilərinin birgə fəaliyyət göstərməsidir. İnsanların sağlamlığı bilavasitə bu peşələrin qarşılıqlı əlaqəsindən asılıdır. Orqanizmin ətraf mühitin mənfi təsirlərinə qarşı müqavimət göstərmək imkanlarının formalaşdırılması fiziki tərbiyəni həkim nəzarətin altında aparılması zəruridir.

Fəal hərəkət rejimi olmadan insan uzun ömür sürüb əmək və iş qabiliyyətini saxlaya bilməz. Hərəkət orqanizmdəki bütün sistemlərin funksiyasını stimullaşdırır. Buna görə də hərəkət rejimi həm sağlam, həm də xəstəliyə mübtəla olanlar üçün çox zəruridir

Uşaqların fiziki inkişafı əhalinin sağlamlıq vəziyyəti üçün aparıcı meyar kimi xarakterizə edilir. Fiziki inkişafın əsas göstəriciləri döş qəfəsinin en dairəsi, bədənin uzunluğu və kütləsi hesab olunur. Bu prosesin səmərəli olması bilavasitə sanitar-gigiyenik göstəricilərdən və ətraf mühitin göstərdiyi təsirlərdən asılıdır. Hal-hazırda uşaqların fiziki inkişafının qiymətləndirilməsi və müqayisə edilməsi ilə bağlı tədqiqatçılar ən müxtəlif müddəalar irəli sürürlər.

Aparılan tədqiqatların nəticələri göstərir ki, uşaq və yeniyetmələrin inkişaf tempi müəyyən qanunauyğunluqlardan asılıdır. Bu prosesə ən çox sosial və iqtisadi amillər təsir göstərir. Müəyyən olunmuşdur ki, zərərli istehsal töküntüləri nəticəsində yaranan ekoloji gərginlik uşaq və yeniyetmələrin fiziki inkişafına ən müxtəlif mənfi təsirlər göstərir.

Son illər qeydə alınan neqativ hallardan biri də fiziki inkişafın qeyri-stabil olmasıdır. Belə ki, müasir uşaqların böyük əksəriyyətində bədən kütləsi yüksək sürətlə artsa da ağ ciyərlərin hava tutumu, dinamometriya göstəriciləri, döş qəfəsinin en dairəsinin və ümumi iş qabiliyyətlərinin artımında müvafiq artım tempi nəzərə çarpmır.

Qeyd etmək lazımdır ki, fiziki inkişaf sağlamlığın əsas göstəricisi kimi uşaqların qaməti ilə sıx əlaqə təşkil edir. Qamət sağlamlığa təsir göstərən amil kimi uşağın gələcək inkişafını da təmin edir.

Qamətin düzgün olmasının orqan və sistemlərin və bütövlükdə orqanizmin inkişafının normal funksiyasını təmin edən əsas şərt olması hamı tərəfindən qəbul edilən bir həqiqətdir. Belə ki, uşaqların onurğa sütununda yaranan hər hansı bir əyrilik dayaq-hərəkət aparatının formalaşmasına bir sıra mənfi təsirlər göstərir.

Fiziki inkişafı qamətin vəziyyəti ilə əlaqələndirən tədqiqatçıların sayı çoxdur. Məsələn T.İ.Lvovanın fikrincə, qamət fiziki inkişafı əks etdirən ən önəmli amildir. O hesab edir ki, qamət pozuntusu uşaqların fiziki inkişaf göstəricilərinə göstərdiyi təsirlər nəticəsində onların orqanizmi ləng inkişaf edir. Bununla yanaşı bu məsələ ilə bağlı aparılan tədqiqatlarda müəyyən edilmişdir ki, qamətində pozuntusu olan uşaqlar müxtəlif yoluxucu xəstəliklərə daha çox tutulurlar. Yəni, belə uşaqların orqanizminin müqavimət göstərmək qabiliyyəti aşağı olur. Qamətində pozuntusu olan uşaqların istənilən hərəkət fəaliyyəti mərkəzi sinir sisteminə müxtəlif mənfi təsirlər göstərir ki, bu da baş ağrısı və orqanizmin üzülməsi ilə nəticələnir. Aparılan müşahidə və tədqiqatların nəticələri göstərir ki, qaməti deformasiyaya uğrayan uşaqların diqqətləri aşağı səviyyədə olur.

Mütəxəssislərin böyük əksəriyyəti qamətdə olan müxtəlif tipli pozuntuların boy artımına mənfi təsir göstərdiyini iddia edir. Lakin elə müəlliflər də var ki, bu fikirlə razı deyil. Onlar hesab edirlər ki, istər oğlanlar, istərsə də qızlar arasında qamətində funksional pozuntusu olanlar boy artımına görə qamətində pozuntusu olmayan həmyaşıdlarından fərqlənmirlər.

İstənilən halda bu problemlə məşğul olan tədqiqatçıların böyük əksəriyyəti hesab edir ki, müxtəlif yaş qruplarında olan uşaqlarda yaranmış qamət pozuntusu nəticəsində fiziki inkişaf göstəriciləri xeyli aşağı olur.

Digər tərəfdən bəzi müəlliflər qeyd edirlər ki, fiziki inkişafın yüksək səviyyədə olması normal qamətin olması üçün şərt deyil.

Uşaqların fiziki inkişafı ilə qamətlərinin formalaşması prosesi eyni vaxtda baş verdiyinə görə belə bir nəticəyə gəlmək olar ki, qamətin düzgün formalaşması fiziki inkişaf göstəricilərinin yaxşılaşması üçün əlverişli imkanlar yarada bilər.

Son illər məktəblilərin fiziki hazırlığının təhlil edilməsi ilə bağlı aparılan tədqiqatların böyük əksəriyyətindən alınan nəticələr göstərir ki, uşaqların funksional inkişafı getdikcə zəifləyir. Bunun əsas səbəbi məktəbyaşlı uşaqların hərəki fəallığının mövcud tələblərə cavab verməməsindən ibarətdir. Bu problemin yaranması isə bilavasitə hərəkət qıtlığı ilə bağlıdır.

Bu prosesdə akselerasiyanın rolu da az deyil. Çünki bədən ölçülərinin böyüməsi fiziki hazırlıqla adekvatlıq təşkil etmir. Mütəxəssislərlə aparılan sorğuların nəticələri göstərir ki, ildən-ilə məktəblilərin fiziki hazırlıq dinamikası ayrı-ayrı hərəkət fəaliyyətləri üzrə mənfi istiqamətə doğru yönəlir. Orta nəticə təkcə uzunluğa tullanmalarda qeydə alınmışdır ki, bu da bədən ölçülərinin uzanması ilə izah olunur. Təbii ki, məktəbyaşlı uşaqların fiziki hazırlıq səviyyəsinin aşağı olması birbaşa hərəkət qıtlığı ilə bağlıdır. Yəni bu o deməkdir ki, gün rejimində uşaqların hərəkət fəallığına daha çox yer ayırmaq lazımdır.

Elmi tədqiqatların nəticələri göstərir ki, uşaqların fiziki hazırlıq səviyyəsi ilə qamətlərinin vəziyyəti bir-birləri ilə qarşılıqlı əlaqə təşkil edir. Uşaqların fiziki hazırlığı bilavasitə fiziki keyfiyyətlərin göstəriciləri əsasında qiymətləndirilir. Bu istiqamətdə aparılan tədqiqatların böyük əksəriyyətinin nəticələri normal uşaqlarla müqayisədə xeyli aşağıdır. Bununla belə bəzi

mütəxəssislər hesab edirlər ki, qamət pozuntusu olan uşaqlarda əsasən bel əzələlərinin qüvvəsi zəif olur. Bunun nəticəsində gövdənin sağ və ya sol tərəfində müəyyən əyintilər yaranır.

Bəzi mütəxəssislər isə hesab edirlər ki, qamətində pozuntusu olan uşaqlar üçün əsas xarakterik cəhət sürətli-qüvvə keyfiyyətlərinin göstəricilərinin aşağı səviyyədə olmasıdır.

Dözümlüyün müxtəlif növlərini öyrənərkən müəyyən qanunauyğunluqlar meydana çıxmışdır. Tədqiqat işlərində qeyd edilmişdir ki, müxtəlif növ qamət pozuntusu olan uşaqların ümumi və statik dözümlüyü zəif inkişaf etmişdir. Tədqiq olanların müəyyən bir hissəsində sürət dözümlüyü aşağı səviyyədə olmuşdur.

Buna baxmayaraq bəzi tədqiqatçılar yuxarıda qeyd edilən fikirləri qəbul etmirlər. Onlar hesab edirlər ki maksimal qüvvə, statik dözümlük və qamətin göstəriciləri arasında ciddi bir əlaqə yoxdur. Əyilgənliyin göstəriciləri təxminən eynidir. Yəni bu o deməkdir ki, əyilgənliklə qamətin göstəriciləri arasında heş bir əlaqə qeydə alınmamışdır.

**Nəticə**

İdmanla məşğul olan uşaqlar üzərində aparılan tədqiqatların nəticələri göstərir ki, qamət pozuntusu ilə bağlı onlarda da müəyyən problemlər var. Tədqiqatda qeyd edirlər ki, hətta fiziki hazırlığın yüksək olması qamətin düzgün formalaşması üçün göstərici ola bilməz.

İnsanın funksional vəziyyətinin ən vacib tərkib hissələrindən biri də fiziki iş qabiliyyəti hesab olunur. Yəni bu o deməkdir ki, funksional vəziyyətlə fiziki iş qabiliyyəti bir-birləri ilə qarşılıqlı əlaqə təşkil edirlər. Bu iddianın əyani şəkildə sübut edilməısi üçün ən müxtəlif test tapşırıqlarından istifadə oluna bilər. Son zamanlar aparılan tədqiqatların nəticələri göstərir ki, əvvəlki onilliklərlə müqayisədə müasir məktəblilərin fiziki iş qabiliyyəti xeyli aşağıdır. Müəlliflərin böyük əksəriyyəti bunun əsas səbəbini hərəkət qıtlığında görürlər.

Aşağı məktəb yaşlarında oğlan və qızların fiziki inkişaf qabiliyyətlərinin səviyyəsi təxminən eyni olur. Lakin bu yaş dövründə qamətində pozuntusu olan uşaqların ümumi iş qabiliyyəti aşağı olur. Aparılan tədqiqatların nəticələri göstərir ki, qamətdə pozuntunun səviyyəsi nə qədər artırsa, fiziki iş qabiliyyətlərinin göstəriciləri də bir o qədər azalır. Qeyd etmək lazımdır ki, fiziki inkişaf, fiziki hazırlıq və funksional vəziyyətin arasında bir sıra qarşılıqlı əlaqələr var və bəzi hallarda onlar paralel qaydada inkişaf edir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Cəfərov O.M., Yolçuyev S.B. Adaptiv bədən tərbiyəsi. Bakı:ADB, 2016, 153s.
2. Qasımov H.İ., Cəfərov Q.M. İdman təbabəti, müalicə bədən tərbiyəsi və masaj. Bakı:ADBTİA, 2002, 202s.
3. Шарипова Д. Д., Семенова Л. М. Воспитание правиль ной осанки.— Т.: Медицина, 1985. 104 с.
4. Ловейко И.Д. Формирование осанки у школьников. Москва: Просвещение, 1970, 95 с.

**Rafail GULİYEV**

**STUDY OF THE PROVISIONS REGARDING THE FORMATION AND STRENGTHENING OF SCHOOL-CHILDREN**

**Summary**

In order to solve some of the problems of schoolchildren, it is first necessary to improve their physical education level. One of these problems is the prevention of stunting.
The correct upbringing of stature, as well as the formation of motor habits necessary for life in children, is mainly characterized as a pedagogical problem.

Studies show that the formation of stature and physical development processes occur simultaneously in children. Then it can be concluded that the correct formation of the stature has a positive effect on the increase of physical development indicators.

**Key words:** *stature, prophylaxis, physical development, physiological adaptation, spine, muscle strength, frontal surface.*

**Рафаил ГУЛИЕВ**

**ИЗУЧЕНИЕ ПОЛОЖЕНИЙ О ФОРМИРОВАНИИ И УКРЕПЛЕНИИ СОБСТВЕННОСТИ У ШКОЛЬНИКОВ**

**Резюме**

Для решения некоторых проблем школьников в первую очередь необходимо повысить уровень их физического воспитания. Одной из таких проблем является профилактика низкорослости.

Правильное воспитание телосложения, а также формирование у детей необходимых для жизни двигательных навыков в основном характеризуется как педагогическая задача.

Исследования показывают, что процессы формирования телосложения и физического развития протекают у детей одновременно. Тогда можно сделать вывод, что правильное формирование телосложения положительно влияет на повышение показателей физического развития.

**Ключевые слова:** *рост, профилактика, физическое развитие, физиологическая адаптация, позвоночник, мышечная сила, лобная поверхность.*

**Rəyçi: dos.Bəhruz Cabbarov**

UOT: 364.044.24

Rövşanə MÜZƏFFƏRLİ*

# ERKƏN NİKAH MƏİŞƏT ZORAKILIĞININ TƏMƏLİDİR

*Məqalə redaksiyaya daxil olmuşdur: 14 dekabr 2022; çapa qəbul edilmişdir: 16 dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: December 14, 2022; accepted for publication: 16 December 2022; published online: 29 December 2022*

**Xülasə**

Ailə cəmiyyətin əsasıdır. İnsanın yetişməsində və həyatda əsas rola malik olmasında ailənin rolu əvəzsizdir. İnsan ailədə cilalanır, ona tərbiyə aşılanır, mədəni və mənəvi dəyərləri ailədə öyrənir. Bu səbəbdən insan gələcəyinin parlaq olması üçün ailədə düzgün təməllərinin atılması şərtdir. Ailə mürəkkəb və dərin bir anlayış olduğuna görə ölkəsindən və yerindən asılı olmayaraq, demək olar ki, bütün ictimai elmlərin və tədqiqatçıların əsas obyektini təşkil edir.

Məqalədə erkən nikahın təkcə iki tərəfə olan zərərlərindən deyil, onların qurduğu ailənin gələcəkdə nələrə səbəb ola biləcəyini oxuculara çatdırmaqdan ibarətdir. Ailədə baş verən gərgin hadisələrin qadın və kişidən əlavə, övladlara da nə qədər zərər verdiyini və bu zərərin ətrafa sıçradığını da əlavə etmək olar. Zamanında insanların tərəf çıxdığı və bəyəndiyi adət-ənənələrin indi insanlar üçün nələrə səbəb ola biləcəyini oxuculara izah etmək məqalənin əsas məqsədlərindən biridir.

Məqalə oxuculara Azərbaycanda son illərdə artan məişət zorakılığı və boşanmaların bir hissəsinin də erkən nikahdan yarandığını izah etmək niyyətindədir. Yazılan məqalənin az da olsa insanların fikrini müsbətə doğru dəyişdirməsi böyük nailiyyət sayılır.

**Açar sözlər:** *erkən nikah, ailə, zorakılıq, cəmiyyət, həyat şəraiti, qohum, boşanma.*

## Giriş

Ailə insan həyatının başladığı, davam etdiyi, onu formalaşdıran qan qohumluğuna əsaslanan kiçik qrupdur. Ailənin yaranması dünyada çox qədim tarixə əsaslanır. Ancaq mütəfəkkirlərin fikrincə, ailənin saxlanması ən qədim zamanlardan qadının səyi nəticəsində olmuşdur. Onlar hər zaman ailədə qadının önəmini vurğulayırlar. Qadının problem həll edə bilən və evi qoruya bilən bir varlıq olduğunu qeyd edirlər. [6, s. 13]

Azərbaycan xalqı olaraq, çox gözəl adət-ənənələrə sahibik. Elimizin ən qədim zamanlardan gələn bu ənənələrini qorumaq bir xalq kimi bizim borcumuzdur. Lakin, bəzən insanların fərqli həyatlar yaşayaraq qərarlar verməsi zaman keçdikcə adətlərin dəyişməsinə və hətta unudulmasına gətirib çıxarır.

Erkən nikah qədim zamanlardan böyüklərimizin həyata keçirdiyi adətlərdən biridir. Onlar el adətlərinə görə, birlikdə ağsaqqal, ağbirçək olaraq, mühüm qərarlar qəbul edir, onlardan yaşca kiçik insanların taleyini əvvəlcədən həll edərdilər. Məsələn, çox məşhur adətlərdən biri də "Göbək kəsdi", "Ad qoydu" adı ilə məlum olan çox kiçik yaşda olan iki fərqli cins nümayəndəsinin valideynləri və ya tanış qohumları tərəfindən gələcəkdə bir-birilə mütləq "adaxlandırılacaq" olması idi. Bu, bəzən xoş ailələrin təməli olsa da, bir çox hallarda ailədə yaranan anlaşmazlığın başlıca səbəbi olurdu. Müəyyən yaşdan sonra fərdlər artıq müstəqil fikrə sahib olduqca bir-biri ilə anlaşmazlıqlar yaşayırdılar. Erkən yaşda evləndirilən iki insan həyat yolunu keçdikcə başqa istək və arzularının olduğunu dərk edirdilər.

Problemin olduğu ailədə sağlam övladın böyüməsi getdikcə mümkünsüz hal alır. Uşaq problemlərlə başa çıxa bilmədikdə bunu öz çevrəsinə yaymağa başlayır, fərqində olmadan ətrafındakı insanlarla yola gedə bilmir və ya onları incidir. Uşaq evin aynasıdır. Nə qədər çalışsa da,

* *Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistr, Bakı, Azərbaycan*
*E-mail:* muzaffarli.rovshana@gmail.com

ya da öyrədilsə də, mütləq ailə münasibətləri özünü bir yerdə göstərəcək. İnsanların həyatda pis vərdişlərə meyl etməsi çox vaxt problemlərdən "qaçmaq" istədiyi üçün olur. Halbuki, ən böyük problem elə pis vərdişin özüdür.

**Erkən nikah haqqında**

Erkən nikah hazırkı dövrdə cins kateqoriyasına ayrılmadan, 18 yaşdan aşağı gənclərin evlənməsi və ya zorla evləndirilməsidir və rəsmi şəkildə dövlət tərəfindən qadağan olunmuşdur. Keçmiş zamanlarda bəlkə də yaxşı bir əməl kimi görünsə də, 21-ci əsrdə bütün dünya tərəfindən bir şəxsin təhsili olmadan, özünü tam olaraq dərk etmədən evlənməsi (evləndirilməsi) heç xoş qarşılanmır. Bununla bağlı dünya üzrə komitələr və qurumlar fəaliyyət göstərir.

Hal-hazırda vəziyyət tamamilə dəyişib deyilsə, yalan olmaz. Artıq bu kimi adətlər sıradan çıxmağa və xoş qarşılanmamağa doğru gedir. Siğə üsulu ilə evlənmə, "qızqaçırma", böyüklərin məsləhəti ilə iki fərdin bir-birini tanımadan, görmədən evləndirilməsi cəmiyyət tərəfindən böyük müzakirələrə və qınağa səbəb olur. Son illərdə gənclərin evlənmə üzrə yaş statistikasında qalxım müşahidə edilir. Çünki, insanlar axıcı evliliyin açarını əvvəlcədən rahat qurulmuş həyatda görürlər. Bir tərəfdən kapitalizmin inkişafı, insanların psixologiya olaraq komforta qaçma meyli, bir tərəfdən əvvəlki qohumluq və yaxınlıq münasibətlərinin qalmaması bu kimi faktorları yaradan və dərinləşdirən səbəblərdəndir [2, s. 45-46].

Təəssüflər olsun ki, gənc ailələr təcrübəsiz və səbirsiz olduqlarına görə, bəzi məsələləri həll etməkdə çətinlik çəkirlər. Onlar ailə həyatına alışa bilmədən adi kiçik məsələni həll etmək əvəzinə, onu böyük və qlobal problem halına gətirməyi daha asan görürlər. Son illərdə artan boşanma səbəblərindən ən birincisi, tərəflərin razılaşa bilməməsi və ya bir-birini başa düşə bilməməsi olaraq göstərilir. Ailə qurulduqdan sonra bir çox insanlar ailə məsuliyyətini dərk etmədən ondan qaçmağa çalışırlar [7, s.7-10].

**Erkən nikaha gətirən səbəblər**

Erkən nikah hadisələri hələ də davam edir. Bəs bu hadisələr hansı səbəbdən baş verir?

1.Yuxarıda da qeyd edildiyi kimi, ailələrin adət-ənənəyə, inanclara və deyimlərə hələ də inanması və sadiq qalması;

2.Qızların erkən yaşda qaçırılma hallarının baş verməsindən qorxmaları – bəzi insanlar bəzi "hüquqlara" sahib olduğunu düşünərək, hələ də evlənməkdənsə, bu üsuldan istifadə etməyi daha xərcsiz və uyğun görürlər. Ancaq indiki dövrdə bu hal nəzərə alınaraq, verilən cəzalar ağırlaşdırılıb.

3.Qız övladlarının "yük" və ya "artıq insan" kimi görülməsi – bir çox hallarda evdə qız uşaqları artıq olaraq görüldüyündən, onun tez evləndirilməsi ailə üçün daha rahat seçim olur.

4.Qızların rayon və ya ucqar kəndlərdə oxuya, işləyə bilməməsi – təəssüflər olsun ki, 21-ci əsr də olsa, bir sıra yerlərdə qızın ibtidai sinfi bitirdikdən sonra oxuması valideyn və ya qohum, qonşu qısıtlamalarına məruz qalır. Orta məktəbi belə oxuya bilməyən qızlar ev şəraitində ancaq ev işləri görməklə günlərini keçirirlər. Bu baxımdan onlar maddi cəhətdən artıq digər şəxslərdən asılı vəziyyətə düşürlər.

5.Qızların daha yaxşı həyat yaşayacağı ümidi – bir çox təzyiqlərə, qadağalara boyun əyməyə məcbur qalan qızlar əgər evlənərsə, daha gözəl və şiddətin az olduğu bir həyatın onları gözlədiyini düşünürlər. Bu isə çox halda belə alınmır.

**Erkən nikahın fəsadları**

Erkən nikahdan sonra kişi qadının ondan həm maddi, həm ailəvi cəhətdən asılı olduğunu başa düşür. Bundan sonra işlər çətinləşir. Ailədə ən xırda məsələ üzərində başlayan çəkişmələr bir zaman kəsiyindən sonra istər-istəməz cütlük arasında böyük müzakirələrə səbəb olur. Böyük mübahisələr hər zaman üst-üstə yığılmış kiçik anlaşılmazlıqlardan ibarətdir. Bu isə öz növbəsində tək kişi və qadına zərbə vurmur. Problemlərdən ən çox zərər çəkən tərəflər uşaqlar olurlar. Onların sonrakı taleyində ailə məsələləri mütləq bir yerdə özünü göstərir.

Erkən nikah eyni zamanda 18 yaşdan aşağı şəxsin dünyaya nə dərəcədə sağlam uşaq gətirəcəyi sualının cavab tapılmasına təkid edir. Sağlam doğulmayan uşaq, gələcəyin sağlam olmayan cəmiyyəti deməkdir. Digər tərəfdən, bu uşağın böyüməsinə vəsilə olan şəxs özü 18 yaşdan aşağı, yəni, hələ uşaq yaşında sayılır. Azyaşlı valideynin təhsili və yaşaya biləcəyi düzgün bir həyatı

olmadan öz uşağına nələr öyrədəcəyi böyük müzakirə mövzusudur. Bundan əlavə, şəxsin özündə də sağlamlıq baxımından bir çox problemlər yarana bilər.

Digər tərəfdən erkən nikahlar savadsız insanların artmasına gətirib-çıxarır. Çünki, erkən yaşda evləndirilən qızlar ibtidai təhsil müddətini güclə başa vururlar. Savadsızlığın digər pis tərəfi erkən yaşlı qızların öz hüquqlarını bilməməsidir. Bu, gələcəkdə boşanma halı olduqda rəsmi nikah olmadığı və bundan da qaynaqlanan uşaqların rəsmi sənədləri olmadığına görə qarşı tərəfdən aliment almaq məsələsini çətinləşdirir. Boşanmadan sonra az maaşlı və çox saatlı olan işlərə məcbur qalan qadınlar bir çox hallarda özünü "yaxşı insan" kimi göstərməyə çalışan kişilərə inanmağa meyilli olurlar. Belə kişilərin başlıca məqsədi qadının iqtisadi gücündən istifadə edərək ondan istifadə etmək istəyidir. Bu zaman qadınlar bəzən ikinci evliliyə yox demirlər. Bu isə ilk növbədə uşaqlara mənfi təsir edir. Çünki, qadının seçdiyi yad bir kişinin uşağa necə davranacağı sual altındadır [12].

Qadın, əslində kiçik yaşda başına gələnlərdən sonra ikinci dəfə evlənməyə də bilər. Amma bəzi hallarda insan çıxış yolunu başdan başlamaqda, ya da başqa bir yolda irəliləməkdə görür. Çünki, erkən nikah qurbanları üçün geri qayıdış kimi seçim yoxdur. Onlar yalnız irəli gedə bilərlər. Onları gözləyən bir ata ocağı, bir ana qayğısı yoxdur. Əgər olsaydı, əvvəlcədən qızlarını erkən yaşda evləndirməz, onun gələcəyini düşünərdilər.

Məişət zorakılığı müxtəlif səbəblərdən baş versə də, anlaşmazlıq ən böyük səbəblərdəndir. İki tərəf arasında yaş fərqi çox olduqda, fikir ayrılığı daha çox olur. Çünki, birinin həyat təcrübəsi, digərinin hər şeyi yeni öyrənmə istəyini qəbul edə bilmir. Erkən evliliklərdə gənc yaşda evləndirilən oğlanlar əsasən, iş, maddiyyat cəhətdən çətinlik çəkdikləri halda, erkən yaşdakı qızlar daha çox yaşlı insanla evləndirildiyi üçün tərəflər arasında fikir uçurumu yaşanır.

Erkən yaşda evləndirilən insanların sonrakı yaşlarda öz istəyiylə başqa bir insanı sevməyi qaçılmazdır. Bu, cəmiyyət tərəfindən xəyanət sayıldığı halda, xəyanətin ən böyüyü məcburi evləndirilmədir. İndiki zamanda ayrılığın, xəyanətin, ailə içi şiddətin artdığı bir dövrdə xəyanət artıq adi bil hal almağa başlayıb. Belə halların artmaması, ən böyük zərər çəkən tərəf kimi uşaqların belə vəziyyətlə qarşılaşmaması üçün mövcud problemlər və onlara səbəb ola biləcək hallar araşdırılır.

Digər tərəfdən baxdıqda evləndirilən şəxslərin valideynləri də bu yoldan dönmək istəmirlər. Çünki, onlar da vaxtında böyüklər tərəfindən təzyiqlərə məruz qaldıqları üçün bunu öz övladlarına tətbiq edirlər. Amma bu hər zaman belə olmur. Bəzi hallarda çıxılmaz şəraitlə üz-üzə qalan valideynlər özləri belə halları yaxşı bildikləri üçün övladlarına belə həyat yaşatmamaq üçün əllərindən gələni edirlər.

**Hazırkı vəziyyət və dövlət siyasəti**

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva bildirib ki, 2021-2022-ci tədris ilində 11 erkən nikah qeydə alınıb. Həmin nikahlardan 6-sı Qaradağ, 3-ü Xəzər, 1-i Nərimanov, 1-i isə Nəsimi rayonunda olub [13].

Dövlət Statistika Komitəsinin (DSK) açıqlamalarına görə, 2021-ci ildə 20 yaşa qədər analar tərəfindən doğulan uşaqların sayı 9476 nəfər olub. Onlardan 84 nəfəri 16 yaşa qədər olan analar, 341 nəfəri 16 yaşlı analar (ümumilikdə 425 nəfər), 1225 nəfəri 17 yaşlı olan analar, 2972 nəfəri 18 yaşlı analar, 4854 nəfəri 19 yaşlı analar tərəfindən doğulanlardır [9].

Azərbaycanda erkən nikahla bağlı problemlərin araşdırılması və cəmiyyətin maarifləndirilməsi istiqamətində Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən ciddi şəkildə tədbirlər görülür. Bu məsələdə Daxili İşlər Nazirliyi və Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq edən Komitə son illərdə Azərbaycanda ola biləcək erkən nikahların qarşısını tam olmasa da, qismən almağa nail olmuşdur. Dövlət tərəfindən yaş həddinin yüksəldilməsi və erkən yaşda evləndirilməyə görə vətəndaşın cinayət məsuliyyətinə cəlb edilməsi bu yolda atılan addımlardan bir neçəsidir. "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu və bununla yanaşı, 1989-cu ildə qəbul edilmiş Uşaq hüquqları haqqında Konvensiyada tam fəaliyyət qabiliyyəti olmayan şəxslər uşaq hesab edilir və onların iradəsindən kənar olaraq onların evləndirilməsi yolverilməzdir [10].

**Nəticə**

Sonda, erkən nikaha sövq edilmənin fəsadlarını böyüklər çox vaxt başa düşmək istəmirlər və vaxtı ilə onlara qarşı edilən bu hərəkəti bir lütuf, xeyir əməl olaraq başa düşürlər. Ancaq bunu da anlamalıdırlar ki, azyaşlı insan fizioloji və psixoloji olaraq, evliliyə hazır olmaya bilərlər, bu, normal bir haldır. Azyaşlı bir insanın gedə biləcəyi başqa bir ev yox, təhsil müəssisəsi olmalıdır. Övlad artıq olan, ağır yük kimi görülməməlidir və onun evləndirilməsi həyat yolunun yaxşılaşdırılması üçün çıxış yolu deyil. Belə hallar nə qədər təkrarlanarsa, gələcək nəsil üçün yetişdirilən övladlar da daha sonra bu metoddan istifadə edə bilər.

Bir səhvin, valideyn məsuliyyətsizliyinin illərlə neçə ailəyə, insanlara vurduğu zərərin qarşılığını heç kim ödəyə bilməz, amma başlanğıc problemin qarşısını almaq cəmiyyətin əlindədir. Nəticə cəmiyyətdən və insanlardan, onların qərarlarından asılıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasova L. İcbari nikah kontraktı – ailəmizin sığortalanmasıdır. Bakı: Təknur, 2009, 85s.

2.Dəmirçiyeva M.D. Azərbaycan Respublikasının Ailə hüququ, Bakı: Bakı Universiteti, 2014, 488s.

3.Əliyeva İ. Erkən nikah cəmiyyətə uğursuz ailə "bəxş" edir // “Azərbaycan” qəzeti, 16 mart 2016

4.Hacıyeva L. Erkən nigahın səbəb və fəsadları. [Elektron resurs]. URL: http://ulusestv.az/gundem/11998-erkn-nigahn-sbb-v-fsadlar.html. Müraciət edilib: 17.09.2022

6.Həsənzadə S.B. Ailə və ailədaxili zorakılıq: hüquqi təhlil. Bakı: Hüquq ədəbiyyatı, 2015, 206 s.

7.Hüseynova H. Azərbaycan ailəsi. Bakı: RS Poliqraf MMC, 2020. 564 s.

8.Gəncəli S.Ailə. Nəsillər, ailələr, talelər. Ev üçün, ailə üçün ensiklopedik toplu. *Bakı:* “Azərbaycan” nəşriyyatı, *2011. 168* s.

9.Quliyeva N.M. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: Elm, 2005, 347s.

10.Quliyeva N.M. Müstəqillik illəri Azərbaycan ailəsi, *Bakı*: BDU, *1994*. 91 s.

11.Məmmədov A. Erkən nikahların səbəbləri və fəsadları. [Elektron resurs]. URL: https://stm.az/ru/publications/meqaleler/erken-nikahlarn-sebebleri-ve-fesadlar Müraciət edilib: 11.09.2022

11.Şagirdlərin erkən nikahına görə kimlər məsuliyyət daşıyır? - Cəza nədir? [Elektron resurs]. URL: https://azedu.az/az/news/59604-sagirdlerin-erken-nikahina-gore-kimler-mesuliyyet-dasiyir-ceza-nedir- Müraciət edilib: 13.09.2022

12.Yarımçıq təhsil, erkən nikah, qanunsuz kəbin... və ardınca daha bir yığın problem. [Elektron resurs]. URL: http://www.anl.az/down/meqale/525/2010/sentyabr/134298.htm. Müraciət edilib: 11.09.2022

13.Qarayeva S. 2021-2022-ci tədris ilində 11 erkən nikah qeydə alınıb. 9 yanvar 2023-cü il.

**Ровшана МУЗАФФАРЛИ**

## РАННИЙ БРАК – ПРИЧИНА ДОМАШНЕГО НАСИЛИЯ

**Резюме**

Семья – это основа общества. Роль семьи в развитии человека и главная роль в жизни незаменима. В семье человек шлифуется, воспитывается, усваивает культурные и духовные ценности в семье. По этой причине необходимо заложить правильные основы семьи, чтобы человеческое будущее было светлым. Поскольку семья представляет собой сложное и глубокое понятие, она является основным объектом практически всех социальных наук и исследователей, независимо от страны и местонахождения. В статье речь идет не только о вреде раннего брака для обеих сторон, но и о будущих последствиях строящейся ими семьи. К этому можно добавить, насколько стрессовые события в семье вредят не только женщинам

и мужчинам, но и детям, и этот вред переливается. Одна из основных целей статьи - объяснить читателям, что традиции, которые люди поддерживали и любили в свое время, могут вызвать для людей сейчас. Статья призвана разъяснить читателям, что причиной некоторых случаев домашнего насилия и разводов, участившихся в Азербайджане в последние годы, являются ранние браки. Считается большим достижением, если написанная статья меняет мнение людей в положительную сторону.

**Ключевые слова:** *ранний брак, семья, насилие, общество, условия жизни, родственники, развод.*

**Rovshana Muzaffarli**

**EARLY MARRIAGE IS THE BASIS OF DOMESTIC VIOLENCE**

**Summary**

Family is the foundation of society. The role of the family in the development of a person and the main role in life is irreplaceable. A person is polished in the family, educated, and learns cultural and spiritual values in the family. For this reason, it is necessary to lay the right foundations of the family in order for the human future to be bright. Because family is a complex and deep concept, it is the main object of almost all social sciences and researchers, regardless of the country and location. In the article, it is not only about the harm of early marriage to both parties, but also about the future consequences of the family they build. It can be added how much the stressful events in the family harm not only women and men, but also children, and this damage spills over. One of the main goals of the article is to explain to the readers what the traditions that people supported and liked at the time can cause for people now. The article intends to explain to the readers that some of the domestic violence and divorces that have increased in Azerbaijan in recent years are caused by early marriage. It is considered a great achievement if the written article changes people's opinion in a positive way.

**Keywords:** *early marriage, family, violence, society, living conditions, relatives, divorce.*

**Rəyçi: P.ü.f.d. Tünzalə Verdiyeva**

**UOT: 364.044.24**

**Təranə VƏLİYEVA***

# HƏSSAS QRUPA DAXİL OLAN UŞAQLARIN AİLƏ DAXİLİNDƏ MƏKTƏBƏHAZIRLIQ PROSESİNİN TƏŞKİLİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 10 dekabr 2022; çapa qəbul edilmişdir: 12 dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: December 10, 2022; accepted for publication: 12 December 2022; published online: 29 December 2022*

**Xülasə**

Həssas qrupa daxil olan uşaqların tərbiyəsi və təhsili dövrümüzün aktual məsələlərindən biridir. Müxtəlif psixi, əqli, fiziki əliliyi olan və orqanizmin ümumi inkişafının pozulmasına gətirib çıxaran digər xəstəliklər səbəbindən yaşamaq imkanı məhdud, valideyn himayəsindən məhrum olan, sosial yardıma və müdafiəyə ehtiyacı olan uşaqlar həssas qrupa daxildir. Həssas qrupa daxil olan, o cümlədən əlilliyi və ya sağlamlıq imkanları məhdud uşaqlarda özünəxidmət, hərəkət, ünsiyyət, özünənəzarət, habelə təhsil almaq və məşğulluq qabiliyyətinin tam və ya qismən itirilməsində maneələr yaradır. Bütün bu maneələr nəticəsində yaranan özünəinamsızlıq, sosial adaptasiya gərginliyi, infrastruktur müəssərliyinin olmaması və s. problemlərin həll edilməsi üçün dəstək lazımdır.

**Açar sözlər:** *həssas qrup , ailə, uşaqlar, məktəbəhazırlıq, uşaqlarla sosial iş, sosiallaşma.*

## Giriş

Həssas qrupa daxil olan uşaqların məktəbə hazırlanmasında ailənin rolu çox önəmlidir. Uşağın ailədə məktəbə hazırlanması valideynlərin üzərinə böyük vəzifələr qoyan çox mühüm bir məsələdir. Ailədə qoyulmuş təməldən onların gələcəkdə əldə edəcəkləri uğur, şəxsiyyət kimi formalaşmaları, ictimai həyatda iştirak etmələri əhəmiyyətli dərəcədə asılıdır. Çünki ailə məktəbəqədər dövrdə ilk məktəb, valideynlər isə uşağın ilk müəllimləridir. İlk psixoloji və tibbi yardımı belə uşaqlar ailələrində alırlar. Valideyn və müəllimlər uşağın böyüməsi və inkişafı üçün əlverişli şərait yaratmalı, həmçinin uşaq haqqında məlumatların əldə olunmasında, uşağın davranışı, münasibətləri ilə bağlı fikir və mülahizələrin bölüşdürülməsində əməkdaşlıq etməlidirlər. Həssas qrupa daxil olan məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlanmasında böyük rol oynayan korreksiya-inkişafetdirici fərdi təlim proqramları valideynlər və mütəxəssislərlə birlikdə hazırlanır. Dövlət həssas qrupa daxil olan uşaqların ailədə məktəbə hazırlıq prosesinin təşkilində ailənin yardımçısı olmağa çalışır. Beynəlxalq təcrübədən istifadə edilərək bu işdə dövlət-özəl sektor əməkdaşlığının inkişafı genişləndirilir. Həssas qrupa daxil olan uşaqların ailələri xüsusi uşaq bağçaları, psixoloji reablitasiya mərkəzlərinin köməyindən istifadə edirlər. Azərbaycanda Birgə Yardım Təşkilatı (UAFA) və Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi, "Autizm" Deffektoloji və Psixoloji Yardım Mərkəzi, BMT-nin Uşaq Fondu, TİSA (Beynəlxalq məktəb), Müasir Psixologiya Mərkəzi, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, "Narınc" Uşaq Psixologiya Mərkəzi, "Loqos" Psixoloji və Nitq İnkişafı Mərkəzi kimi tədris və sağlamlıq mərkəzləri xüsusi qayğıya ehtiyacı olan və autizm sindromlu uşaqların həyata və cəmiyyətə uyğunlaşmasında, məktəbəqədər tərbiyə və təlimində ailənin yaxından iştirakını təmin edir.

### Həssas qrupa daxil olan uşaqların ailədə məktəbəhazırlıq prosesinin ümumi xüsusiyyətləri

* *Azərbaycan Universiteti, magistr, Bakı, Azərbaycan*
*E-mail:* aqiliterane@mail.ru

Uşağın ailədə məktəbə hazırlanması valideynlərin üzərinə böyük vəzifələr qoyan çox mühüm bir məsələdir. "Ailə münasibətlərinin inkişafında ər-arvadlıq, analıq və atalıq borcunun xüsusi rolu vardır. Borc hissi məhəbbəti daha da zənginləşdirir, nəcibləşdirir, ailənin mənəvi əsaslarını möhkəmlədirir. Ailə həyatının əxlaqi-mənəvi dəyəri namus, sədaqət, hörmət, məsuliyyət, borc qanunları ilə müəyyən olunur. Cəmiyyət ər-arvadın üzərinə qurulan ailənin taleyi üçün məsuliyyət qoymuşdur. Onlar ailənin qarşısına çıxan çətinlikləri birlikdə aradan qaldırmalı, bir-birlərini mənəvi və fiziki cəhətdən müdafiə etməli, sağlamlığını qorumalıdırlar" [1, s.170].

Ailədə və məktəbəqədər tərbiyə müəssisələrində istifadə edilən təlim-tərbiyə metodları öz seçiminə, uşağa təsir qüvvəsinə görə fərqlənir. Ailə tərbiyəsi özünəməxsus həyati təcrübəyə, müəyyən adətlərə, vərdişlərə əsaslanır və daha çox öz təbiiliyi ilə seçilir. "Məktəbəqədər dövrdə uşaqların tərbiyəsi və təlimi sayəsində yol verilən kiçik xətalar sonralar çox ciddi, qarşısıalınmaz nöqsanlar kimi özünü büruzə verir. Ona görə də həmin dövrdə heç bir şeyi nəzərdən qaçırmadan fəaliyyət göstərmək, uşaqları müstəqil fəaliyyətə hazırlmaq lazımdır" [5, s.4].

Məktəbəhazırlıq dövrünə gedən yol uşağın fiziki, intellektual, şəxsi və sosial inkişafından asılıdır. Bunlar uşağın fəaliyyət formalarının müxtəlif təzahürləridir. Bu dövrdə uşağın anatomik-fizioloji inkişafına da diqqət yetirilməlidir. Çünki fiziki inkişafın ləngiməsi uşağın zehni fəaliyyətinə mənfi təsir göstərir. Məsələn, nitqin və məntiqi təfəkkürün zəif inkişafı eşitmə əliliyi olan uşaqlarda elə bir vəziyyət yaradır ki, onlar bu və ya digər biliyi formal mənimsəyirlər. Görmə əliliyi olan uşaqlarda isə vəziyyət başqa cür olur. Onlar əşya və hadisələri görmür, əşya və hadisələr haqqında deyilənləri eşidir və cisimlərə toxunmaqla, onların əlamətləri haqqında təsəvvür əldə edirlər. Autizm sindromlu uşaqlar isə özünə qapanır, real həyatdan uzaqlaşırlar. Bu baxımdan da belə uşaqların fəaliyyətləri təlim və təhsildə aparılan müxtəlif məşğələlər zamanı onların ailələri tərəfindən qiymətləndirilməli, dəstəklənməli, inkişaf etdirilməlidir. Azyaşlı uşaqlar hər gün gündəlik həyatlarında problemləri həll etmək imkanı əldə edirlər. Valideynlər uşaqları diqqətlə müşahidə etməklə, peşəkarların köməyi ilə övladlarının sosial, koqnitiv, motorika və emosional təcrübələrindən istifadə edərək problemlərin həllinə və öyrənmədə təsirli olan strategiyaların hazırlanmasına kömək edə bilərlər. Psixoloqlar, müəllimlər, həkimlər və valideynlər uşaqların sağlamlığı və tərbiyəsi məsələlərində daim əməkdaşlıq etməlidirlər ki, bu əməkdaşlığın da mühüm cəhəti ailə tərəfindən uşaq haqqında məlumat verilməsidir.

"Uşaqlar sürətli bir inkişaf və dəyişiklik içindədirlər. Müəllim və tərbiyəçilər, ata-analar məktəbdə və ailədə onların fiziki, əqli və hissi tələbatlarını ödəmək üçün aparıcı rola sahibdirlər. Uşaqların sosial bacarıqları müxtəlif səbəblər üzündən qarşılanmamış qala bilər. Bu bilik və bacarıqları həyata keçirə bilmələri üçün kiçik balaları dəyərləndirmək və hər sahədə onlara fürsət vermək lazımdır" [2, s.6].

**Ölkəmizdə inklüziv təhsillə bağlı təşəbbüslər**

2 mart 2018-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ailə tipli, icma əsaslı, qısamüddətli təlim qruplarında məktəbəqədər təhsilin təşkili Qaydası"nı təsdiqləməsi ev əsaslı uşaq qayğı mərkəzlərində fiziki əlilliyi olan uşaqların da tərbiyə və təhsilinin düzgün istiqamətlənməsinə imkan yaratdı və valideynlərin köməyinə gəldi.

2005-ci ilin dekabrında Heydər Əliyev Fondu BMT İnkişaf Proqramı ilə "görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün İKT-yə çıxışın təmin edilməsi" layihəsi üzrə əməkdaşlıq sazişi imzalamışdır. Ümumiyyətlə, həssas qrupa daxil olan uşaqlara və onların ailələrinə səhiyyə, təhsil və sosial müdafiə sahəsində diqqət və qayğının göstərilməsi bütün dünyada prioritet məsələlərdən biridir.

Ölkəmizdə inklüziv təhsillə bağlı bir sıra təşəbbüslər irəli sürülsə də ancaq əfsuslar olsun ki, hələ də orta məktəblərin əksəriyyətində belə uşaqlara çox az rast gəlirik. Onlar ən yaxşı halda evdə təhsilə cəlb edilirlər ki, bu da onların cəmiyyətlə təmasını kəskin surətdə məhdudlaşdırır. İnklüziv təhsil strategiyalarının uğurla həyata keçirilməsi üçün xüsusi xidmətlərin göstərilməsi çox əhəmiyyətlidir. Böyük şəhərlərdə və rayon mərkəzlərində ailə və uşaqlara yardım mərkəzlərinin yaradılması da çox məqsədəuyğun olardı.

Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların ailələri böyük mənəvi, maddi və inzibati çətinliklərlə üzləşirlər ki, bu da valideynlərin övladları üçün təhsil imkanlarını səmərəli şəkildə qurmasını məhdudlaşdırır. O baxımdan da həssas qrupa daxil olan şəxslərin məktəbə hazırlığı işində təlim-tərbiyəsi, sağlamlığının mühafizəsi və bərpası üçün müvafiq şərait yaratmaq məqsədilə təşkil edilməsi sahəsində aparılacaq işlərə hələ çox ehtiyac vardır.

Həssas qrupa daxil olan uşaqların tərbiyəsi və təhsili həqiqətən də dövrümüzün aktual məsələlərindən biridir. Müxtəlif psixi, əqli, fiziki qüsurları və orqanizmin ümumi inkişafının pozulmasına gətirib çıxaran digər xəstəliklər səbəbindən yaşamaq imkanı məhdud, sosial yardıma və müdafiəyə ehtiyacı olan uşaqlar həssas qrupa daxildir. Əlilliyi və ya sağlamlıq imkanları məhdud uşaqlarda özünəxidmət, hərəkət, ünsiyyət, özünənəzarət, habelə təhsil almaq və məşğulluq qabiliyyətinin tam və ya qismən itirilməsi onların fəaliyyətlərində maneələr yaradır.

Həssas qrupa daxil olan o cümlədən, əlilliyi olan uşaqların valideynləri müvafiq xüsusi təhsil proqramları vasitəsilə uşaqlarının məktəbəqədər və ümumi təhsil almaq hüququnu təmin etməlidirlər. Məktəb və ailə arasında əməkdaşlıq uğurlu təhsilin ən vacib aspektlərindən biridir.

Ailədə əlilliyi olan uşaq olduqda ailənin hər bir üzvü, xüsusən də ana vaxtının çox hissəsini uşaqla keçirməlidir. Effektiv ünsiyyət özünüzə və ünsiyyət qurduğunuz insanlara qarşı müsbət münasibətdən başlayır. Uşağın şəxsiyyətinin hərtərəfli öyrənilməsi təlim prosesinə şəxsiyyətyönümlü yanaşmada ifadə olunur. Ümumiyyətlə valideynlər uşağın inkişafı və onlarla iş zamanı bir neçə məsələləri nəzərə almalıdırlar. Məsələn, yaş və fərdi xüsusiyyətləri, təhlükəsizliyi təmin olunan əlverişli və dəstəkləyici mühütin yaradılması, təlim-tərbiyənin əhəmiyyəti və s. misal göstərmək olar.

Uşağın məktəbə hazırlanması prosesi uşağın hərtərəfli (fiziki, əqli, mənəvi, estetik) inkişafına hazırlıq və məktəbdə öyrənilən fənlərin mənimsənilməsinə xüsusi hazırlığın həyata keçirilməsi kimi iki vəzifəni özündə birləşdirir.

Valideynlər bilməlidirlər ki, 5-6 yaşlı uşaqda təxəyyül, yaradıcılıq və məntiqi təfəkkür inkişaf etməlidir. Uşaq öz fəaliyyətinin digər spesifik növləri çərçivəsində idrak fəaliyyəti vasitələrini (müqayisə, təhlil, təsnifat, ümumiləşdirmə), ana dili və əsas nitq formalarını (dialoq, monoloq), öyrənmə elementlərini (montaj, rəsm, istehsal və müxtəlif oyunlar) mənimsəməlidir, prosesləri (obyektləri) müqayisə etməyi, ümumiləşdirməyi, qruplaşdırmağı, xüsusiyyətlərinə görə ayırd etməyi, nəticə çıxarmağı və eyni zamanda bədii yaradıcılıq bacarıqları nümayiş etdirməyi bacarmalıdır.

Uşaq məktəbəqədər hazırlıq qrupuna gələnə qədər ailədə müəyyən bilik, bacarıq və vərdişlərə yiyələnir. Ailənin uşağın ilk müəllimi kimi qəbul edilməsi gələcəkdə təlim-tərbiyə prosesinin məzmunlu qurulması, əlverişli münasibətlərin yaranması üçün vacib amildir. Valideyn və müəllimlərin ümumi səyləri uşaq haqqında məlumatların əldə olunmasına, uşağın davranışı, rəftarı, münasibətləri ilə bağlı fikir və mülahizələrin bölüşdürülməsinə, ən əsası, uşağın böyüməsi və inkişafı üçün daha əlverişli şəraitin yaradılmasına yönəldilir [4, s.12].

**Həssas qrupa daxil olan uşaqların cəmiyyətə inteqrasiyası**

Həssas qrupa daxil olan uşaqların cəmiyyətə inteqrasiyası onların xüsusi reabilitasiya və təhsil müəssisələrinə cəlb olunması ilə başlayır. Rəsmi statistikaya görə, hazırda ölkədə 0-6 yaşlı uşaqların 23 faizi məktəbəqədər təhsilə cəlb olunub. Bu o deməkdir ki, 0-6 yaşlı uşaqların 77 faizi məktəbəqədər təhsildən kənarda qalıb. Səbəblər isə: Yaşadığı ərazi; Yoxsulluq; Əlillik; Məktəbəqədər təhsil müəssisələrinin (uşaq bağçalarının) azlığıdır.

Məktəbə hazırlıq intellektual, şəxsi-sosial, emosional-iradi hazırlıqdan ibarətdir. İntellektual hazırlıq uşağa tanış olan şeir və nağılların sayı ilə deyil, məktəbəqədər yaşda uşağın müqayisə, təhlil, ümumiləşdirmə, nəticə çıxarmaq bacarığı ilə müəyyən edilir. Əqli geriliyi olan uşağın şəxsiyyətinin inkişafından danışmaq çox çətindir. Psixi və müxtəlif səbəblərdən dolayı fiziki əlilliyi olan uşaqların ailələrinin mənəvi dəstəyə də böyük ehtiyacı vardır. Məsələn, ailədə əliliyi olan uşaq olduğu zaman onun dərəcəsinə əsasən ailənin bir üzvü, xüsusən də ananın vaxtının çoxunu uşaqla

keçirməsi qənaətinə gətirib çıxarır. Valideynlər bu uşaqları məktəbə hazırlamaq üçün xüsusi təhsil və inkişaf proqramlarından istifadə edirlər.

"Xüsusi qayğıya ehtiyacı olan uşaqların ailədə yaşaması orada xüsusi vəziyyət yaradır. Bu hər şeydən əvvəl, valideynlərdən, onu əhatə edən mühitdən və digər bacı-qardaşlarının münasibətlərindən asılıdır. Həmin münasibətlər uşaqda gələcəkdə hansı hisslərin formalaşacağından xəbər verir" [6, s.346-349].

Həssas qrupa daxil olan uşaqların məktəbəhazırlıq işlərində təlim-tərbiyəsinə 3 yaşından başlamaq lazımdır. Gedəcəkləri təhsil ocağında şəraitə uyğunlaşmaq məqsədilə onların müəyyən vərdişlərə alışdırılması çox vacibdir. Uşağa yeni vərdişlər aşılamaq üçün adətən ondan əvvəlcədən möhkəmlənmiş olan vərdişləri aradan qaldırmaq lazımdır. İlk zamanlarda onlara öz paltarlarını geyinməyi və soyunmağı öyrətmək də çox çətin olur. Ən sadə vərdişin öyrədilməsi üçün ilk zamanlar bir neçə gün və bəzən də bir neçə ay vaxt sərf etmək lazım gəlir.

Məktəbəhazırlıq dövründə valideynlərin əsas vəzifələri bunlardır:

1. Evdə sakit və uşağın vəziyyətinə uyğun rejim məhdudiyyətləri üçün əlverişli sayılan mühitin yaradılması;

2. Uşağa yazılmış dərman vastələrinin vaxtında qəbulunun təmin edilməsi, həmin dərmanların göstərdiyi təsirin müşahdə olunması və həkimin vaxtında məlumatlandırılması;

3. Uşağın somatik və psixoloji vəziyyətinin müntəzəm şəkildə müşahdəsi;

4. Xüsusi pedaqogika və psixologiyanın əsaslarına, ev şəraitində ilkin stimulyasiya, korreksiyaedici inkişaf və tərbiyə etmək, o cümlədən təlimi həyata keçirmək vərdişlərinə yiyələnmək;

5. Əlillərin və xüsusi risk qrupuna (inkişafdan geridə qalan) daxil olan uşaqların hüquqları üzrə hüquqi biliklərin əsaslarınını mənimsəmək;

6. Xüsusi uşaq təşkilatlarında və ictimai birliklərdə iştirak;

7. Uşağın xəstəlik və fiziki inkişafına uyğun xüsusiyyətlərini bilmək, öz əlilliklərinə düzgün münasbət yaratmaq, onda iradi keyfiyyətlər tərbiyə etmək, hətta uşaq bağçasına getdikdən sonra da onunla işləməyi davam etdirmək.

Valideynlər övladları məktəbə getdikdən sonra bununla kifayətlənməyib, övladları ilə yenə də işləri davam etdirməlidirlər. Həmçinin valideynlərin məktəbə hazırlıq mərhələsində qarşıda duran önəmli məsələlərdən biri uşaqların geniş və hərtərəfli biliyə, oxuma vərdişinə yiyələnmələri üçün lazım olan bacarıq və vərdişləri əldə etmələrinə nail olmaqdır.

Valideyn aşağıdakı göstərişlərdən istifadə etməklə övladı ilə özü arasında əlverişli ünsiyyət quracaqdır:

1. O, faydalı dinləyici olduqda uşaq ona bir köməkçi kimi inanır və etibar edir. Bu, uşağın müvafiq qayğı və problemlərinə cavab vermək deməkdir;

2. O, fəal dinləyici olduqda. Valideyn uşağın nə dediyini, hətta o, başa düşməkdə çətinlik çəkdikdə belə, anlamağa cəhd etməlidir;

3. Valideyn aydın şəkildə və anlaşıqlı danışdıqda. Valideyn elə qısa cümlələr işlətməlidir ki, onlar üç, yaxud dörd sözdən ibarət olsun. O, uşağın anlam dərəcəsi və danışıq qabiliyyəti artdıqca, cümləri mürəkkəbləşdirməli və bu zaman əvvəllər yol verilən təkrarları aradan qaldırmağa çalışmalıdır.

Ümumiyyətlə, həssas qrupa daxil olan uşaqların məktəbəhazırlıq tərbiyəsi valideynlərdən ailədaxili münasibətlərin yenidən qurulmasını tələb edir. Valideynlər övladlarını təhsil müəssisələrinə göndərərkən bütün məsuliyyəti müəllimlərin üzərinə qoymamalı, övladının inkişafının stimullaşdırılmasında iştirak etməlidirlər. Qruplarda əldə edilən bilik və bacarıqlar ailədə möhkəmlənməlidir. Bu cür qarşılıqlı əməkdaşlıq uşağın zehni fəaliyyətinin zənginləşməsinə, ailənin dəstəyinin olmasına, uşaqda özünəinamın inkişafına və nəticədə uşaq üçün daha rahat uyğunlaşma dövrünün yaranmasına kömək edir. Ailədə tərbiyə və təlim üsulları onun yaş mərhələlərinə, xəstəliyin dərəcəsinə görə müəyyənləşdirilir. Uşağın məktəbə getməsi ərəfəsində valideynlər qarşısında mühüm vəzifələr durmağa başlayır. Valideyn elə bir mühüt yaratmalıdır ki, uşaq onlara inanıb öz fikirlərini deməkdə çəkinməsin.

Xüsusi qayğıya ehtiyacı olan uşağı məktəbə göndərmək asan məsələ deyil və hər kəsin bir-biri ilə əməkdaşlıq etməsi, müxtəlif fikirləri diqqətlə dinləməsi vacibdir. Valideynlərin və uşaqların istək və ehtiyaclarını nəzərə almaq çox vacibdir. Məktəb və ailə arasında əməkdaşlıq uğurlu təhsilin ən mühüm aspektlərindən biridir. Uşağın məktəbə psixoloji hazırlığı onun sinir sisteminin və sağlamlığının qorunmasında mühüm rol oynayır. Uşaqların məktəb təliminə hazırlanmaları onların ünsiyyət, kommunikasiya hazırlıqları dairəsindən asılı olur. "Uşaq şəxsiyyətinin qeyd olunan həmin psixi xüsusiyyətlərinin təzahürü və inkişafı düşünülmüş və məqsədyönlü pedaqoji təsir nəticəsində mümkün olur. Yalnız uşağın təbii imkanlarından çıxış edərək təlimin həmin yaş dövrünə uyğun ən yaxşı məzmun və metodlarını müəyyənləşdirməklə, uşaqların psixoloji gərginliyinin qarşısını almaqla onların mükəmməl və ahəngdar inkişafına nail olmaq mümkündür" [3, s.7].

Həssas qrupa daxil olan uşaqların məktəbə hazırlanması yalnız ailə ilə bitmir, həmçinin onu əhatə edən hər kəs üçün vacib vəzifədir. Bu dövrdə valideyn və mütəxəssislərin qüvvə və bacarıqlarının birləşdirilməsi çox mühümdür.

**Nəticə**

Uşaq inkişafı haqqında daha yaxşı təsəvvür əldə etmək üçün müxtəlif fəaliyyət və yanaşma istiqamətlərini öyrənmək çox vacibdir. Belə istiqamət və yanaşmalar uşaqların əqli və fiziki inkişafı, necə öyrənməsi və inkişaf etməsi, bilik və bacarıqları haqqında ətraflı məlumat verir. Göründüyü kimi həssas qrupa daxil olan uşaqları qorumaq, tərbiyə etmək və ona həyat üçün zəruri dəyərləri qazandırmaq ilk növbədə valideynlərin üzərinə düşür. Ailədə valideynlərin şəxsi nümunələri və istifadə etdikləri təlim-tərbiyə üsulları ailə münasibətlərini tənzimləyir və fiziki və psixoloji çətinliklərə məruz qalan övladlarını cəmiyyətə qovuşdurur.

**İstifadə edilmiş ədəbiyyat**

1.Abbasov A.N., Əlizadə Ə.Ə. Ailə. Bakı: Maarif, 1989, 312 s.
2.Akkök F., Sucuoğlu B. Anne Baba Rehberliği El Kitabı: Temel Becerileri Kazandırma Yöntemleri. Ankara: ODTÜ Geliştirme Vakfı Yayınları, 1990, 692 s.
3.Həmzəyev M.H. Pedaqoji psixologiya. Bakı: Maarif, 1991, 296 s.
4.Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası. Bakı, 2017, 114 s.
5.Məmmədova A.M. Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması. Bakı: ADPU, 2007, 160 s.
6.Федосеева О. А. Особенности воспитания ребенка с ограниченными возможностями в семье // Молодой ученый. 2013, №9. С. 346-349.

**Tarana VALIYEVA**

**CHILDREN BELONGING TO THE VULNERABLE GROUP ORGANIZATION OF THE SCHOOL PREPARATION PROCESS WITH IN THE FAMILY**

**Summary**

Education and upbringing of children belonging to the vulnerable group is one of the urgent issues of our time. Children with various mental, intellectual, physical disabilities and other diseases that lead to impairment of the overall development of the body are considered a vulnerable group. Creates barriers to self-service, movement, communication, self-control, as well as complete or partial loss of the ability to study and work in vulnerable groups, including children with disabilities or limited health. Lack of self-confidence, social adaptation tension, lack of infrastructural feasibility, etc. caused by all these obstacles. support is needed to solve problems

**Keywords:** *vulnerable group, family, children, school readiness, social work with children, socialization.*

**Тарана ВАЛИЕВА**

## ДЕТИ, ПРИНАДЛЕЖАЩИЕ К УЯЗВИМОЙ ГРУППЕ ОРГАНИЗАЦИЯ ПРОЦЕССА ПОДГОТОВКИ К ШКОЛЕ В СЕМЬЕ

### Резюме

Обучение и воспитание детей, принадлежащих к уязвимой группе, является одной из актуальных проблем современности. К уязвимой группе относятся дети с различными психическими, интеллектуальными, физическими недостатками и другими заболеваниями, приводящими к нарушению общего развития организма. Создает барьеры для самообслуживания, передвижения, общения, самоконтроля, а также полную или частичную утрату способности к учебе и работе в уязвимых группах, в том числе детей с ограниченными возможностями здоровья. Неуверенность в себе, социальная адаптационная напряженность, отсутствие инфраструктурной возможности и т.д., вызванные всеми этими препятствиями поддержка нужна для решения проблем.

**Ключевые слова:** *уязвимая группа, семья, дети, подготовка к школе, социальная работа с детьми, социализация.*

**Rəyçi: professor Mayis Əliyev**

UOT: 364.044.24

**Türkan MUSTAFABƏYLİ***

# AİLƏ DAXİLİ MÜNASİBƏTLƏR VƏ MÜNASIBƏTLƏRİN SOSİAL PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 dekabr 2022; çapa qəbul edilmişdir: 17dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: December 17, 2022; accepted for publication: 17 December 2022; published online: 29 December 2022*

**Xülasə**

Ailə cəmiyyətdəki ən kiçik qurumdur. İnsanların doğulduğu və inkişaf etdiyi cəmiyyəti quran və hər növ təməl ehtiyacları ödəyən ən təməl vahid olan ailə, eyni zamanda insanın yer üzündə özünü ən etibarlı hiss edə biləcəyi yerdir. Ancaq gündəmimizi zəbt edən vacib bir problem olan ailə daxili münaqişə və şiddət kimi problemlər nəticəsində ailənin artıq təməl funksiyalarından biri olan təhlükəsizliyi təmin edə bilmədiyini görürük. Rol və vəzifələrin yerinə yetirilməməsi ailəni, fərdi və sosial problemlərin yaşandığı və çoxaldığı bir sosial quruma çevirir. Bu baxımdan ailədəki hər hansı bir problem bütün cəmiyyətə təsir edəcək bir səviyyəyə çatır. Bu səbəbdən ailə ilə əlaqəli hər bir problem əslində sosial çevrəni risk altına atır.

**Açar sözlər.** *ailə, ailə daxili münasibətlər, münaqişələr, şiddət, bioloji səbəblər, psixoloji səbəblər, sosial səbəblər.*

## Giriş

Ailə daxilində yaşanmış münaqişələr və ailə daxili şiddət cəmiyyətin ən çətin həll olunan problemlərindən biridir. Ailə daxili münasibətlərin müsbət irəliləməsi üçün ailə daxilində qarşılıqlı ünsiyyət olduqca önəmli nüanslardan biridir. Lakin bəzən ailə içi münasibətlərdə qarşılıqlı ünsiyyət hər iki tərəf üçün çətin bir hal alır və ünsiyyətin az olması ailədaxili münasibətlərdə münaqişələrə gətirib çıxarır. Münaqişələr isə özlüyündə ailədaxili münasibətlərin zəifləməsinə və ailə daxilində şiddətə qədər gəlib çıxır. Ailədaxili şiddətin isə ayrıca səbəbləri vardır. Bu səbəblər bioloji, sosioloji və psixoloji səbəblər olaraq 3 yerə ayrılır. Bütün bu səbəblər ailədaxili şiddətə səbəb olan başlıca rüşeymdir.

## Ailə daxili münasibətlər

Ailə fərdin inkişafında çox önəmli bir yer tutan – qidalanma, qayğı, sevgi ehtiyacları, emosional inkişaf, psixoloji inkişaf, təhsil, mədəni dəyərlər qazanması, sağlam intellekt inkişafı kimi əsas ehtiyaclarını qarşıladığı ilk yer və mühitdir. Ailə üzvləri ilə ailə mühiti arasındakı münasibətlər, psixososial cəhətdən inkişaf edən fərdin ən çox qarşılıqlı əlaqədə olduğu yerdir. Bu əlaqələr fərdin özünə güvənməsinə, özünə və digər fərdlərə qarşı sevgisinə, şəxsiyyət qazanmasına, şəxsiyyətin formalaşmasına, sosial bacarıqların formalaşmasına və cəmiyyətə uyğunlaşmasına şərait yaradır.

Ailə daxilində ailə üzvləri bir-birindən təsirlənirlər. Bu vəziyyəti eyni bədəndəki orqanlarla müqayisə edə bilərik. Ailəni bütövlükdə, hər cür qarşılıqlı əlaqədə olan canlı orqanizm hesab etmək səhv olmaz. Orqanlardan birində nasazlıq digər orqanların ritminə, fəaliyyətinə və funksionallığına təsir göstərir. Ailənin öz daxilində qarşılıqlı əlaqədə olan bir sistem olması bu strukturun üzvlərinin bəzi qaydalara qarşılıqlı riayət etməsini zəruri edir. Bu strukturdakı hər bir fərd ailə daxilində mövcud olan qaydalara riayət etməli, qarşılıqlı rolları öz üzərinə götürməli və mövcud səlahiyyətləri bölüşməlidir [1].

* *Azərbaycan universiteti, Sosial iş ixtisası, Magistr. Bakı, Azərbaycan*
*E-mail:* elmi.is.2022@mail.ru

Biz yuxarıda ailəyə bir orqanizm kimi baxmışdıq. Bu prosesə əsasən orqanizmdə tarazlıq vəziyyəti var. Ailə üzvlərinin qarşılıqlı fəaliyyətində və ünsiyyətində problemlər, rollarda çaşqınlıq, səlahiyyətlərdən yersiz və düzgün istifadə edilməməsi, bu strukturda qaydaların pozulması mövcud balansı pozur və ailədə müəyyən münaqişələr meydana gəlir. Qaydaların çox sərt və çox qatı olmaması ailəni daha da möhkəm edir. Digər ailə üzvləri qaydaları pozan şəxsə qarşı eyni cəbhədə olurlar. Qaydaları pozan ailə üzvünə digər ailə üzvlərinin reaksiyası əsasən aşağıdakı kimi olur:

- Səhv edən şəxsi ruhdan salmağa çalışmaq;
- Görməməzlikdən gəlmək;
- Danışmamaq;
- Passiv müqavimət göstərmək;
- Danlamaq;
- Cəzalandırmaq;
- Cəzalandırmaq cəhdi kimi müxtəlif reaksiyalar.

Ailədaxili münasibətlərdə evdə yaşayan digər üzvlər, qohumlar və dostlar da bəzi problemlərin yaranmasına zəmin yarada bilər. Eyni zamanda, ailədaxili münasibətlərdə adı çəkilən fərdlər mövcud problemlərin daha da ağırlaşmasına, bəzən isə bu cür problemlərin həllinin mümkünsüz olmasına səbəb ola bilər. Bu hal ənənəvi geniş ailə quruluşunda tez-tez müşahidə oluna bilir. Bu vəziyyəti kompensasiya etmək üçün ailənin tam funksional olması, qaydalara tabe olması, rollarda qarışıqlığın olmaması, kifayət qədər ünsiyyət və qarşılıqlı əlaqənin olması vacibdir [6].

Ailə üzvləri arasında səlahiyyət bölgüsü mövcuddur. Bu cür səlahiyyət bölgüsü ailədəki bir fərdin başqa bir fərdin davranışını dəyişdirmək gücüdür. Ümumiyyətlə, ailədə ehtiyacları (ailənin maddi ehtiyacları, sağlamlıq ehtiyacları, ictimai fəaliyyətlər, sevgi ehtiyacları və s.) qarşılayan üzv daha çox səlahiyyətə malikdir. Bu səlahiyyət gücü mədəni və sosial dəyərlərin təsiri altındadır. Ailədaxili münasibətlərdə sağlam ailə üçün vacib olan digər məsələ ailənin adından qəbul edilən qərarlarda ailə üzvlərinin iştirak etməsidir. Bu vəziyyətdə hər kəsin ehtiyac və istəklərinə məqbul bir şəkildə hörmət edilməsi son dərəcə vacibdir. Bu, qarşılıqlı etimad mühitinin davamını təmin edir. Digər mühüm məqam isə ailədə hiss və düşüncələrini rahat ifadə edən fərdlərin olmasıdır. Sərhədlərin bağlı olduğu, ailəni təşkil edən fərdlərin öz hiss və düşüncələrini rahat ifadə etmədiyi və hər kəsin öz aləmində yaşadığı bir ailə quruluşunda zamanla fərdlər fərqli problemlər yaşamağa başlayır. Bu bəlalar arasında depressiya, narahatlıq, həyəcan, düşmənçilik hissləri, günahkarlıq hissi kimi duyğular çox yayılmışdır. Əksinə, sərhədləri açıq olan və hər kəsin özünü rahat ifadə edə bildiyi ailələrdə xoş niyyət, qarşılıqlı anlaşma və əməkdaşlıq, ortaq düşüncələr, bir-birləri üçün fədakarlıq, bir-birlərinə qarşı səmimiyyət və məhəbbət, gələcəyə inamla yanaşma halları mövcuddur.

**Ailədə ünsiyyət**

Ailədə ünsiyyət və qarşılıqlı əlaqə ən vacib məsələdir. Yanlış ünsiyyət və ya qeyri-adekvat ünsiyyət ailələrdə problemlərin əsas səbəblərindəndir. Ailə üzvləri şifahi və ya jest-mimika ilə bir-birləri ilə razılaşır və ya ünsiyyət yolu ilə münasibətlərin pozulmasına səbəb olurlar. Bu cür hallar ailəyə çox mənfi təsir göstərir.

Ailədə normal ünsiyyət və qarşılıqlı əlaqəyə mane olan amillər:

- Ailə və fərdlərə aid məsələlərdə səthi çıxışlar,
- Həddindən artıq sorğu-sual, əsassız şübhə və tərəddüdlər,
- Danışmadan, izahat vermədən qarşı tərəfin hərəkətlərini, fikirlərini şərh etməyə və proqnozlaşdırmağa çalışmaq,
- Keçmişdə baş vermiş kədərli və xoşagəlməz hadisələrin tez-tez gündəmə gəlməsi,
- Verilən sualların cavabsız qoyulması,
- Qarşı tərəfə şifahi təzyiq göstərməyə çalışmaq,
- Tez-tez təkliflər vermək və ya yalnız şəxsi fikirlərin qəbul edilməsinə məcbur etmək,
- Günahlandırmaq,
- Tənqid etmək,
- Mənfi qiymətləndirmələr etmək,

- Əmr etmək,
- Hədələmək,
- Səmimiyyətsiz olmaq
- Yalan danışmaq,
- İstehza etmək,
- Alçaltmağa çalışmaq,
- Qarşı tərəfin fikirlərinə dəyər verməmək,
- Hadisələrin mənfi tərəflərini aradan qaldırmağa çalışmamaq, əksinə həmin mənfi tərəfləri böyütmək,
- Kiçik səhvləri şişirtmək,
- Qarşı tərəfdən hər zaman qurban olmağı gözləmək,
- Birgə fəaliyyətə lazımi əhəmiyyət verməmək,
- Qarşı tərəfin öz fikirlərini ifadə etməsinə imkan verməmək.

Yuxarıda göstərilən səbəblər isə özlüyündə ailədaxili münasibətlərin zəifləməsinə, hətta ailə münasibətlərinin qopmasına gətirib çıxarır. Ailədaxili münasibətlərin zəifləməsi isə ailədaxili münaqişələrin yaranmasına səbəb olur. [3]

**Ailədaxili münaqişə nədir?**

İki insanın eyni mövzuda fərqli düşünməsi və fərqli davranmaq istəməsi təbiidir. Münaqişə, birinin davranışı digərinin ehtiyacları ilə ziddiyyət təşkil etdikdə, onların qarşılanmasına mane olduqda və ya dəyərləri uyğun gəlmədikdə yaranır. Münaqişə iki tərəf arasında barışmaz dəyərlərin, ideyaların, inancların, maraqların, qavrayışların, mədəni amillərin, sosial rolların və ehtiyacların mövcudluğundan yaranır. Fərdlər yaşamaq, təhlükəsizlik, azadlıq, güc və əyləncə ehtiyaclarını qarşılamağa çalışarkən partnyorları ilə münaqişələr yaşaya bilərlər. Münaqişənin mövcudluğu münasibətlərdə həll edilməli olan problemləri dərk etməyə, qayda və normaların yaradılması və ya mövcud olanların dəyişdirilməsinin zəruriliyini başa düşməyə imkan verir. Münaqişə müsbət idarə edildikdə, özünü və digərini tanımağa, dəyişikliyə təşviq etməyə, problemin həlli üçün enerji və motivasiyanı artırmağa kömək edir və əlaqələri gücləndirir.

Münaqişələr yaxşı idarə olunmadıqda isə fərdlər stress, qəzəb və bədbəxtlik yaşayır, münasibətləri pisləşir, fiziki və psixoloji şiddət göstərməyə başlayırlar. Münaqişə prosesində yaşanan və prosesə təsir edən ən mühüm duyğu qəzəbdir. Qəzəbi cilovlaya bilməmək münaqişə prosesinə mənfi təsir edir və dağıdıcı nəticələrə səbəb olur.

Evlilikdən qeyri-real gözləntilər, həyat yoldaşlarından birinin və ya hər ikisinin gözlənilən rolları oynamaması, öhdəlikləri paylaşmaması, xarici stresslər və həyat yoldaşlarının temperament və tərbiyə baxımından fərqliliyi münaqişələrə səbəb olur. Həyat yoldaşlarının uşaqlıq illərində sosiallaşma təcrübələri müxtəlif gündəlik problem və davranışlarda qarşıdurmalara səbəb olur. Onlar uşaq böyütmək, ibadət etmək və ya spirt və siqaretdən istifadə kimi mövzularda fikir ayrılığına düşə bilərlər. Partnyorlardan birinin şüursuz mexanizmlə keçmişdə psixoloji konflikt keçirmiş birinin yerinə digər partnyoru qoyması ilə də münaqişə yarana bilər. Keçmişdə həll olunmamış psixi problemlərini indi bu rola uyğun gördüyü partnyorunun üzərində yaşatmağa çalışması münaqişələrə gətirib çıxarır. Münaqişənin digər səbəblərindən biri də qarşı tərəfi özü kimi olmağa məcbur etməkdir. Münaqişənin başqa səbəblərindən biri isə insanın özünün bəyənmədiyi və ya qəbul etmədiyi bir tərəfini həyat yoldaşına əks etdirməsidir. Həyat yoldaşına olan yaxınlıq və sevgi hissinin zamanla dəyişməsi, həyat yoldaşlarından birinin münasibət və həyatla bağlı qərarlar verməkdə daha aktiv olması, hər bir tərəfin öz maraq və ehtiyaclarını qarşılamağa üstünlük verməsi kimi məsələlər evlilik münasibətlərində münaqişə yaradan səbəblərdəndir.

Partnyorların cinsi əlaqəyə yanaşmaları, puldan və vaxtdan istifadəyə münasibəti, öz ana, ataları ilə münasibətləri, onların asılılıqlarından qurtula bilməmələri də münaqişə mənbəyi ola bilər.

**Münaqişələrin mərhələləri:**

Münaqişə həyat yoldaşlarından birinin qarşı tərəfin öz istəklərinə mane olduğunu və ya qarşısını almağa çalışdığını düşündüyü zaman başlayır. Problemin yaratdığı gərginlik artdıqca

məlumatlılıq da artır. Problemin şəxsiləşdirilməsi ilə gərginlik artır, narahatlıq və qəzəb reaksiyaları inkişaf edir. Əslində, bu reaksiyalar vasitəsilə fərdlər müşahidə edilə bilən davranışlarla nəticələnəcək konflikt vəziyyətinin öhdəsindən gəlməyə çalışırlar. Qarşı tərəfin reaksiyası ilə proses davam edir, münaqişə açıq şəkildə davam edir. Qarşılıqlı münasibətlər inkişaf etdikcə münaqişə ilə bağlı hisslər və düşüncələr dəyişə bilər. Münaqişə istənilən yolla sona çatır və yeni şərait yaranır. Bu nəticələr hər iki şəxs üçün qarşılıqlı razılaşma, hər iki şəxs tərəfindən münaqişədən qaçmaq, bir nəfərin digər partnyor üzərində nəzarəti və ya münaqişənin sonlanmasına səbəb ola bilər.

Problemlərin həlli üçün bəzən münaqişə lazımdır. Problemlərini müzakirə edə bilməyən, fikirlərini bir-birinə açıq deyə bilməyən, münaqişənin həllini zamanın ixtiyarına buraxan ər-arvad bir-birindən uzaqlaşır. Həll edilməmiş münaqişələrə vaxt və enerji sərf edilir və yeni münaqişələr yaradır.

Münaqişənin həllində ilk addım fərdin hansı məsələlərdə münaqişələr olduğunu, onun münaqişələrə reaksiyalarını və bu reaksiyaların nəticələrini bilməkdir. Problemin müəyyənləşdirilməsində ümumi qavrayış və anlayış müsbət həll üçün ilkin şərtdir. Problemin yaranmasına səbəb olan amillərin müəyyən edilməsi və bu problemin formalaşmasında fərdin davranışlarının araşdırılması da mühüm addımdır.

Alternativlərin yaradılması və alternativlər arasından hər iki tərəfə uyğun olanın seçilməsi, bu variantın həyata keçirilməsi və nəticəsinin qiymətləndirilməsi digər həll mərhələlərindəndir. Münaqişənin həlli mərhələlərində göstərilən münasibət və davranışlar problemin müsbət və ya mənfi nəticəsinə təsir edəcək. Kompromis və inteqrasiya üsulları münaqişənin həllinin konstruktiv formalarıdır, hökmranlıq, qaçınma və uyğunsuzluq üsulları isə ümumiyyətlə münaqişənin dağıdıcı şəkildə başa çatdığı üsullardır. Əslində, ən uyğun həll mövcud vəziyyətə uyğun metodu tətbiq etməkdir. Həqiqi hisslərin və düşüncələrin əks olunduğu açıq ünsiyyət, qarşı tərəfin ehtiyaclarına hörmət və güvən ilə qurulan münasibətlər, problemin aydın şəkildə müəyyənləşdirilməsi və münaqişənin müsbət nəticələnməsini hər iki tərəfin qalib gəlməsini təmin edəcəkdir. Qorxu və gücə əsaslanan, birtərəfli, bir tərəfin itirilməsinə diqqət yetirən və gizli məqsədlər güdən münasibətlərdə mənfi nəticələrlə nəticələnəcək. Ətrafı tərk etmək, heç bir problem yoxmuş kimi davranmaq, qarşı tərəfi günahkar hiss etdirmək, mövzunu dəyişmək, problem haqqında danışmaq yerinə qəzəbi qarşıdakının digər davranışlarına yönəltmək və s. özünü düzgün ifadə edə bilməmək kimi problemlərə səbəb olar və münaqişənin daha da böyüməsi ilə nəticələnə bilər.

Münaqişələrin həlli üçün aşağıdakılara nəzər salaq:

- Hər iki tərəfin qazana biləcəyi ehtimalı ilə həll yolu ilə məşğul olmaq;
- İnteqrativ həll və ümumi həll yolu üzərində fokuslanmaq;
- Problemin həlli istiqamətində hərəkət etmək;
- Qarşı tərəfə təzyiq etməmək;
- Keçmişə yönəlmək əvəzinə gələcəyə yönəlmək;
- Problemlə bağlı vəziyyətləri yenidən həll etməyə çalışmaq;
- Əgər münaqişənin həllinə mane olan bir vəziyyət varsa, əvvəlcə bu vəziyyəti aydınlaşdırmaq və həll etmək lazımdır.

Bu kimi həll yollarından yayındıqda və problemin həllinə yönəlmədikdə ailə daxili münasibətlərdə münaqişələr olduqca şiddətli bir hala gəlib çıxa bilər. Münaqişələr öz çərçivəsindən çıxdıqda və həll olunmadıqda ailə daxili şiddət kimi daha böyük bir problemə çevrilir [4].

**Ailədaxili şiddət**

Ailədaxili şiddət "yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, bu qanunun şamil edildiyi şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır". Bundan əlavə deyə bilərik ki, ailədaxili şiddət yeniyetmələr, gənclər və böyüklərin öz intim partnyorlarına qarşı törətdikləri fiziki şiddət, cinsi zorakılıq, psixoloji basqı, iqtisadi asılılıq və ya məhrumetmə kimi aşağılayıcı və zorakı davranışların törədilməsi ardıcıllığıdır. Ailə daxili şiddətin bir neçə növü vardır: fiziki zorakılıq, psixoloji zorakılıq, sosial zorakılıq, iqtisadi zorakılıq, cinsi zorakılıq [2].

**Bioloji, psixoloji, sosial səbəblər**

Ailədaxili zorakılığın səbəbləri bioloji, sosioloji və psixoloji səbəblər olaraq üç hissəyə bölünür. İlk öncə ailə daxili şiddət hallarının baş verməsinə səbəb olan bioloji xüsusiyyətlərə nəzər salaq.

Bioloji səbəblərə kişi hormonlarının təsiri, şizofreniya kimi bəzi psixi xəstəliklər, paranoid, antisosiallıq, şəxsiyyət pozğunluğu kimi bəzi psixi geriləmələr aiddir.

Təhsil səviyyəsinin aşağı olması, yoxsulluq, gender bərabərliyinin pozulması, mental adət və inanclar, patriarxal düşüncələr sosioloji səbəblərdən bir neçəsidir. Qız uşaqlarının ibtidai siniflərdən məktəbdən uzaqlaşdırılması, valideynlər tərəfindən təhsilə biganə yanaşma halları ilə çox rastlaşırıq. Bundan əlavə, həddi-buluğa çatmadan qızların evliliyə məcbur edilməklə təhsildən yayındırma hallarını da gözdən qaçırmaq olmaz. Ailə başçısının yəni, kişinin ailənin tələbatlarını maddi cəhətdən ödəyə bilməməsi və ya qismən ödəməsi ailədaxili münaqişələrin yaranmasında rüşeym rol oynayır. İqtisadi problemlər zəminində yaranan münaqişələr kişinin həll yolu kimi şiddətə meyl etməsi ilə nəticələnə bilir. Mentalitet, köhnə vaxtların adət-ənənəsi, “kim nə deyər?” düşüncəsindən əmələ gələn sosial zorakılıq qadının və əsasən qız uşaqlarının cəmiyyətdən təcrid olunması, asosial vəziyyətə salınması kimi hallarla nəticələnir.

Problemin psixoloji səbəbləri isə antisosial və narsistik xarakter pozuntuları kimi qısqanclıq sayıqlamaları ilə gedən paranoid pozuntu və şizofreniya xəstəliyi, spirtli içki və narkotik vasitələrdən istifadə, ikinci dalğa və digər halları göstərə bilərik.

Qısqanclıq - Bu duyğu bəzən idarə edilə bilməyəcək həddə çatdıqda şiddətə səbəb olur. Yəni, qısqanclıq duyğusunun həddindən artıq çox olması şiddətə təkan verən səbəblərdən biridir. Qısqanclıq duyğusu adətən ailə daxilində kişi və qadın arasında baş verir ki, bu hallar ailə münaqişələrinin yaranmasına və şiddətlənməsinə səbəb olur. Qısqanclıq ailədə boşanmalara, fiziki, psixoloji, sosial zorakılığa daha güclü olduqda isə cinayətə belə səbəb ola bilər.

Zərərli maddələrdən istifadə - Şiddət və zərərli maddələr arasında bir bağlılıq var. Hər ikisidə çox önəmli gənclik problemidir. Bu səbəbdən şiddət və zərərli maddələr haqqında ədəbiyyatlarda bir çox araşdırmalar mövcuddur. Şiddət problemi gənclər arasında yayılmış çox ciddi bir problemdir. Şiddət və maddə arasında bağlılığın fərqli ölçüləri mövcuddur. Maddələrdən istifadə zamanı, maddələrin şiddətə təhrik etməyə meyilli olması və s. kimi hallar bu ölçülərə nümunədir. Xüsusəndə gənclərin vaxtının ən çox keçdiyi məktəb və s. kimi yerlərdə həm şiddətin, həm ziyanlı maddələrin mövcud olması bu halların gənclər arasında yayılmasına təkan verən önəmli səbəblərdən biridir [8].

Zorakılıq səbəbləri ortadan qaldırılmadan, münasibətləri və evliliyi davam etdirməyə çalışıldıqda birgə həyat öz cazibəsini və harmoniyasını itirməyə başlayır, bununla da yeganə çıxış yolu boşanmalarda görülür. Çözülməyən, aradan qaldırılmayan ailədaxili zorakılıqların mütəmadi baş verdiyi ailələrdə böyüyən uşaqlarda psixoloji problemlərin olduğuna daha tez-tez rast gəlinir.

İkinci dalğa - Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ailə içi zorakılıq və yaxud da şiddət göstərmək əksərən davranışla əlaqəli olan sosial bir bəladır. Bu bəla əsasən uşaqlıqda ailə daxilində baş vermiş məişət zorakılığının şahidi olmuş şəxslərdə daha çox özünü göstərir. Bu cür şahidlik nəticəsində mənimsənilən davranış “sonradan öyrənilən” bir proses kimi qiymətləndirilir.

Sosial və psixoloji halların mövcudluğu isə ailə daxili şiddət qurbanlarının nəticədə müdafiəsiz qalmalarına səbəb olur. Xüsusilə vurğulamaq yerinə düşər ki, məişət zorakılığı beynəlxalq ictimaiyyət tərəfindən ən çox yayılmış insan haqlarının pozuntusu hallarından biri hesab olunur.

**Nəticə**

Nəticə etibarı ilə ailə cəmiyyətin və dövlətin özəyini təşkil edir. Bu səbəbdən ailədaxili münasibətlər, münaqişələr və ailədaxili şiddət cəmiyyətdə olan hər kəsi maraqlandıran bir məsələdir. Xüsusi ilə də ailədaxili şiddət. Ailədaxili şiddətə məruz qalan şəxslər, onun növlərindən asılı olmayaraq ağır travmalar keçirirlər. Misal olaraq, bətnində uşaq daşıyan bir qadın zorakılıqla üzləşdiyi zaman uşağı həm psixoloji həm də fiziki travma almış olur. Bu da cəmiyyətin inkişafına birbaşa mənfi təsir göstərir. Ailədaxili münasibətlərdə zorakılıq hallarının baş vermə səbəbləri

bioloji, sosial və psixoloji səbəblərdir. Bu səbəblərə daxil olan qısqanclıq, maddə bağlılığı, ikinci dalğa və s. kimi proseslər
psixoloji səbəblərdir. Bu cür halların qarşısını almaq ailə üçün önəmli bir prosesdir. Psixoloji səbəblər meydana gəldiyi zaman mütəxəssislərə müraciət edib bu kimi halların baş verməsinin qarşısını almaq önəmlidir. Sosial səbəblərə iqtisadi vəziyyətin aşağı olması, mental adət ənənələr, patriarxal dəyərlər, gender bərabərliyinin pozulması, keçmişdən qalma adət ənənələr, inanclar, erkən evlilik, təhsil səviyyəsinin aşağı olması və s. aiddir. Bu səbəbləri aradan qaldırmaq üçün cəmiyyətin mariflənməsinə ehtiyac vardır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Aile psikolojisi ve eğitimi, Prof.Dr.Süheyla Ünal, Malatya: İNÖNÜ ÜNİVERSİTESİ, 2009, 12 s.
2. Aile İçi Şiddetin Sebep ve Sonuçları. Ankara: Aile Araştırma Kurumu, 1995, 347 s.
3. Aksakal H, Atasayar M. Aile içi kadına yönelik şiddetin biyo-psikososyal sonuçları üzerine bir çalışma // Akademik Bakış Dergisi. 2017, Cilt 1, Sayı 2, s.16 - 37
4.Aile nedir? [Elektron resurs] // URL: https://www.nedir.com/aile Müraciət edilib:12.09.2022
6.Aile İçi Şiddet; Çatışma ve sorun çözme. [Elektron resurs] // URL: https://www.researchgate.net/publication/315741510_Aile_Ici_Siddet_Catisma_ve_sorun_cozme. Müraciət edilib:15.09.2022
7. Boz, B., Acar, K. ve Kurtuluş, A. Mayıs 2003- Temmuz 2004 Tarihleri Arasında Pamukkale Üniversitesi Tıp Fakültesi Adli Tıp Anabilim Dalı'na Başvuran Aile İçi Şiddet Olguları // Pamukkale Tıp Dergisi, 2008, Vol.1, p.p.13-16
8. Fatma Basar, Nurdan Demir. Toplumsal cinsiyet esitsizligi ve siddet. [Elektron resurs] // URL: Chttps://dergipark.org.tr/tr/download/article-file/207499 Müraciət edilib:17.09.2022

**Turkan MUSTAFABAYLI**

## SOCIAL PSYCHOLOGICAL CHARACTERISTICS OF FAMILY RELATIONSHIPS AND RELATIONSHIPS

### Summary

Family is the smallest institution in society. The family, which is the most basic unit that builds the society in which people are born and develops and fulfills all kinds of basic needs, is also the place where a person can feel the most secure on earth. However, as a result of problems such as internal family conflict and violence, which is an important problem occupying our agenda, we see that thefamily is no longer able to provide security, which is one of its basic functions. Failure to fulfillroles and responsibilities turns the family into a social institution where individual and social problems are experienced and multiplied. From this point of view, any problem in the family reaches a level that will affect the whole society. For this reason, every problem related to the family actually puts the social circle at risk.

**Key words.** *family, internal family relations, conflicts, violence, biological, psychological, social reasons.*

**Тюркан МУСТАФАБЕЙЛИ**

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА СЕМЕЙНЫХ ОТНОШЕНИЙ И ВЗАИМООТНОШЕНИЙ

### Резюме

Семья – это самый маленький институт в обществе. Семья, которая является самой основной ячейкой, которая строит общество, в котором люди рождаются и развиваются, и удовлетворяет все виды основных потребностей, также является местом, где человек может чувствовать себя в наибольшей безопасности на земле. Однако в результате таких проблем,

ак внутрисемейный конфликт и насилие, что является важной проблемой, занимающей нашу повестку дня, мы видим, что семья уже не в состоянии обеспечивать безопасность, что является одной из ее основных функций. Невыполнение ролей и обязанностей превращает семью в социальный институт, где возникают и умножаются индивидуальные и социальные проблемы. С этой точки зрения любая проблема в семье достигает такого уровня, который затрагивает все общество. По этой причине каждая проблема, связанная с семьей, фактически ставит под угрозу круг общения.

**Ключевые слова.** *семья, внутрисемейные отношения, конфликты, насилие, биологические, психологические, социальные причины.*

**Rəyçi: dosent Zeynəddin Şabanov**

UOT: 364.044.6

# AZƏRBAYCANDA SOSİAL XİDMƏT SAHƏSİNDƏ KONVENGENSİYA NƏZƏRİYYƏSİNİN TƏTBİQİ İMKANLARI

**Ülvi ƏLİYEV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 dekabr 2022; çapa qəbul edilmişdir: 17dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*
*The article was submitted to the editors: December 17, 2022; accepted for publication: 17 December 2022; published online: 29 December 2022*

**Xülasə**

Bu məqalədə Azərbaycanda sosial xidmət sahəsində konvengensiya nəzəriyyəsinin tətbiqi imkanları araşdırılmışdır. Məqalədə əhaliyə sosial xidmətin göstərilməsi sahəsi üzrə xarici ölkələrdə artıq çoxdan formalaşmış olan “konvergensiya” nəzəriyyəsi təhlil edilmiş və onun mahiyyəti sosial xidmət sahəsində formalaşmış olan müsbət təcrübənin digər ölkələrin yerli xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilməsini özündə əks etdirən nəzəriyyə kimi xarakterizə edilmişdir. Müəllif əsaslandırır ki, həmin nəziyyə baxımından sosial xidmət sisteminin inkişaf səviyyəsi əsasən ölkə iqtisadiyyatının səmərəliliyindən asılıdır və yalnız iqtisadi səmərəliliyin artırılması yolu ilə sosial xidmət sistemininin inkişafına nail olmaq olar. Azərbaycan Respublikasında sosial xidmət sisteminin daha səmərəli formalaşması üçün əhaliyə sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinin tətbiq olunması vacib rol oynaya bilər. Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi əsasında respublikamızda çətin həyat şəraitində olan şəxslərlə aparılan sosial işin sistemli şəkildə həyata keçirilməsi məqsədilə keys menecment metodu geniş şəkildə tətbiq edilməli, bununla bağlı normativ sənədlər və təlimatlar hazırlanmalıdır.

**Açar sözlər:** *sosial xidmət, çətin həyat şəraiti, konvengensiya nəzəriyyəsi, keys menecment.*

## Giriş

Əhaliyə sosial xidmətin göstərilməsi sahəsi üzrə “konvergensiya” nəzəriyyəsi xarici ölkələrdə artıq çoxdan formalaşmışdır. Konvergensiya latın dilindən tərcümədə (convergere) yaxınlaşmaq, uzlaşmaq mənasını ifadə edir [4, s.360]. Azərbaycanda da yeni yanaşmalar əsasında sosial xidmət sisteminin formalaşması üçün həmin “konvergensiya” nəzəriyyəsinin tətbiq olunması vacib rol oynaya bilər. Bu nəzəriyyə iki sosial sistemin - kapitalizm və sosializmin yaxınlaşmasında ictimai inkişafın (XX əsrin 50-70-ci illəri) üstün tendensiyanı nəzərdə tutan sosioloq, politoloq və iqtisadçıların əsərlərində kifayət qədər geniş şəkildə öz əksini tapmışdır [8, s.271-272].

Konvergensiya nəzəriyyəsi 1960-cı illərdə Kaliforniya Universitetinin iqtisadiyyat üzrə professoru Klark Kerr tərəfindən tərtib edildiyi dövrdən etibarən məşurlaşdı. Əsasən sosial xidmət sahəsi üzrə formalaşmış konvergensiya nəzəriyyəsinin mahiyyəti sosial xidmət sahəsində formalaşmış olan müsbət təcrübənin digər ölkələrin yerli xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilməsini özündə əks etdirir. Hesab edirik ki, belə bir nəzəriyyənin sosial xidmətlə bağlı münasibətlərin tənzim edilməsində istifadəsi daha düzgün olardı.

Konvergensiya nəzəriyyəsinin bəzi nümunələri arasında, ABŞ və ciddi kommunist doktrinlərindən uzaqlaşan digər ölkələrin iqtisadiyyatı, həmçinin əvvəlki sırf kommunist ölkələr Rusiya və Vyetnam daxildir. Dövlət nəzarətində olan sosializm ölkələrində iqtisadi sarsıntılar və bəzi hallarda özəl təsərrüfatın inkişafına imkan yaradılması daha aşağıdır.

* *Bakı Biznes Universitetinin və Azərbaycan Universitetinin müəllimi, Bakı, Azərbaycan*
*E-mail:* aliyev_ulvi_89@mail.ru

Çox təəssüflər olsun ki, bu xüsusiyyətlər keçmiş SSRİ-də "yad" təsir hesab olunduğuna görə rədd edilmişdir. "İnsan şəxsində kapitalizm" və "insan şəxsində sosializm" formasında konkretləşdirilən bu konvengensiyanı ölkəmizdə inkişaf etdirmək mümkün olmamışdır.

Doğrudur, hazırda Azərbaycanda konvengensiya nəzəriyyəsinin inkişafı üçün əlverişli mühit formalaşmasa da, müasir dövr üçün bu nəzəriyyə olduqca aktuallıq kəsb edir.

Sosial xidmətin elmi əsaslarla inkişafı üçün konvengensiya nəzəriyyəsi ona görə əhəmiyyətlidir ki, o, hər şeyi yenidən başlamaq üzrə bütün cəhdləri rədd edərək sosial xidmətə dair qanunvericlik üzrə artıq hazır olan müsbət təcrübənin istifadə edilməsini təklif edir. Hesab edirik ki, belə bir nəzəriyyənin sosial xidmətlə bağlı münasibətlərin tənzim edilməsində istifadəsi daha düzgün olardı.

**Qərb ölkələrində sosial xidmət sistemi**

Qərb ölkələrində sosial xidmət sisteminin genişlənməsi üç istiqamətdə həyata keçirililmişdir:

Birincisi, sosial xidmətin təqdim edilməsi risklərinin genişlənməsi. Sosial xidmət sistemi əvvəlcə yalnız müəyyən sosial risklərdən müdafiəni əhatə edirdisə, sonralar onların genişlənməsinə, daha böyük sahəni əhatə etməsinə gətirib çıxarmışdır.

İkincisi, sosial müdafiə olunan şəxslərin tərkibinin genişlənməsi. Əvvəllər sosial xidmət sistemi yalnız muzdlu işçiləri əhatə edirdi. Sonralar zaman keçdikcə müdafiəyə ehtiyacı olan digər sosial qruplar da bu xidmətdən istifadə etməyə başladılar. Bura sənətkarlar, işləməyənlərin müəyyən təbəqələri, reabilitasiya mərhələsində olanlar, sosial yardımdan istifadə edənlər də cəlb olundular.

Üçüncüsü, sosial xidmət növlərininn kəmiyyətinin çoxalması və səviyyəsinin yükəlməsi. Əvvəllər məhdud olan xidmətlərin sayı dövlətin iqtisadi potensialının artması ilə əlaqədar olaraq genişləndi və göstərilən xidmətlərin səviyyəsinin yüksəlməsi mümkün oldu.

Hər bir ölkənin bazar iqtisadiyyatı ilə əlaqədar sosial xidmət sisteminin ayrı-ayrı sahələri də formalaşır və bununla əlaqədar alternativ imkanları yaranır. Bu imkanlar sosial xidmətin təşkil edilməsi, sosial müdafiəyə ehtiyacı olan şəxsləri, sosial xidmətlərin həcmi və forması, onun maliyyələşdirilməsi ilə bağlı aspektləri əhatə edir.

Qeyd etmək lazımdır ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial xidmət sistemi üçün iki prinsip mövcuddur: birincisi, ictimai birliklərin müəyyən fəaliyyətindən sonra sosial xidmət göstərilməsinə dəstək prinsipidir. Bu prinsipə əsasən bazar münasibətləri şəraitində dövlətin səlahiyyətlərinin bir hissəsi könüllü fəaliyyət göstərən təşkilatlara, yerli hakimiyyətlərə verilir. İkincisi isə bu münasibətlərdə əsas rolun və məsuliyyətin dövlətə keçməsi prinsipidir [7, s.19].

**ABŞ-da dövlət sosial xidmət sistemi**

ABŞ-da dövlət sosial xidmət sistemi Avropa ölkələrindən xeyli gec yaransada sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi uzun müddət tətbiq edilməmişdir. Sosial təminat sistemi formalaşdığı ilk dövrlərdə dövlətin sosial siyasəti daha çox pensiya təminatına və sosial sığortaya yönəlmişdir. Müəyyən müddətdən sonra sosial təminatın strukturu mürəkkəbləşərək öz tərkibinə tibbi xidmətlə yanaşı sosial xidməti də daxil etməyə başlamışdır.

Hazırda ABŞ-da sosial müdafiə və sosial təminat haqqında 1935-ci ildə qəbul edilmiş qanunlar qüvvədədir.

Yaşlı insanlara göstərilən sosial xidməti tənzimləyən əsas qanun "Yaşlı amerikalılar haqqında" 1992-ci ildə qəbul olunmuşdur. Həmin qanuna əsasən, ayrılan vəsaitlər müxtəlif yardım növlərinin təşkili və göstərilməsi üçün nəzərdə tutulur. Bu vəsaitlər yaşayış yerinə görə qocalara xidmət göstərilməsinə, həm qrup şəklində, həm də fərdi olaraq qida ilə təmin edilməsinə görə verilir. Bunlarla yanaşı xüsusi ehtiyaclarla şərtlənən müxtəlif yardım növlərinin təqdim edilməsi də nəzərdə tutulmuşdur. Qanuna əsasən həmin xidmətlərin maliyələşdirilməsinə bütün vəsaitin 70%-i yönəldilir və bu zaman qidalanma məsələsi mərkəzi yer tutur. Belə ki, yaşı 60 və ya ondan çox olan vətəndaşlar qida proqramından istifadə etmək hüququna malikdirlər. Əlillər zərurət olduqda evdə qida əldə edirlər və yaşa görə onlar 60 yaşdan az ola bilərlər. Qidanın 2/5-dən çoxu yaşayış yeri üzrə verilir, qalan 3/5-ü isə yaşayış məntəqələrinə ən yaxın olan ərazilərdə paylanılır. Bütün bu

normalar və formalaşmış təcrübə sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinin tətbiqinin və müsbət təcrübənin olduğunu göstərir.

"Yaşlı amerikalılar haqqında" qanundan əlavə sosial xidmət üzrə konvergensiya nəzəriyyəsini özündə əks etdirən "Son ümid proqramları" adlandırılan ümumi yardım proqramları fəaliyyət göstərir. Bu proqramlar yalnız bir əhali qrupuna, məsələn, əlillərə, əlillərin ailələrinə və s. xidmət göstərilənə qədər həyata keçirilə bilər. Ehtiyacı olan bütün kateqoriya şəxslərə (praktik olaraq heç bir proqrama aid olmayan əmək qabiliyyətli şəxslər istisna olmaqla) yalnız 10 ştatda xidmət göstərilir.

ABŞ-da ümumi yardım proqramlarından başqa fövqəladə və xüsusi yardım proqramları da mövcuddur. Bu proqramların hər birinin özünəməxsusluğu vardır. Belə ki, fövqəladə yardım proqramları ümumi proqramlarda planlaşdırılmayan hallarda sosial dəstəyi nəzərdə tutur. Xüsusi yardım proqramları isə insanların qeyri-standart ehtiyaclarının ödənilməsinə yönəlir. Proqramların bir özəlliyi də vardır ki, bunların dövlət proqramı olmasına baxmayaraq burada xüsusi sosial agentliklərin də iştirakı mümkündür.

**Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi**

Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi əsasında formalaşmış olan xarici ölkələrin qanunvericiliyinin təhlili göstərir ki, bu sahənin fəaliyyəti ayrı-ayrı ölkələrdə müxtəlifdir. Bəzi ölkələrdə sosial xidmət əldə etmək üçün tibbi sığortaya malik olmaq və müəyyən vaxt ərzində sığorta haqlarını ödəmək (Almaniyada, Niderlandda), peşə fəaliyyəti təcrübəsinə malik olmaq (Almaniya) lazımdır. Yaşlı insanların maraqları naminə bəzi ölkələrin (ABŞ, AFR, Danimarka, İsveç) qanunvericiliyi evdə sosial xidmətin göstərilməsinə, onların evdə, ailədə yaşaması üçün ən yaxşı şəraitin yaradılmasına yönəlmişdir.

Sosial xidmət sisteminin səmərəli təmin olunması üçün hər bir cəmiyyət üzvü və dövlət bir-birləri ilə sıx surətdə əməkdaşlıq etməlidirlər. Bu, o deməkdir ki, sosial xidmət sisteminin səmərəli təmin olunmasında dövlət təkbaşına deyil, ictimai birliklər və cəmiyyət üzvləri ilə birlikdə, sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Məsələn, dövlət sosial xidmətlərindən başqa xarici ölkələrdə dini və s. fondlar daxil olmaqla yerli fondlar tərəfindən maliyələşdirilən könüllü qeyri-kommersiya sosial xidmətləri və xüsusi şəxslərin himayə etdiyi özəl kommersiya təşkilatların maliyələşdirilməsi hesabına sosial xidmətlər həyata keçirilir. Eyni zamanda peşəyə görə birləşən təşkilatlar da mövcuddur.

AY.Nekrasov haqlı olaraq qeyri-hökümət təşkilatlarının fəaliyyəti ilə bağlı qeyd edir ki, bu sektorun üstünlüyü peşəkar ödənişli xidmətlərlə könüllü xidmətlərin fəaliyyətini əlaqələndirməkdədir. Həmçinin onlar həmin xidmətləri çox sadə yollarla həyata keçirirlər. Qeyri-hökumət təşkilatları xüsusilə böhran vəziyyətlərində (təbii fəlakətlər, qəzalar və s.) yeni tələbatların meydana gəlməsinə düzgün və operativ reaksiya verir və hökumət proqramlarını tamamlayaraq əhaliyə təxirəsalınmaz yardım göstərirlər [3, s.75].

Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi əsasında formalaşmış uğurlu sosial xidmət sistemi olan ölkələrdən biri İsveçrədir. Orada sosial xidmətlə bağlı bir çox mərkəzlər fəaliyyət göstərir. Bunlardan biri də kantonlarda gənclərə məhkəmə icraatı sahəsində yardım üzrə dövlət mərkəzləridir. Burada sosial işçilər qüvvədə olan hüquqi aktları araşdırır, yetkinlik yaşına çatmayan qanun pozanların cəzalandırılması və ya müdafiəsinə dair bütün mövcud hüquqi aktları üzə çıxarır, gənclər üçün həbsxanalarda və islah müəssisələrində şəraitin yaradılmasına çalışırlar. İsveçrənin bütün kantonlarında xəstələr - alkoqoliklər və narkomanlar üçün müstəsna məsləhətxanalar mövcuddur. Onlarla işləyən sosial işçilər psixiatriya klinikalarında və ixtisaslaşmış institutlarda müvafiq müalicə kursunu keçir, bu qəbildən olan insanlara xüsusi diqqətlə yanaşırlar. İlkin söhbətlərdən və hazırlıqdan sonra bu növdən olan xəstələri xüsusi terapevtik şöbələrə keçirirlər. Orada onlar qruplarda yaşayır və müxtəlif profilli mütəxəssislər (sosial işçilər, həkimlər, psixoloqlar və s.) tərəfindən adi peşəkar və gündəlik həyata qayıtmalarına yardım edilir.

Maraqlı işlərdən biri də odur ki, bəzi özəl mərkəzlərin sosial işçiləri sosial hazırlıqdan sonra küçə işi adlı fəaliyyəti həyata keçirirlər. Onlar yeniyetmələri, gəncləri müəyyən ictimai yerlərdə, dəniz kənarında və ya müvafiq bar və kafelərdə saxlayaraq bütün sosial məsələlər üzrə lazımi

köməklik göstərirlər. Bu gün İsveçrədə bütün sosial fəaliyyət dairələrində çalışan sosial işçilər tam şəkildə əmək haqqı ilə təmin olunurlar. Ölkədə fəaliyyət göstərən bütün kantonlarda sosial işin strukturu və istiqaməti bir-birindən fərqlənsə də, bu işin prinsipləri, onun məqsəd, məram və fəaliyyəti eynidir [7, s.234-245].

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində üzvlərinin mənafelərinin müdafiəsi məqsədilə çoxsaylı assosiasiyalar fəaliyyət göstərir. Məsələn, Böyük Britaniyada təhsil assosiasiyaları ali və orta məktəb müəllimlərinin, pedaqoji heyət üzvlərinin statusunun sosial təminatı məsələlərini həll edirlər. Xüsusi olaraq müəllimlər üçün yardım və qarşılıqlı dəstək cəmiyyətləri yaradılmışdır və fəaliyyət göstərir.

Müəyyən ölkələrdə öz üzvlərinə, həmçinin sosial xidməti təmin edən xüsusi sosial təminat təşkilatları mövcuddur [1, s.6-10]. Bununla əlaqədar tam şəkildə muxtariyyətə malik olan xüsusi təşkilatlar yaradılmışdır: şaxtaçılar təşkilatı, SNCF (dəmir yolları milli cəmiyyəti) təşkilatı, RATP (muxtar dövlət Paris nəqliyyat müəssisəsi), peşəkar hərbçilər təşkilatı, Fransız bankı təşkilatı və s.

Sosial xidmət praktikası bir sıra ölkələrdə icmanı təmin edən xüsusi proqramlar qəbul etməklə inkişaf etmişdir. Belə ki, ABŞ-da "Gündəlik qayğı" proqramı bütün il ərzində həftənin beş günü (8:00-dan 16:30-a qədər) qüvvədə olur. Bu proqram uşaqları gün ərzində 4 dəfə yeməklə təmin edir: səhər yeməyi, nahar, günortadan sonra iki qəlyənaltı ilə. Eyni zamanda təhsilə yönələn proqrama əlavə olaraq "Gündəlik qayğı" preventiv tibbi xidmət və ailə məsləhətləşməsini də təmin edir.

Son illər sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi əsasında formalaşmış "Qoddard - Riversayd" layihəsi evsiz, tənha insanların doğma yaşayış yerinə çevrilmişdir. Göstərilən nəzəriyyə əsasında işlənib hazırlanmış layihələrə görə, Yuxarı Vest-Saydın park və küçələrinə hər gün evsiz insanlara qida, paltar, xidmət, sığınacaq, emosional dəstəklə təmin edən işçilər komandası göndərilir. Layihə ruhi xəstə olan evsiz insanlarla apardığı işdə qazandığı uğurlara görə dövlətin də diqqətini cəlb etmişdir [2, s.114].

**Sosial xidmət sistemində keys menecment metodu**

Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi əsasında sosial xidmət sistemində keys menecment metodu uğurlu şəkildə tətbiq edilməkdədir. Çətin həyat şəraitində olan şəxslərin üzləşdikləri hallar, zərər, istismarın xarakteri və dərəcəsi çox genişdir və bu, zorakılıq, baxımsızlıq və istismarın qarşısının alınmasında və fərdlərin müdafiəsində sosial işin güclü rolunun olmasını tələb edir.

Hazırda ölkəmizinin sosial xidmət sistemində sosial iş mexanizminin zəif inkişafı ilə əlaqədar vətəndaşların çətin həyat şəraitinin müəyyən edilməsi, qiymətləndirilməsi və müvafiq xidmətlərə istiqamətləndirilməsi sistemli şəkildə təmin edilməmişdir ki, bu da çətin həyat şəraitində yaşayan şəxslərin problemlərinin erkən müəyyən edilməsində əsas çətinliklərdən biri kimi qeyd edilə bilər. Artıq qabaqcıl dünya dövlətlərində tətbiq edilən keys menecment metodu şəxsin həyatında çətinliklərin yeni yarandığı vaxt başlayır. O, çətin həyat şəraitində olan şəxsin ehtiyaclarının qiymətləndirilməsi, bu ehtiyacların aradan qaldırılması üçün xidmətlər paketinin təmin edilməsi, aparılan sosial işin koordinasiyası, həyata keçirilən xidmətlərin monitorinqinin təşkili/qiymətləndirilməsi və işin bağlanmasından ibarət bir prosesdir [10]. Keys menecment geniş tətbiq edildiyi ölkələrdə qurumlararası birgə əməkdaşlıq və koordinasiya fəaliyyətinin inkişafına müsbət təsir göstərməsi ilə də diqqəti cəlb edir.

Bütün qeyd edilənlərə əsasən hesab edirik ki, respublikamızda çətin həyat şəraitində olan şəxslərlə aparılan sosial işin sistemli şəkildə həyata keçirilməsi məqsədilə keys menecment metodu geniş şəkildə tətbiq edilməli, bununla bağlı normativ sənədlər və təlimatlar hazırlanmalıdır. Keys menecment prosesinin uğurlu tətbiqi məqsədilə sosial işçilər üçün mütəxəssislər tərəfindən davamlı təlimlər təşkil edilməlidir.

Çətin həyat şəraitində olan şəxslərin sosial xidmətlərə olan ehtiyaclarını təmin etmək üçün göndəriş (qurumlararası müraciət) sisteminin qurulması və yaradılması çox vacibdir. Göndəriş sistemi problemi müəyyən edən, işin daha ixtisaslı və ya kvalifikasiyalı qurum tərəfindən aparılmasını qərara alan və həmin problemi birbaşa məruzə edən və ya köməyə ehtiyacı olan şəxsə

məlumat verməklə müəyyən edilən bir prosesdir. Göndəriş sistemi mövcud xidmətlərin sosial müdafiə və digər sektorlar daxilində kompleks, fasiləsiz və keyfiyyətli təmin edilməsi məqsədini daşıyır. Səmərəli göndəriş mexanizmləri zorakılığın bütün formaları, eləcə də qəddar davranış, uşaqların baxımsızlığı və digər təcili cavab tədbirləri tələb edən halların aradan qaldırılması üçün xüsusilə zəruridir. Göndəriş sisteminin başlıca üstünlüyü onun sosial xidmət və uşaq müdafiəsi sistemində fəaliyyət göstərən qurumların xidmətlə bağlı vəzifə və öhdəliklərinin, o cümlədən xidmətlərin əlaqələndirilmiş qaydada həyata keçirilməsini təsvir edən protokol və ya qaydalar əsasında həyata keçirilməsidir. Keys menecment prosesinin tətbiqi üçün göndəriş sisteminin mövcud olması labüddür.

**Nəticə**

Beləliklə, sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinin təhlili və ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinin təhlili göstərir ki, sosial xidmətin növləri və həcmi əsasən ölkə iqtisadiyyatının səmərəliliyindən asılıdır. İqtisadi səmərəliliyin artırılması yolu ilə sosial xidmət sistemininin inkişafına nail olmaq olar. Azərbaycan Respublikasında sosial xidmət sisteminin formalaşması üçün əhaliyə sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinin tətbiq olunması vacib rol oynaya bilər. Fikrimizcə, bazar iqtisadiyyatına keçid şəraitində bu nəzəriyyə Azərbaycanda da aktuallıq kəsb edir. Sosial xidmət sahəsi üzrə formalaşmış konvergensiya nəzəriyyəsinin mahiyyəti sosial xidmət sahəsində formalaşmış olan müsbət təcrübənin digər ölkələrin yerli xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilməsini özündə əks etdirir. Hesab edirik ki, belə bir nəzəriyyənin sosial xidmətlə bağlı münasibətlərin tənzim edilməsində istifadə edilməsi daha düzgün olardı.

2. Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsi əsasında respublikamızda çətin həyat şəraitində olan şəxslərlə aparılan sosial işin sistemli şəkildə həyata keçirilməsi məqsədilə keys menecment metodu geniş şəkildə tətbiq edilməli, bununla bağlı normativ sənədlər və təlimatlar hazırlanmalıdır. Keys menecment prosesinin uğurlu tətbiqi məqsədilə sosial işçilər üçün mütəxəssislər tərəfindən davamlı təlimlər təşkil edilməlidir.

3. Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinin təhlili göstərir ki, sosial xidmətə ehtiyacı olan şəxslərin vəziyyəti ayrı-ayrı ölkələrdə müxtəlifdir. Məsələn, Niderlandda sosial xidmət əldə etmək üçün tibbi sığortaya malik olmaq və müəyyən vaxt ərzində sığorta haqlarını ödəmək, Almaniyada peşə fəaliyyəti stajına malik olmaq lazımdır. Yaşlı insanların maraqları naminə bəzi ölkələrdə - ABŞ, Almaniya, Danimarka, İsveç qanunvericiliyində evdə sosial xidmətin göstərilməsi, onların evdə, ailədə yaşaması üçün ən yaxşı şəraitin yaradılması mühüm əhəmiyyət kəsb edir.

4. Sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinə görə sosial xidmət sisteminin səmərəli təmin olunmasında dövlət ictimai birliklər və cəmiyyət üzvləri ilə birlikdə, sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərilməlidir. Xarici ölkələrdə dövlət sosial xidmətlərindən başqa dini və s. fondlar daxil olmaqla yerli fondlar tərəfindən maliyyələşdirilən könüllü qeyri-kommersiya sosial xidmətləri də fəaliyyət göstərir.

5. Hazırda əhaliyə sosial xidmətin səmərəli təşkili üçün, çətin həyat şəratində olan şəxslərin minimum səviyyədə təmin etməyə imkan verməsi üçün sosial xidmət üzrə konvergensiya nəzəriyyəsinə uyğun olaraq sosial xidmətin ehtiyaclarına sərf olunacaq bütün vəsaitlərin cəmləşdiriləcəyi büdcədənkənar xüsusi dövlət fondu formalaşdırılmalıdır. Məhz həmin fond vasitəsilə vətəndaşların sosial xidmətin əsas növlərinə olan konstitusion hüquqları reallaşdırıla bilər. Sığorta olunan vətəndaşlar daha keyfiyyətli sosial xidmət və onun daha geniş dairəsini əldə edəcəklər. Onlar sosial xidmətin səmərəliliyinin yüksəldilməsinin ən mühüm üsulu olan sosial sığorta mexanizmi vasitəsilə əldə etdikləri hüquqların real təminatına malik ola biləcəklər. Hesab edirik ki, bazar iqtisadiyyatı şəraitində sosial xidmətin maliyələşdirilməsinə mərkəzləşdirilmiş mənbələrlə yanaşı, müəyyən maliyə imkanlarına malik olan şəxslərin və büdcədənkənar əlavə mənbələrin də, məsələn, Dövlət Neft Fondunun cəlb edilməsi də məqsədəmüvafiq olar.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1.Həftənin kitabı: “Keys menecment”. [Elektron resurs] // URL: https://news.unec.edu.az/rubrika/153-heftenin-kitabi/7893-heftenin-kitabi-keys-menecment. Müraciət edilib:12.09.2022

2.Вул, Б. Программа социальной помощи в американской общине // Теория и практика социальной работы. Т. 1, - 2011, s. 198

3.Некрасов, А.Я. Международный опыт социальной работы / А.Я.Некрасов. - Москва:ГАС-БУ, -2014, s. 75

4.Основы социальной работы / Под. ред. П.Д.Павлинка. - Москва: ИНФРА-М, - 2001, s. 360-364

5.Пашков А.В. Организация социального обеспечения во Франции.- М., - 1998, s. 6-10

6.Социальная работа и подготовка социальных работников в Великобритании, Канаде, США /- Москва, -1992, s. 114

7.Теория и практика социальной работы: отечественный и зарубежный опыт / Отв. ред. Т.Ф.Яркина. Т.1. - Тула: АСОПИР, - 2003, с. 220-223

8.Теория и практика социальной работы: отечественный и зарубежный опыт / Отв. ред. Т.Ф.Яркина. Т.1. - Тула: АСОПИР, - 2013, - 459 с.

9.Философский энциклопедический словарь /- Москва: Советская энциклопедия, - 1983, s. 271-272

10.Элементы системы социального обеспечения в условиях социально ориентированной рыночной экономики. На примере ФРГ / Общество теории и практики страхования. - Москва, - 1993, s. 19-21

**Улви АЛИЕВ**

## ВОЗМОЖНОСТИ ПРИМЕНЕНИЯ В АЗЕРБАЙДЖАНЕ ТЕОРИИ КОНВЕРГЕНЦИЯ В СФЕРЕ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ

**Резюме**

В статье исследованы возможности применения в Азербайджане теории конвергенция в сфере социального обслуживания. Автор анализируя давно сложившийся в сфере социального обслуживания в зарубежных странах теорию «конвергенция» характеризует ее сущность как теорию заключающая в себя применения положительной практики, формирующей в сфере социального обслуживания в других странах учитывая их местные особенности. Исследователь обосновывает что по согласно данной теории уровень развития социального обслуживания в основном зависит от экономической рентабельности и только увеличивая эту рентабельность можно достичь развитие системы социального обслуживания. Теория конвергенция может играть важную роль для более формирования системы социального обслуживания в Азербайджанской Республике. На основе теория конвергенции по системе социального обслуживания в целях систематического осуществления социальной работы лицам находящийся в трудных жизненных условиях нужно широко применят метод кейс менеджмента, связи с этим готовит соответствующие нормативные акты и инструкции

**Ключевые слова**: *социальное, обслуживание, трудное, теория, конвергенция, кейс, менеджмент.*

**Ulvi ALIYEV**

## POSSIBILITIES OF USING CONVERGENCE THEORY IN THE SPHERE OF SOCIAL SERVICES IN AZERBAIJAN

**Summary**

The article investigated the possibilities of using the theory of convergence in the field of social services in Azerbaijan. The author, analyzing the theory of "convergence" long established in the field of social services in foreign countries, characterizes its essence as a theory that includes the application of positive practices that form in the field of social services in other countries, taking into account their local characteristics. The researcher justifies that according to this theory, the level of development of social services mainly depends on economic profitability, and only by increasing this profitability can the development of the social service system be achieved. Convergence theory may play an important role in more shaping the social service system in the Republic of Azerbaijan. Based on the theory of convergence in the social service system, in order to systematically carry out social work, people in difficult life conditions need to widely apply the management case method, and therefore prepare relevant regulations and instructions

**Keywords:** *social, service, difficult, theory, convergence, case, management.*

**Rəyçi: s.e.ü.f.d. Elvin Talışinski**

**UOT: 364.044.4**

**Zeynəddin ŞABANOV***

# İDARƏETMƏ NƏZƏRİYYƏLƏRİNİN SPESİFİK CƏHƏTLƏRİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 23 noyabr 2022; çapa qəbul edilmişdir: 25 noyabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: Novomber 23, 2022; accepted for publication: Novomber 25, 2022; published online: 29 December 2022*

**Xülasə**

Məqalədə klassik və müasir dövr idarəetmə nəzəriyyələrinə müqayisəli baxış keçirilir, ətraflı təhlil işi aparılır, yeni fikirlər irəli sürülür. Həmin nəzəriyyələrdəki pozitiv və neqativ məqamlara diqqət yönəldilir. Bildirilir ki, bu idarəetmə nəzəriyyələri işçi və işəgötürən arasındakı münasibətləri sistemli şəkildə öyrənmək üçün hazırlanıb. Anri Fayolun inzibati idarəetmə nəzəriyyəsi və Maks Veberin bürokratik idarəetmə nəzəriyyəsi ilə bağlı təhlil də maraq kəsb edir. "Sağ" təftişçilərin iqtisadi problemlərin həllində işçi birliklərinə, onların fikir və ideyalarına yol verilməməsinin tərəfdarı olduqları vurğulanır. Məqalədə «sol» təftişçilərin ən böyük səhvinin iqtisadiyyatla siyasəti qarışıq salmaq, onlar arasındakı əlaqəni, iqtisadiyyatın aparıcı rolunun nəzərə alınmaması olduğu göstərilir.

**Açar sözlər:** *idarəetmə, nəzəriyyə, cəmiyyət, iqtisadiyyat, problem, işçi, metod.*

## Giriş

İdarəetmə ictimai həyatın atributu kimi geniş mənada, istənilən cəmiyyətə xas olan özünütənzimləmə, özünüqoruma və özünütəşkilatlandırma sistemidir. O yalnız şüurlu deyil, həmçinin kortəbii şəkildə həyata keçirilir. Sosial idarəetmə cəmiyyətdə yaranan ictimai əlaqələrin təşkili mexanizmi olmaqla, insanların subyektiv, şüurlu və məqsədyönlü fəaliyyəti kimi xarakterizə olunur. Başqa sözlə desək, o, cəmiyyətin qorunub saxlanmasına və inkişafına təminat verir. Sosial fəaliyyətin istənilən sahəsində iştirakçıların birgə fəaliyyəti üçün məqsədyönlü idarəetməyə ehtiyac duyulur. Sosial mənada başa düşülən idarəetmə çoxnövlüdür. Buraya dövlət, qeyri-dövlət, ictimai və yerli özünüidarəetmə aid edilir. İdarəetmənin məzmununu dərindən öyrənmək üçün onun strukturuna diqqət edilməlidir. İdarəetmənin strukturu dedikdə, qarşılıqlı vəhdət və əlaqədə olan aidiyyətli elementlərin məcmusu başa düşülür. Həmin elementlərə aiddir: - idarəetmənin subyekti; - idarəetmənin obyekti; - idarəetmənin düzünə (birbaşa) və əksinə olan əlaqələri; - idarəetmənin sistemi; - idarəetmənin funksiyaları. İdarəetmə metodlarından istifadə edərək birgə fəaliyyət iştirakçılarına təsir edən komponent idarəetmənin subyekti adlanır. İdarəetmə subyekti idarəetmə prosesində birgə fəaliyyət iştirakçılarının iradə və davranışlarını öz iradəsinə tabe etməklə qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nail olur [1, s.136]. İdarəetmənin obyekti öz iradə və davranışını idarəetmənin subyektinin iradəsinə uyğunlaşdıran birgə fəaliyyət iştirakçısıdır. İdarəetmə təsirləri idarəetmə obyektlərinə düzünə (birbaşa) əlaqə kanalları vasitəsilə daxil olur. Onların qəbul edilməsi və icra edilməsi haqqında məlumat isə, əks əlaqə kanalları vasitəsi ilə idarəetmənin subyektinə çatdırılır.

## İdarəetmə nəzəriyyəsinin meydana gəlməsi

İdarəetmə nəzəriyyəsinin meydana gəlməsi ABŞ alimi F.Teylorun adı ilə bağlıdır. F.Teylor iş prosesini yenidən formalaşdıraraq səmərəliliyi artırmaq, insanlar və işlər arasındakı əlaqələri sistemli öyrənmək baxımından elmi idarəetmə üsullarını müəyyən etmişdir. O, iş prinsiplərinin yenidən işlənməsi - işçilərin ixtisaslaşması və əmək bölgüsünün düzgün aparılması və s. tezislər irəli sürmüşdür. Teylor elmi idarəetmə nəzəriyyəsini əsasən «Elmi idarəetmə prinsipləri» kitabında

* *AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, f.f.d., dosent, Bakı, Azərbaycan*
*E-mail:* zeynaddin.shabanov@gmail.com

əks etdirmişdir.

Teylorun elmi idarəetmə nəzəriyyəsinin əsasında aşağıdakı məsələlər dururdu: əməyin həddindən artıq ixtisaslaşması əsasında mənfəətin artırılmasının təmin olunması; işçilərin ən sadə əməliyyatlar üzrə funksiyalarının məhdudlaşdırılması; iş vaxtının son dərəcədə dəqiq uçota alınması; əmək proseslərinin, əməliyyatların elmi tədqiqi və artıq iş hərəkətlərinin aradan qaldırılması; işçilərin istehsalın təşkil olunma qayğısından azad olunması, xüsusi xidmət sisteminin yaradılması; işçilər üçün minimum əmək haqqı sisteminin tətbiq edilməsi [1, s.46].

F.Teylor sistemindən göründüyü kimi idarəetmənin iş vaxtının uçota alınması, əməliyyatların təhlili və s. ilə əlaqədar olan sırf istehsal xarakterli üstün cəhətlər vardır. Bu sistemi Teylordan qabaq heç kim verməmişdir.

Teylora görə, elmi rəhbərlik prinsipinin üç məqsədi vardır: nümunələr əsasında səmərəsiz işin səbəb olduğu böyük zərərləri göstərmək; bu səmərəsizliyin qarşısını almağın yeganə yolunun sistemli bir idarəçiliyin tətbiqi olduğunu sübut etmək; idarəetmənin müəyyən qayda və qanunlara söykənərək bir elm olduğunu ortaya qoymaq.

1910-cu ildə Teylorun elmi idarəetmə sistemi ölkə miqyasında tanınmağa başladı və təcrübədə istifadə olundu. Lakin həddən artıq ixtisaslaşma və ya işin sadələşdirilməsi işçiləri monotonluq və ya işin təkrarlanması baxımından qane etməməyə səbəb oldu. Eyni zamanda bu sistem çərçivəsində işçilər bacarıqlarını artırdıqdan sonra mükafatlanma əvəzinə menecerlər tərəfindən daha çox istismar olunmağa başladılar. Teylor sisteminin mənfi cəhətlərindən biri də həmin sistemin fəhləyə necə təsir edəcəyinin nəzərə alınmaması idi. Bu sistemdə psixoloji momentlər unudulmuşdu. Çünki sistemdə başlıca məqsəd mümkün qədər istismara nail olmaq idi. Beləliklə, Teylorun elmi idarəetmə nəzəriyyəsi bir çox işçilərə fayda əvəzinə daha çox çətinliklər gətirdi və menecerlərin onların sosial rifahı barədə etimadı azalmağa başladı.

Teylor sisteminin başqa cəhətləri də var idi. O, idarəetmə sahəsində əmək bölgüsünü, fəaliyyətin planlaşdırılması funksiyasını, bu fəaliyyətin kəmiyyət təhlili əsasında öyrənilməsi məsələlərini də irəli sürmüşdür. O, «optimal» iş metodları sistemini işləyib hazırlamışdır. Teylorun hazırladığı sistem bilavasitə iş yerləri və sexlərin fəaliyyəti ilə məhdudlaşırdı.

Teylorun məşhur davamçıları Frank Gilbert (1868-1924) və Lillian Gilbert (1878-1972) onun iş fəaliyyətinə yenilik gətirməklə yanaşı vaxt-hərəkət prinsipinə dair töhfələr verdilər. Onların məqsədi aşağıdakılardan ibarət idi: xüsusi tapşırığa daxil olan komponent fəaliyyətləri yerinə yetirməklə hər fərdin işini tədqiq edib təhlil etmək; hər bir komponent tapşırığı yerinə yetirmək üçün daha yaxşı üsulların tapılması; komponent fəaliyyətlərin yenidən təşkili, az vaxt və az cəhd sərf etməklə icrası [2, s.127]. Elmi idarəetmə məktəbi insan faktorunu rədd etmirdi. İşçiləri istehsalın yüksəldilməsində və hazır məhsulun həcminin artırılmasında maraqlandırmaq üçün sistematik olaraq motivləşdirmədən — stimullaşdırmadan istismar edirdi. Bu elmi idarəetmə məktəbinin çox vacib töhfələrindən biri idi.

Bundan başqa qısa istirahət etmə imkanları və istehsalda zəruri olan fasilələr nəzərdə tutulurdu. Belə ki, müəyyən işi görmək üçün ayrılan vaxtın miqdarı real və ədalətli idi. Bu, rəhbərliyə, yerinə yetirilməsi mümkün olan istehsal normalarını müəyyən etməyə, həmçinin təyin olunmuş minimumu keçən işçilərə əlavə əmək haqqı ödəməyə imkan verirdi. Beləliklə də, bu məktəb tərəfindən motivləşdirmə amillərinin tətbiqinin əsası qoyulurdu.

Belə yanaşmada əsas element o idi ki, daha çox məhsul istehsal edən adamlar, digər işçilərə nisbətən çox da mükafat alırdılar. Elmi idarəetmə məktəbinin baniləri, görüləcək işi yerinə yetirmək üçün fiziki və intellektual səviyyələri uyğun gələn adamları seçməyi lazım bilirdilər. Onlar həmçinin təcrübəli işçilərdən öyrənməyin böyük əhəmiyyəti olduğunu qeyd edirdilər. F.Teylorun və onun ardıcıllarının ilk dəfə irəli sürdüyü fikirlər bu məktəblə əlaqədar olmuşdur. Onlar, insanların fiziki əməklərinin yüngülləşdirilməsinin mümkün və vacib olduğunu sübut etməyə çalışmışlar. Onlar elmi yolla sübut edirdilər ki, hər bir işçi insan, bir sutkada gördüyü işi 8 saat ərzində normal yerinə yetirə bilər. Norma və normativlərin yaranması bu məktəblə əlaqədardır. Bu məktəb, menecmentin (idarəetmənin) bir elm sahəsi olduğunu isbat etmiş və sübut etmişdir ki, fiziki əməklə idarəetmə əməyi biri-birindən ayrılmalıdır.

Digər tərəfdən elmi idarəetmə məktəbi sübut etdi ki, cəmiyyətin bütün üzvləri, o cümlədən fəhlələr də, müəyyən hörmətə layiqdirlər. Onların fiziki əməyini yüngülləşdirmək üçün, elmi yolla yeni-yeni mexanizmlər hazırlamaq və onları tətbiq etməklə bunu həyata keçirmək olar.

Elmi idarəetmə məktəbi əllə görülən işlərin icrasını yüngülləşdirmək üçün müxtəlif üsullar tapılmasına, işin tələbinə görə adamların seçilməsinə, işçilərin xammal və avadanlıqlarla vaxtında təmin edilmələrinə, onların maraqlarını artırmaq üçün maddi həvəsləndirmədən istifadə olunmasına rəvac verdi, planlaşdırmanı və idarəçiliyi texnoloji proseslərdən ayırdı [7].

Gilbertlər tez-tez işçinin bir spesfik iş yerinə yetirməsini müşahidə edir və sonra iş fəaliyyətlərini ardıcıl fəaliyyət olaraq yavaş-yavaş ayırırdı. Onların məqsədi səmərəliliyi artırmaq idi. Belə ki, hər fərdi fəaliyyət elə icra olunurdu ki, işlərdən alınan fayda zaman və cəhdlərin çox böyük həcmdə qənaət edilməsinə gətirib çıxarırdı.

Təşkilati inzibatçılığın səmərəli sisteminin formalaşması kimi qiymətləndirən ən təsirli görüş də Avropada inkişaf etmişdir: Anri Fayolun inzibati idarəetmə nəzəriyyəsi və Maks Veberin bürokratik idarəetmə nəzəriyyəsi.

F.Teylorun davamçılarından biri də idarəetmənin təşkilinin ümumi prinsiplərini müəyyənləşdirən, tədqiq edən Fransanın iri sənaye birliklərinin rəhbərlərindən olan Anri Fayoldur. O, birinci dəfə olaraq təşkiletmə və idarəetmə prinsiplərini dövlət və istehsala tətbiq etmişdir. İdarəetmə hadisəsini baş menecerlərin dünyagörüşü ilə ələ alan Fayol idarəetmə elminin universal olduğunu və bəzi qanunlara bağlı funksiyalar icra etdiyini irəli sürmüşdür. İdarəetmə qanunlarını tətbiq edərkən onların yol göstərici olduğunu, amma başqa qanunlarında ola biləcəyini ifadə etmişdir. Bu yanaşma ilə Fayol bir sənaye müəssisəsində olan başlıca fəaliyyətləri təsnif edərək altı funksiya halına gətirmişdir: texniki, ticarət, maliyyə, mühasiblik, təhlükəsizlik, idarəetmə [3, 97].

Fayol idarəetmə prinsiplərini, vəzifələrini irəli sürərkən aşağıdakı idarəetmə funksiyalarını göstərmişdir: planlaşdırma, təşkiletmə, uzaqgörənlik, koordinasiya və nəzarət funksiyaları. Fayol planlaşdırma və təşkiletməni ən əhəmiyyətli, yerdə qalanları isə ikinci dərəcəli idarəetmə funksiyaları hesab etmişdir.

**M.Veberin «bürokratik idarəetmə nəzəriyyəsi»**

Klassik idarəetmə nəzəriyyəçiləri arasında alman sosioloqu Maks Veber də mühüm yer tutur. O, birinci dəfə olaraq inzibati idarəetmənin ideal tipi konsepsiyasını irəli sürmüş, idarəetmənin sinfi xarakterini nəzərə almamışdır. Bu nəzəriyyədə başlıca yeri liderlik və hakimiyyətin strukturunun öyrənilməsi tutur. M.Veber üç tipli hakimiyyət, təşkilat tipini irəli sürürdü: ənənəvi, ideal və xarizmatik. O, özü ideal rəhbərlik formasını bürokratik rəhbərlik forması adlandırmış, ideallıqla bürokratizmi bir sıraya qoymuşdur. O, xarizmatik tipli idarəçiliyi, təşkiletməni isə rəhbər işçinin müstəsna dərəcədə şəxsi keyfiyyəti ilə əlaqələndirmişdir. Bu sistemdə idarəetmə münasibətləri, bu münasibətlərin xarakteri, həmin münasibətlərin iyerarxiya qaydasında qurulması, rəhbərlik qaydası və standartları, kadrlar məsələsi mühüm yer tutur.

Veberin «bürokratik idarəetmə nəzəriyyəsi» cəmiyyətin müxtəlif sahələrində idarəçiliyin ən yüksək səviyyədə həyata keçirilməsini nəzərdə tuturdu. Bürokratik idarəetmə qaydalara, bir qrup ierarxiyaya, bütöv əmək bölgüsü, firma əməliyyatları, uzunmüddətli karyera vəzifəsi, məntiqliliyə əsaslanan bir sistemdir.

Bürokratik sistemin xüsusiyyətləri ilə bağlı M.Veberin əsas fikirləri aşağıdakılardan ibarətdir:

- funksional mütəxəssisləşməyə söykənən əmək bölgüsü;
- açıq-aydın təyin olunmuş bir ierarxik quruluş və beləcə hər addımın bir üst addım tərəfindən nəzarət edilməsi;
- fərdi olmayan, şüurlu və qanunlar istiqamətində əlaqələr;
- texniki qabiliyyətə söykənən işçi heyəti seçimi və vəzifə artırma sistemi;
- təşkilat fərdlərinin qanuni səlahiyyətlərlə bir-birinə bağlanması [1, s.142].

Bürokratiyanın faydalı və mənfi tərəfləri vardır. Bürokratiyanın faydaları səmərəlilik və daimilikdirsə, mənfi tərəfləri sərt qaydalar və ləng qərar verməsdir.

Klassik məktəbin tərəfdarları, elmi idarəetmə məktəbinin nümayəndələri kimi, idarəetmənin sosial aspektlərinə çox da qayğı göstərmirdilər. Onların işi elmi idarəetmənin metodologiyasına

əsaslanmayıb, əsas etibarı ilə şəxsi müşahidələrindən yaranırdı. "Klassiklər"" təşkilata geniş perspektiv nöqteyi-nəzərdən baxmağa səy etməklə təşkilatın ümumi xarakteristikaları və qanunauyğunluqlarını müəyyən etməyə çalışırdılar. Klassik məktəbin məqsədi idarəetmənin universal prinsiplərini yaratmaq idi. Bu, o ideyadan irəli gəlirdi ki, bu prinsiplərə əməl etmək, təşkilata müvəffəqiyyət gətirə bilər. Bu prinsiplər iki əsas aspekti nəzərdə tuturdu. Onlardan biri təşkilatın idarə edilməsinin rasional sisteminin yaradılması idi. Biznesin əsas funksiyalarını müəyyən etməklə, nəzəriyyəçi-"klassiklər" təşkilatın kiçik bölmələrə və işçi qruplarına bölünməsinin ən yaxşı yollarını tapmağa çalışırdılar. Ənənəvi olaraq bu funksiyalar maliyyə, istehsal və marketinq hesab edilirdi. Bununla idarəetmənin əsas funksiyalarının müəyyən edilməsi sıx bağlıdır. İdarəetmə prinsipləri sistemləşdirildi və bir neçə qarşılıqlı əlaqəli funksiyaları menecmentin universal funksiyaları kimi təqdim etməklə onların tətbiqinə tam proses kimi baxıldı. Bu funksiyalara misal olaraq: planlaşdırma, təşkiletmə, motivləşdirmə, nəzarət və marketinqi göstərmək olar.

Bu məktəb ona görə klassik adlanır ki, tarix boyu yaranan bütün idarəetmə prinsipləri, funksiyaları və metodları bu məktəb tərəfindən sistemləşdirilib nizamlanmış və menecmentdə tətbiq olunmağa başlanmışdır.Klassik idarəetmə məktəbinin cəmiyyət üçün həyata keçirdiyi başlıca yenilik, əvvəllər tətbiq olunan idarəetmə təcrübəsi əsasında yeni elmi yanaşmalar və çalarlar gətirməsidir. Bu məktəb, idarəetmə prinsiplərini, funksiyalarını, metodlarını və üslublarını müəyyən etməklə yanaşı, onların təcrübi olaraq həyata keçirilməsi (icrası) mexanizmini də hazırlamış oldu [7].

İdarəetmə sahəsində «klassik» nəzəriyyə məktəbi geniş bir dairəni əhatə edir və nəzəriyyələr «məktəbini» əmələ gətirmişdir. Həmin məktəbin nümayəndələrindən biri də Ford və onun adı ilə bağlı Ford nəzəriyyəsi olmuşdur. Ford istehsalın təşkili sahəsində Teylor sisteminin tətbiqini daha da təkmilləşdirmişdi. Onun başlıca fəaliyyəti Teylor sistemindən irəli gələn prinsipləri kütləvi istehsala tətbiq etmək, ayrı-ayrı məhsulların istehsalı üzrə əməliyyatları ən sadə, ixtisas tələb etməyən hissələrə ayırmaqdan ibarət olmuşdur. Bu sistem istehsal prosesinin dəqiq ardıcıllığının həyata keçirilməsi, onun standart texnologiya, mərhələ və əlaqələr üzrə idarə edilməsi kimi məsələləri nəzərdə tutur. Lakin istehsalın belə bir məcburi konveyer, amansız standart qaydasında təşkili və idarə edilməsi fəhlələrin istismarını daha da artırmışdır.

Əməyin təşkilinin təkmilləşdirilməsində ABŞ alimi F.Cilbertin də müəyyən rolu olmuşdur. O, fəhlə əl hərəkəti sistemini öyrənmiş və ona xüsusi kitab həsr etmişdir. Teylorun əlverişli insan fəaliyyətində əl hərəkətlərinə maksimum qənaət etmək F.Cilbertin sisteminin əsasında dururdu. Başqa ABŞ mühəndisi Q.Emerson əmək məhsuldarlığı baxımından insan orqanizminin fəaliyyətini öyrənmişdir.

İstehsalın təşkili və idarə edilməsinin «klassik» və çağdaş nəzəriyyələrində oxşarlıq, habelə məqsəd birliyi vardır. Çağdaş idarəetmə nəzəriyyələri arasında ən geniş yayılanı «empirik məktəb»dir. Həmin məktəbin nəzəriyyəçiləri bir sıra variantlar irəli sürmüşlər. Burada spesifik cəhətlərdən biri odur ki, bu nəzəriyyəçilər ayrıca məktəb keçmiş adamlar deyil, iri korporasiyalarla əlaqədar olan şəxslərdir - onların özü ya böyük menecerdirlər, yaxud da iri firmaların məsləhətçiləridirlər [4, s.76]. Bu məktəbdə kooperasiyaların və menecerlərin təcrübəsi idarəetmə qərarları üçün əsas götürülür. Ona görə də bu halda idarəetmədə obyektivlik, elmilik öz əhəmiyyətini itirmiş olur. «Empirik məktəb» nəzəriyyəsinə əsaslanan fəaliyyət iki istiqamətdə aparılır: Birincisi, müəssisələrin kooperasiyaların konkret təşkilati, texniki, iqtisadi, maliyyə fəaliyyəti tədqiq edilir. İkincisi, cəmiyyət miqyasında yeni-yeni konsepsiyalar hazırlanır. Bu təcrübə əsasında başqa məsələlərlə yanaşı kapitalizm cəmiyyəti haqqında qlobal nəticələr çıxarılır, bu cəmiyyətin «elmi cəmiyyət», «demokratik» və «ədalətli» cəmiyyət olması ideyalarını irəli sürürlər. Bunun üçün «mənfəətdə iştiraketmə», «idarəetmədə iştiraketmə» və s. aid ayrı-ayrı əlahiddə misallar gətirirlər. «Empirik məktəbin» görkəmli nümayəndələrinə P. Draker, P. Devis, L. Nyuman, D. Miller və başqalarını aid etmək olar. Bu məktəb öz nəzəriyyələrini demək olar ki, menecerlərin xidmətinə vermiş, ona həsr etmişdir. Burada istehsalat rəhbərlərinin əməyinin məzmunu və idarəçilik funksiyalarının öyrənilməsinə böyük yer verilir. Müəssisə qarşısında duran məqsəd və

vəzifələrin müəyyən edilməsi müəssisə və onun daxili bölmələrinin işinin təşkili, həmin vəzifələrin, fəaliyyətin əlaqələndirilməsi, təhlili, stimullaşdırılması hər bir idarəedən şəxsin əsas funksiyaları hesab edilir.

**«Sosial sistem nəzəriyyəsi»**

Çağdaş Qərb idarəetmə nəzəriyyələri arasında ən geniş yayılmış nəzəriyyələrdən biri də «sosial sistem nəzəriyyəsi»dir. «Empirik məktəb» konsepsiyasının mütləq praqmatikliyi, təşkiletmə və idarəetmə kompleksizliyin olması «sosial sistem» nəzəriyyəsinin meydana gəlməsini zəruri etmişdir. «Sosial sistem» nəzəriyyəsinin görkəmli nümayəndələri D.Marq, Q.Saymon, A.Etsion olmuşlar. Bu nəzəriyyə idarəetmə məsələlərinə, proseslərinə qlobal, struktur-funksional baxımdan yanaşır və ümumi sistem nəzəriyyəsi baxımdan izah edir. Bu məktəbin nümayəndələri idarəetmənin universal, sistem nəzəriyyəsini yaratmağa cəhd edirlər [4, s.78]

«Sosial sistem» nəzəriyyəsində ayrı-ayrı fərdlərlə təşkilatların tələbatı, onların əlaqəsi, bu tələbatın strukturu, hər bir tələbatın avtonom xarakter daşıması, onlar arasındakı labüd ziddiyyətlər məsələsinin öyrənilməsinə də diqqət yetirirlər. Ona görə də qrupların rolu, statusu, müxtəlif münasibətlər, əlaqələrin forması, müəyyən qərarın qəbul edilməsi və s. də «sosial sistem» nəzəriyyəsində mühüm yer tutur [3, s.94].

Son vaxtlar istehsalın idarə edilməsi sahəsində geniş yayılmış nəzəriyyələrdən biri də "yeni məktəb" nəzəriyyəsidir. Hazırda müəssələrdə qəbul edilmiş qərarların optimallaşdırılması, oyunlar nəzəriyyəsi, riyazi məntiq, riyazi statistika, xətti, qeyri-xətti və dinamik proqnozlaşdırma, sistem halında yanaşma metodları, habelə «situasiya qaydalı yanaşma» konsepsiyası geniş yayılmışdır.

**Kiçik və orta sahibkarlıq konsepsiyası**

Kiçik və orta sahibkarlıq konsepsiyası isə idarəetmə nəzəriyyələri arasında ən dolaşıq, qarışıq nəzəriyyələrdən biridir. Kiçik və orta sahibkarların (kəndlilərin, sənətkarların, xırda tacirlərin-xırda mülkiyyətçilərin) proletarlarla sahibkarlar arasındakı aralıq mövqe tutması - onların cəmiyyətdə tutduqları bu sosial mövqe, idarəetmə konsepsiyasında öz təsirini göstərmişdir. Kiçik və orta sahibkarlıq dedikdə, bu ilk baxışdan adama uzaq keçmişi, orta əsr sənətkarlıq dövrlərini xatırladır. Əslində isə kiçik və orta sahibkarlıq nəzəriyyəsi ən çağdaş nəzəriyyədir. Bu nəzəriyyənin ən səciyyəvi cəhəti onun çağdaş dövrdə iqtisadiyyatı, idarəetmə təcrübəsinin bayağılaşmış şəkildə izah edən, burjua nəzəriyyəsi olan «sol» təftişçilik nəzəriyyəsi ilə üst-üstə düşməsidir.

Kiçik və orta sahibkarlıq nəzəriyyəçiləri sosialist ölkələrinin, birinci növbədə, keçmiş SSRİ-nin iqtisadiyyatını «inzibati», «totalitar», «siyasətləşdirilmiş» iqtisadiyyat adlandırırdılar. «İnzibati iqtisadiyyat» nəzəriyyəsinin nümayəndələrinə Q.Qrossmanı, R.Treptonanı, P.Uaylazanı, V. Povlovanı, T.Quliyevi, T.Əliyevi aid etmək olar [3, s.86].

Kiçik və orta sahibkarlıq nəzəriyyəçiləri idarəetmə nəzəriyyəsinə utopik və eklektik baxımdan yanaşır və bəzən o, anarxizm idarəetmə nəzəriyyəsi ilə birləşir. Zəif inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlıq nəzəriyyəçilərinin iqtisadiyyatı siyasətdən süni olaraq ayırmaq, bərabər bölgü sistemini kobud formada tətbiq etmək ideyaları geniş yayılmışdır. Bu nəzəriyyə inkişaf etmiş kapitalist ölkələrində «sağ» təftişçilər və «yeni sol» təftişçilər formasında təzahür edir.

**Qlobal idarəetmə**

Qlobal idarəetmə – qlobal siyasətin əsas nəzəri istiqaməti olaraq bu siyasətin necə aparılması qaydalarını müəyyən edir. Qloballaşma epoxasında qlobal siyasətin aktuallaşması onun idarəetmə nəzəriyyəsinin də əhəmiyyətlilik dərəcəsini artırır. Eyni zamanda, ümumən qlobal siyasətdə olduğu kimi qlobal idarəetmə sahəsində də etik münasibətlərin funksionallaşması zərurətə çevrilir. Qlobal idarəetmə nəzəriyyəsi dünyada baş verən hadisə və proseslərin ümumi qanunauyğunluğunu taparaq, onların analitika və sistematikasını həyata keçirir, "dünyanın necə idarə olunmasının fəlsəfi konsepsiyasını", dünya siyasəti praktikasının nəzəri-metodoloji əsaslarını, idarəetmənin qlobal strategiyası üzrə onun prinsiplərini və qaydalarını, dünyanın optimal inkişafı modellərini hazırlayır, beynəlxalq siyasətdə qarşılıqlı münasibətləri idarə edən istiqamətləri təyin edir, beynəlxalq təşkilatların strukturlaşması və təkmilləşdirilməsi yollarını öyrənir, dünya birliyinin real təşəkkülü məqsədlərini daşıyan layihələrin koordinasiyasını yaradır və beynəlxalq həyatda qlobal əməkdaşlığın idarə edilməsinin üsul və vasitələrini sistemləşdirir. Qlobal idarəetmə bəzən müxtəlif

anlayış və kateqoriyalarla ifadə olunsa da (“dünya siyasətinin idarə olunması”, “dünyamiqyaslı idarəçilik”, “beynəlxalq nizam idarəçiliyi”, “qlobal nizam üzrə idarəetmə” və s.), mahiyyətcə dünya sisteminin struktur bütövlüyü üzrə onun konvergent idarəçiliyi mənasında başa düşülür. Qlobal idarəetmə nəzəriyyəsinə müxtəlif yanaşmaların ümumi mənzərəsini sərgiləyən araşdırmalar toplusu da bu nəzəriyyənin ayrı-ayrı aspektlərinin analizi üzrə onun inteqral nəzəri sisteminin yaradılması məqsədilə tərtib edilmişdir. Qlobal idarəetmənin ilk və əsas nəzəriyyəçilərindən biri C.N.Rozenau onun bir nəzəri istiqamət kimi meydana çıxmasının başlıca səbəbini qlobal dəyişikliklərin fəlsəfi mahiyyətinin dərk edilməsinə doğru səylərin artmasında görür. Fəlsəfi-siyasi düşüncənin “qlobal idarəetmənin ontologiyasına doğru” istiqamətlənməsi qlobal dəyişikliklərin determinantlarını üzə çıxarmağa, “qloballaşma, lokallaşma və fraqmentallaşmanı” koordinasiyalaşdırmağa, iyerarxiya, anarxiya və xaos rejimlərini və buna uyğun olaraq “poliarxiya (çoxsəviyyəlilik), panarxiya (ümumsəviyyəlilik) və kolibrasiya” (həmin səviyyələri ölçmə) proseslərini ayırd etməyə, “idarəetmənin vahidlərini” müəyyən etməyə və nəhayət, dünya sisteminin iyerarxiyasını bu sistemin sıx bağlılığı şərtləri daxilində idarə etməyə yol açır. C.N.Rozenau qlobal siyasətin son onilliklərdəki qabarıq xüsusiyyətini “coşqunluq” motivində şərh edərək yazır ki, o, yeni inkişaf fazasında məhz bu xüsusiyyəti ilə dünya tarixinin son üç yüz ildə görünməyən sıçrayışını etmiş, beynəlxalq həyatın məhz qlobal idarəetmə ilə mümkün olan reallığına çatmışdır. Qlobal idarəetmə problemlərini “dünya nizamının etikası və iqtisadiyyatı” kontekstində təhlilə cəlb edən “Qlobal idarəetmə” kitabındakı “Giriş”in müəllifi Filip Vindzor maraqlı bir müqayisə aparır. O göstərir ki, “İnsan Genomu” layihəsinin həyata keçirilməsi çərçivəsində DNK sisteminin kodlaşdırılması, insan orqanizminin genetik xəritəsinin hazırlanması “qlobal idarəetmənin də embrionik formasından” başlayaraq öyrənilməsi ilə assosiasiya yaradır. Beynəlxalq əməkdaşlığın miqyası genişləndikcə, qarşılıqlı münasibətlərin ən kiçik elementləri belə diqqətdən kənarda qalmamalıdır ki, beynəlxalq sistemin bütün həyatı orqanik formada əhatə oluna bilsin. “Etik, sosial və siyasi vasitələrin” vəhdətini nəzərdə tutan bu sistemdə “özünü dərk edən əməkdaşlığın etik rejimi” fəaliyyətdə olmalıdır [6].

**«Sağ» təftişçilər nəzəriyyəsinin** başlıca məqsədi proletar diktaturasına, sosializm iqtisadi problemlərinin həllində kommunist və fəhlə partiyalarının rəhbər mövqe tutmalarına qarşı mübarizə aparmaq idi. «Sağ» təftişçilər sosialist ölkələrində idarəedən elit qruplar və idarəolunan zəhmətkeş kütlələrin olması konsepsiyasını əsaslandırmağa çalışırlar. Elit qruplar «hakim» sinif adlandırılır. Həmin rəhbəredici «sinfi» partiya-dövlət aparatı, təsərrüfat rəhbərləri, elmi-texniki ziyalılar qrupuna bölürlər. «Sağ» antimarksist təftişçilərdən - M.Hilas, E.Fişer, S.Stoyanoviç, O.Şir, Q.Qarodini və b. göstərmək olar. «Sağ» təftişçilər aşağıdakı tezisləri də irəli sürürlər:

-sosializmdə təsərrüfatı idarə etmək səmərəsizdir, müxtəlif səviyyəli təsərrüfat orqanları, təsərrüfatçılar arasında antoqonist ziddiyyətlər vardır;

-sosial dövlət idarəçiliyi bürokratik idarəetmə sistemi adlandırılır;

-sosializmdə siyasətin rolu mütləqləşdirilir, iqtisadi münasibətlər isə inkar edilir;

-maddi stimullaşdırma sistemi səhvən əmtəə-pul münasibətləri ilə eyniləşdirilərək planlaşdırmaya qarşı qoyulur;

-müəssisələrin özünü idarəetmə müstəqilliyi, «bazar sosializmi» konsepsiyası irəli sürülür [5, s.128].

«Sol» təftişçilərin ən böyük səhvi isə iqtisadiyyatla siyasəti qarışıq salmaqdan, onlar arasındakı əlaqəni, iqtisadiyyatın aparıcı rolunu görməməkdən ibarətdir. Burada avantürizm, zəhmətkeşlərin siyasi təşkilatlarının rolunu qiymətləndirməmək, hərbi təşkilatları içtimai təşkilatlardan üstün tutmaq, iqtisadiyyatı dövlətdən ayırmaq, iqtisadiyyata rəhbərliyi hərbi-siyasi orqana tapşırıq kimi meyillərə üstünlük verilir [4, s.73]. İqtisadi qanunauyğunluqların rolu, əmtəə-pul münasibətlərinin əhəmiyyəti inkar edilir. İdarəetmə məsələlərində «sol» təftişçilərin konsepsiyası «bazar sosializmi» konsepsiyasına ziddir. Lakin bütövlükdə hər ikisi ardıcıl, vahid proqramı olmayan bir konsepsiyadır.

«Elit nəzəriyyəsi»sinin köhnə və yeni variantları vardır. Elit nəzəriyyə cəmiyyətin əsasən iki hissədən ibarət olması fikri üzərində qurulmuşdur: hər məsələyə qadir olan elit qruplar və onlara

tabe olan kütlələr. Burada elit qruplarına «ixtisaslı rəhbərləri», yerdə qalan hissəyə isə «ixtisası olmayan» kütlələri daxil edirlər. Bu müddəa hətta kapitalın demokratikləşdirilməsi haqqındakı şüara da ziddir. Ona görə də elit nəzəriyyəsinin bu köhnə variantı müasir kapitalizm şəraitində inhisarçı burjua nümayəndələri tərəfindən yararsız hesab edildi, «klassik elitçilər» (Moska, Pareto) tənqid olundu. Nəticədə «demokratik elitizm» nəzəriyyəsi meydana gəldi. Bu, elitizm nəzəriyyəsinin yeni variantıdır. Köhnə elitizm variantı cəmiyyətin bir hissəsinin idarəetməyə, başqa hissəsinin isə labüd olaraq tabeçilikdə qalmalarını obyektiv, təbii bir proses kimi qiymətləndirir. Elit qrupu cəmiyyətin ən ağıllı, ən bacarıqlı hissəsi kimi qiymətləndirilir.

**İstifadə olunmuş ədəbiyyat**

1.Əliyev T.Ə. Menecment. Bakı: Nağıl evi, 1998, 236 s.
2.Quliyev T.Q. İdarəetmənin əsasları. Bakı: Nagıl evi, 2001, 695 s.
3.Feyziyev C. Qlobal idarəetmə nəzəriyyəsi üzrə qiymətləndirmələr. [Elektron resurs] / URL: https://cavansir.feyziyev.com/bloq/elmi/qlobal-idareetme-nezeriyyesi-uzre-deyerlendirmeler.php. Müraciət edilib: 17.07.2022
4.Şabanov Z.M. İdarəetmə təfəkkürü: tarix və müasirlik. Bakı:Təhsil işçisi, 2010, 220 s.
5.Гурней Б. Введение в науку управления. Москва: ,1999, 430 с.
6.Мартынов С.Д. Профессионалы в управлении. Санкт-Петербург, 2011, 144 с.

**Зейнаддин ШАБАНОВ**

**СПЕЦИФИЧЕСКИЕ АСПЕКТЫ ТЕОРИЙ УПРАВЛЕНИЯ**

**Резюме**

В статье проводится сравнительный обзор классических и современных теорий управления, проводится их подробный анализ, выдвигаются новые идеи. Акцентируется внимание на положительных и отрицательных сторонах этих теорий. Говорят, что эти теории управления предназначены для систематического изучения отношений между работником и работодателем. Представляет также интерес анализ теории административного управления Анри Файоля и теории бюрократического управления Макса Вебера. Подчеркивается, что «правильные» инспекторы выступают за то, чтобы не допускать профсоюзы, их мысли и идеи к решению хозяйственных задач. В статье показано, что самой большой ошибкой «левых» инспекторов является смешение экономики и политики, игнорирование соотношения между ними, ведущей роли экономики.

***Ключевые слова***: *управление, теория, общество, экономика, проблема, работник, метод.*

**Zeynaddin SHABANOV**

**SPECIFIC ASPECTS OF MANAGEMENT THEORIES**

**Summary**

In the article, a comparative view of classical and modern management theories is conducted, a detailed analysis is carried out, and new ideas are put forward. Attention is focused on the positive and negative aspects of those theories. It is said that these management theories are designed to systematically study the relationship between the employee and the employer. The analysis of Henri Fayol's theory of administrative management and Max Weber's theory of bureaucratic management is also of interest. It is emphasized that the "right" inspectors are in favor of not allowing trade unions, their thoughts and ideas in solving economic problems. The article shows that the biggest mistake of "left" inspectors is to confuse economy and politics, to ignore the relationship between them, the leading role of economy.

***Keywords:*** *management, theory, society, economy, problem, employee, method.*

**Rəyçi: professor Hüseyn Qaraşov**

# Siyasət

# Politics

UOT:32:001.8; 32:303.8

**Ağalar QƏRİBOV***

# İ.KANTIN FƏLSƏFƏSİ MÜSTƏVİSİNDƏ HÜQUQ ANLAYIŞININ SİYASƏT FƏLSƏFƏSİNİN TƏRKİB HİSSƏSİ OLARAQ NƏZƏRDƏN KEÇİRİLMƏSİ

**Xülasə**

Məqalədə İmmanuel Kant tərəfindən hüququn siyasi sistemin elementlərindən birini təşkil edən ideya kimi nəzərdən keçirilməsi əsaslandırılır, eyni zamanda hüququn siyasi nəzəriyyənin nüvəsini təşkil etməsi və ictimai həyatda azadlıq ideyasının hüquqa necə çevrilməsinə dair mövqe əsaslandırılır. Həmçinin məqalədə Kantın hüquqa verdiyi tərifin təhlili üzərindən siyasi nəzəriyyə daxilində azadlıq ideyasının qiymətləndirilməsi və onun özbaşınalıqdan fərqləndirilməsinə dair mövqe də öz əksini tapıb.

Kantşünaslar və hüquqi-siyasi mövzularda ixtisaslaşan tədqiqatçılar Kantın yaradıcılığında azadlıq anlayışının istifadəsinin müxtəlifliyini və çoxçalarlılığını qeyd etmişlər. Kantda azadlığın ən yüksək qanunları imperativlər şəklini alır və yalnız bütün materiyadan mücərrəd olaraq maksimumların formasına aiddir.

**Açar sözlər:** *Kant, hüquq, siyasət, dövlət, azadlıq, özbaşınalıq.*

## Giriş

İohann Qotfrid Herderin formalaşdırdığı, klassik alman fəlsəfəsi sayəsində inkişaf etdirilən və bütün elmi-fəlsəfi tədqiqatları yeni, daha üstün mərhələyə yüksəldən “tarixilik” prinsipi hüquqi-siyasi araşdırmaların da “məhək daşı”nı təşkil edir. Tarixə, o cümlədən ictimai şüurun müxtəlif elementləri və formalarına inkişafdakı ideya nöqteyi-nəzərindən baxmaq “ümumdünya hüquqi vətəndaş cəmiyyəti”nə nail olmaq istəyində ifadə edilən məzmunu ortalığa çıxardı. Hüququ siyasi ideyanın tərkibində təhlil edən bu mövqeni daha sistemli və daha dolğun şəkildə nəzərdən keçirmək labüdlüyü öz növbəsində bizi klassik alman fəlsəfəsinin banisi İmmanuil Kantın fəlsəfi dühasının kandarına gətirir.

## Kantın hüquq fəlsəfəsi və nəzəriyyəsi

Hüquq fəlsəfəsinin və nəzəriyyəsinin özünəməxsus qiymətləndirilməsini həyata keçirən Kantın baxışlarındakı əsas məqamlardan biri onun siyasətə dair sistemli yanaşmasıdır. Kant sistem dedikdə, “zəruri qanunlara uyğun əlaqələnmiş sistem”i nəzərdə tutur və belə sistem “təsadüfi toplu” kimi aşkar olunanla ziddiyyət təşkil edir: “Əgər mümkün bütövlükdə olan hissələr artıq tam hissə kimi verilmiş hesab olunursa və o zaman belə bölgü mexaniki olaraq, müqayisənin köməyi ilə həyata keçirilirsə, deməli, sadəcə bir müqayisədən ibarətdir və belə olduğu halda tam (bütövlük) təsadüfi topluya çevrilir. Lakin bu, yaxud digər prinsipə görə bütövlük ideyası hissələr tərifindən əvvəl qəbul edilməlidirsə, o zaman elmi bölgü aparılmalıdır və yalnız bu yolla müxtəlif hissələr bütöv sistemə çevrilir” [3, s.106].

Ümumdünya hüquqi vətəndaş cəmiyyəti Kant tərəfindən aprior qanunlar nöqteyi-nəzərindən qiymətləndirilir. Bu xalis praktik ağıl ideyası, ilk növbədə, hüquq ideyasıdır.

Hüquq ideyasının Kantın siyasi nəzəriyyəsinin nüvəsinə çevrilməsi məsələsi və onun müstəsna əhəmiyyəti bir neçə səbəblə bağlıdır.

Birincisi, bu problem ətrafındakı fikirlərə Kanta qədərki fəlsəfi ədəbiyyatlarda, demək olar ki, rast gəlinmir və bir qayda olaraq, istisna təşkil edən filosofların əsərlərində “hüquq” və “siyasət” anlayışları müəyyən vəhdətdə nəzərdən keçirilir. Qanunların və hüquq sisteminin siyasi praktikanı ümumiləşdirməsindən, hüquq sistemini dövlət hakimiyyət institutlarının fəaliyyəti kimi başa düşməsindən çıxış etsək, belə bir mövqenin müəyyən əsası olduğu qənaətinə gələ bilərik. Bu cür olan halda belə çıxır ki, hüquqi qanunlar siyasət qanunlarından başqa bir şey deyil. Bu isə öz

* *Azərbaycan Universitetinin müəllimi, Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail:* ağalar.qeribov@gmail.com

növbəsində belə qənaətə gəlməyimizə səbəb olur ki, siyasət hüququ müəyyən edir, eyni zamanda hüquqi dövlətlə qeyri-hüquqi dövlət arasındakı fərqi aradan qaldırır.

Belə yanaşma ən azı qanunun əxlaq metafizikasının apriori konsepsiyası olduğunu, o da hüququn praktik ağlın məhsulu olduğunu bildirən Kantın fikri ilə ziddiyyət təşkil edir. Kant özü siyasətin hüquq və əxlaq ideyasına uyğun olması nöqteyi-nəzərindən çıxış edir. Deməli, azadlıq ideyası siyasi prinsip kimi hüquqda konkretləşdirilməlidir. Kantın bu mövzuda sələflərindən əsas fərqi ondan ibarətdir ki, Kant üçün cəmiyyətin və fərdin vasitəçilik forması kimi dövlətin əsas tərifi güc yox, hüquqdur. Bu mənada hüquq ümumi və fərdi iradənin vəhdət tapdığı bütövlükdür.

İkincisi, bu məsələdə qeyri-müəyyənliyin nəticəsi siyasət ideyasının tam sistemli şəkildə nəzərdən keçirilməsinin mümkünsüzlüyüdür. Əgər hüquq siyasətin qanunudursa, o zaman aydın deyil ki, siyasi nəzəriyyədə xüsusi hüquq bölməsini nəzərdən keçirməliyikmi? Kanta hesab edir ki, xüsusi hüquq təbii hüququn təsbit edildiyi bölmədir. Xüsusi hüquq müstəvisində Kant şəxsi mənimsəmə prinsipini araşdırır. Mülkiyyət anlayışı hüquqi münasibətlərə daxil ola bilən şəxs üçün ilkin əhəmiyyət daşıyır. Ancaq Kant dövlətin insanlar üzərində qəyyumluq funksiyalarının və fərdi muxtariyyət prinsipinin qəti şəkildə rədd edilməsi mövqeyindən çıxış etdiyi üçün belə qənaətə gəlir ki, xüsusi hüquq siyasi nəzəriyyənin təhlil predmeti deyil.

Əgər Kant xüsusi hüququ siyasi nəzəriyyənin predmeti olmaqdan kənarlaşdırırsa, lakin təbii hüququn məhz xüsusi hüquqda təcəssüm tapdığını bildirirsə, Kantın sistemində praktik azadlıq ideyası ictimai həyatda necə həyata keçirilir?

Saf ağılda apriori prinsiplərə malik olan arzulamaq qabiliyyətini Kant iradəyə əsasən hərəkət etmək qabiliyyəti adlandırır: “Bu qabiliyyət obyekt yaratmaq üçün hərəkətləri yerinə yetirmək qabiliyyətinin şüuru ilə bağlı olduğuna görə ona özbaşınalıq deyilir” [1, s.96]. Özbaşınalıq anlayışı iradə anlayışının izahı çərçivəsində qiymətləndirilir. Kant tərəfindən “özbaşınalıq” anlayışı azadlığın həssas impulslardan müstəqilliyi kimi müəyyən edilir. Ağılın özü üçün praktik ola bilmə qabiliyyəti özbaşınalıq azadlığının müsbət anlayışıdır. Özbaşınalıq azadlığı Kantın əsas, eyni zamanda kifayət qədər aydınlaşdırılmamış anlayışlarından biridir.

Dövrünün məhşur filosoflarından olan İqor Narski bu konsepsiyanı təhlil edərək onun inkişafında bir neçə mərhələni müəyyən edir: “Əvvəlcə, nəzərdən keçirilən azadlıq növü təsadüfün tam gücü kimi özünü göstərir. Daha sonra azadlıq-özbaşınalıq insanın birbaşa eqoist impulslarına tabe olmağa meyl göstərir. Növbəti, üçüncü mərhələdə eqoizmi “yumşaltmaq” yönündə cəhdlər edilir” [6, s.19]. Azad özbaşınalıq fəaliyyət yaradır. Lakin bu fəaliyyətin ümumbəşəri qanuna uyğun və ya əksinə başa düşülməsi özbaşınalığın özünü izah etmir. Buna görə də, azadlığın universal qanuna qarşı çıxmaq və ya onunla razılaşmağa uyğun olduğunu iddia etmək olmaz. Narski belə bir fərziyyə irəli sürür ki, özbaşınalıqda hələ də əsl missiyasını dərk etməmiş mənəvi azadlığın cücərtisini görmək mümkündür. Ardınca nə baş verəcəyi, tarixin gedişatında, ümumbəşəri əhəmiyyətlilik arenasında necə olacağından və transsendent mənəvi azadlığın öz müqəddəratını təyin etməsi - ardıcıl addımlar silsiləsi ilə inkişaf etməsi, möhkəmlənməsindən asılıdır [6, s.19]. Burada özbaşınalıq cəmiyyətin inkişaf mərhələsi kimi dünya tarixinin işığında nəzərdən keçirilir. Kant azadlığı şüurun daxili qanunları ilə əlaqə qurmaq bacarığı kimi də müəyyən edirdi. Onunla birlikdə azadlıq anlayışının mürəkkəbliyi Hegel tərəfindən də dövrün əsas problemi kimi fərqləndirilirdi. Kant üçün azadlıq anlayışı sadəcə olaraq müxtəlif mənalarda işlənmir, çünki müxtəlif mənalar bu anlayışın inkişaf mərhələlərini təşkil edir [5 s.14].

Kantşünaslar və hüquqi-siyasi mövzularda ixtisaslaşan tədqiqatçılar Kantın yaradıcılığında azadlıq anlayışının istifadəsinin müxtəlifliyini və çoxçalarlılığını qeyd etmişlər. Beləliklə, Narski Kantda yeddi fərqli azadlıq anlayışını müəyyən edir.

Birincisi, kosmoloji azadlıq,
ikincisi, praktiki azadlıq,
üçüncüsü, empirik dünyada öz müqəddəratını təyinetmənin azad səbəbkarlığı,
dördüncüsü, özbaşınalıq anlayışı kimi nəzərdən keçirilir.

Beşinci mənada azadlıq anlayışı özünü qanunla məhdudlaşdıran özbaşınalıqdır. Narski bunu belə xarakterizə edir: "Kant üçün qanunla qorunan siyasi azadlıq quldarlıqdan və ümumiyyətlə, kölələikdən azad olmaq, zorakılıq və məcburiyyətdən azad olmaq, özü ilə azadlıq gətirən hər hansı bir həyat tərzi və xoşbəxtlik deməkdir" [2, s.47].

Altıncısı, azadlıq, dini vicdan, fikir və mətbuat azadlığıdır. Yeddincisi, sənət dühasının fəaliyyətində azadlıqdır. Bu təsnifat azadlığın bir vasitə kimi dərk edilməsindən irəli gəlsə də, azadlıq anlayışının çoxmənalı məzmununu aydınlaşdırır.

Kant fiziki və əxlaqi olmaqla iki fərqli xoşbəxtlik növündən bəhs edir. O, əxlaqi xoşbxətliyi özündən məmnunluq adlandırır. Kanta görə, insan xoşbəxtliyi bir-birinə uyğun gəlməyən iki qaynaqla qidalanır: təbiətin bəxş etdikləri və iradə azadlığının keyfiyyəti olan fəzilət.
İnsanın bayatlığı, onun fikrincə, təbiətin və azadlığın məcmusudur: birincisi həzz, ikincisi sevinc və məmnunluqdur. Özündən razılıq kimi xoşbəxtlik bütün insan həyatını müşayiət edən şüur vəziyyətidir. Bu şüur və sevinc olmadan xoşbəxtlik mümkün deyil [4, s.36].

Azadlıq anlayışının strukturunu nəzərdən keçirərkən Kant fəlsəfəsində onun vəhdətliliyini də vurğulamaq lazımdır. Ancaq bu vəhdət yalnız tezis olaraq qalır. Əslində, müəllif Kantın tənqidi fəlsəfəsinin müxtəlif sahələrində azadlıq anlayışını araşdırır. Kanta görə, azadlığın inkişafının ən yüksək forması ictimai-siyasi sferadır. "Əgər ümumən azadlıq insanın özünü müəyyən etmək qabiliyyətidirsə, ictimai-siyasi mənada azadlıq rifaha nail olmaq yollarında cəmiyyət tərəfindən öz iradəsini müstəqil şəkildə inkişaf etdirmək qabiliyyətidir" [7, s.205].

Müxtəlif sferalar çərçivəsində azadlıq anlayışı elementar olaraq qalır və onlar arasındakı əlaqə xarici xarakterə çevrilir. Müxtəlif müəlliflər Kantın anlayışlar arasında əlaqə formasının keçid olduğunu göstərə bilmirlər, ki, bu keçidə ehtiyac müəyyən konsepsiyanın açıqlanmasında və onda onun əksinin aşkarlanmasında ümumiliyə, hüdudlara çatdıqda yaranır.

Azadlığın ən yüksək qanunları imperativlər şəklini alır və yalnız bütün materiyadan mücərrəd olaraq maksimumların formasına aiddir. Qeyd etmək lazımdır ki, bütün qanunların forma və materiyaya bölünməsi formanın məzmunu məsələsini bir kənara qoyur. Formanın məzmunu forma məsələsindən fərqli xarakterə malikdir.

**Kant mənəvi azadlıq qanunları**

Mənəvi adlanan bütün azadlıq qanunlarını Kant xarici hərəkətlərə aid olduğu üçün hüquqi və etik qanunlar olaraq iki qismə ayırır, çünki onlar özləri hərəkətlərin müəyyənedici əsaslarıdır. Hüquqi qanunlar xarici şəkildə azadlıqla bağlıdır.

Kant üçün hüququn universallığını və onun aprior xarakterini əsaslandırmaq prinsipial əhəmiyyət kəsb edir. O, insanların dövlət birgəyaşayışı üçün əsas təhlükəni onda görür ki, siyasi həyatın, ümumi iradənin vəhdəti hansısa məqsəd məsələsi, ali rifah məsələsi ilə əlaqələndirilə bilər. Bu halda dövlətdə qanun xüsusi, şərtləndirilmiş müsbət məqama çevrilir. Belə olduğu zaman güc ən yüksək rifah ideyasının daşıyıcısı və tərcüməçisi olacaq, iradənin muxtariyyəti isə sadəcə uydurmaya çevriləcək. Kant Fransa İnqilabının faciəsini məhz bunda görürdü, Russonun siyasi doktrinasının əsas ziddiyyəti məhz bunda idi. Bu müstəvidə şəxsiyyətin hüquq və azadlıqlarının tanınması ilə bağlı bütün tələblər niyə boş bəyannaməyə çevrilir sualının cavabı da Kant tərəfindən verilir: ümumi məqsəd kimi tanınan istənilən motiv istər-istəməz despotizmə gətirib çıxarır [5, s. 11].

Kant konkret siyasi problemi obyektivləşdirmir və saf anlayışlarla bir filosof qismində işləyir. Kant ilk dəfə praktiki ağılın antinomiyasını xüsusiləşdirir. Antinomiya tezisində qeyd edilir ki, xoşbəxtliyə can atmaq fəzilətli düşüncə tərzinin əsasını yaradır. Bu tezisin antitezisində isə fəzilətli düşüncənin mütləq xoşbəxtlik yaratması mövqeyi qoyulur. Belə hökmlərin yanlışlığı sübut edir ki, heç bir motiv qanunun məzmununa daxil edilməməlidir. Transsendental azadlıq prinsipi tənzimləmə və ictimai münasibətlər üçün zəruri şərt kimi müəyyən olunur: "Əgər niyyət fəziləti öyrənmək deyil, yalnız onun düzgün olduğunu göstərməkdirsə, bu, mümkün deyil və ümumbəşəri hüquq qanunu onu hərəkətin motivi kimi izah etməməlidir" [8, s.64].

Kanta görə, hüquq ümumbəşəri azadlıq qanunu nöqteyi-nəzərindən bir şəxsin özbaşınalığı ilə digərinin özbaşınalığına uyğun gələn şərtlər toplusudur" [7, s.208]. Üzərində ilk dəfə düşünüldükdə hüququn belə tərifi onun vasitəsilə azadlığın məhdudlaşdırılmasını göstərir. Belə məhdudiyyət məcburiyyətdir, kənardan məcburetmədir. Vəzifəyə uyğun şəkildə, yəni imperativə uyğun olaraq hər hansı bir hərəkət məcburiyyətdir, istər daxili məcburiyyət, istərsə də xarici məcburiyyət. Qanunla əxlaq arasındakı fərq məhz budur. Ancaq bu hələ də hüququ azadlığa zidd məhfum kimi qiymətləndirməyə əsas vermir. Özbaşınalıq özlüyündə azad olmaya bilər, o, tamamilə obyektin şərtləri ilə müəyyən edilə bilər. Özbaşınalığın uyğunluğu sosial xarakter daşıyan azadlıq sferasına da işarə edir. Kant hesab edir ki, azadlığın müəyyən təzahürünün özü ümumbəşəri qanunlara uyğun şəkildə azadlığa əngəl törədərsə, məcburiyyətə çevrilir [3, s.106]. Məcburiyyət bütün cəmiyyətin iradəsinin, yəni ümumi iradənin qanunu kimi təsəvvür edilən vəzifə reallığına işarə edir.

**Nəticə**

Beləliklə, Kanta görə, hər hansı bir şəxsin özbaşınalığı onun azadlığını təşkil edən şərti ehtiva edir və ya ehtiva etməlidir. Şəxs özbaşınalığını azadlıqla uyğunlaşdırılmalıdır, onun hərəkətləri universallıq formasını ehtiva etməlidir. Kant hüquq ideyasını belə formalaşdırır: "Hər hansı bir hərəkət o halda düzgündür ki, öz maksimumuna görə hamının özbaşınalıq azadlığı ümumbəşəri qanununa uyğun olaraq hər kəsin azadlığına uyğun gəlir" [3, s.118].

Qanunun universallığı məcburiyyətin ağlabatanlığını və universallığını göstərir ki, bunu yalnız müqavilə vasitəsilə tanımaq olar. Bu, cəmiyyətin özünün elə məcburetməsidir ki, nəticədə o, fəaliyyətin predmetinə çevrilir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Immanuel Kant. Ahlak metafiziginin temellendirilmesi. Ankara: Türkiye Felsefe Kurumu. 2002, 188 s.
2. Hamlet Serbun Hehçet. Kantın ahlak metafiziğinde özgürlük ve ahlak yasası sorunu. İstanbul: İstanbul Üniversitesi, 2010. 80 s.
3. Кант И. Трактаты и письма. Москва: Наука, 1980, 711 с.
4. Lokman Çilingir. Umut Felsefesi. İstanbul:Elis Yayınları, 2003, 183 s.
5. Mehmet Günenç. Kantın ahkak metafiziği // Journal of Philosophy-Science Research. 2011. N 19, s.341-359
6. Нарский И.С. Категория свободы у Канта // Кантовский сборник. Вып. 17. Калининград, 1993. С. 11-22.
7. Новгородцев П.И. Кант и Гегель в их учениях о праве и государстве. - СПб.: Алетейя, 2000. 320 с.
8. Robert B. Bouden, Morality and Moral Theory, Oxford: Oxford University Press, 1992, 256 p.

**Ağalar QARIBOV**

**Consideration of the concept of law as an integral part of the philosophy of politics in the plane of the philosophy of Kant**

**Summary**

The article substantiates Immanuel Kant's position on the consideration of law as an idea that constitutes one of the elements of the political system, as well as on how law forms the core of political theory and how the idea of freedom in public life becomes law.

The article also reflects the position on the assessment of the idea of freedom in the framework of political theory through the analysis of Kant's definition of law and its differentiation from arbitrariness.

Kantian scholars and researchers specializing in legal and political issues have noted the diversity and multifacetedness of the use of the concept of freedom in Kant's work. In Kant, the highest laws of freedom take the form of imperatives and belong only to the form of maxims abstracted from all matter.

**Keywords:** *Kant, law, politics, state, freedom, arbitrariness.*

**Агалар ГАРИБОВ**

**Рассмотрение концепции права как составной части философии политики в плоскости философии Канта**

**Резюме**

В статье обосновывается позиция Иммануила Канта о рассмотрении права как идеи, составляющей один из элементов политической системы, а также о том, как право составляет ядро политической теории и как идея свободы в общественной жизни становится правом.

В статье также отражена позиция по оценке идеи свободы в рамках политической теории через анализ кантовского определения права и его дифференциации от произвола.

Кантианские ученые и исследователи, специализирующиеся в области права и политики, отмечают разнообразие и многогранность использования понятия свободы в творчестве Канта. У Канта высшие законы свободы принимают форму императивов и принадлежат только форме максим, отвлеченных от всякой материи.

**Ключевые слова:** *Кант, право, политика, государство, свобода, произвол.*

**Rəyçi: dos. Zaur Əliyev**

**UOT: 327:140.8**

**Nailə ABDURƏHMANOVA***

# AZƏRBAYCANIN NEFT STRATEGİYASI: ABŞ-IN VƏ RUSİYANIN CƏNUBİ QAFQAZDA NÜFUZ UĞRUNDA MÜBARİZƏSİ

*Məqalə redaksiyaya daxil olmuşdur: 15 dekabr 2022; çapa qəbul edilmişdir: 17 dekabr 2022; onlayn çap edilmişdir: 29 dekabr 2022*

*The article was submitted to the editors: December 23, 2022; accepted for publication: December 25, 2022; published online: 29 December 2022*

**Xülasə**

Məqalədə Azərbaycan Respublikasının XX əsrdə ikinci dəfə olaraq özünün müsətqilliyini bərpa etməsi və bunun fonunda dünya birliyində özünə layiqli yer tutması üçün apardığı mübarizə və siyasi fəaliyyəti öz əksini tapmışdır. Belə ki, Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq aləmə inteqrasiya etmək üçün həyata keçirdiyi siyasi fəaliyyəti dünya birliyi tərəfindən müsəbt qarşılanmış, onun müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində demokratik qüvvələrin yardımları artmışdır. Lakin Rusiyanın Azərbaycanı öz nəzarətində saxlamaq uğrunda mübarizəsi hələ də bitməmişdir. Məhz məqalədə Rusiya ilə ABŞ dövlətinin Cənubi Qafqazda nüfuz uğrunda mübarizəsində Azərbaycanın neft strategiyasının rolu məsələsi də əsas xətt kimi öz əksini tapmışdır.

**Açar sözlər:** *"Əsrin müqaviləsi", Xəzər bölgəsi, "Bakı-Ceyhan", Konsorsium, strateji maraq, boru kəməri, "Xəzərin sektorlara bölünməsi" prinsipi.*

## Giriş

XX əsrdə dünyada mövcud olmuş iki siyasi güc arasında gedən rəqabət və nüfuz uğrunda mübarizənin nəticəsi olaraq, siyasi və hərbi güclərdən biri olan, yalan və riyakarlıq üzərində qurulmuş Sovet imperiyasının dağılmasından sonra suverenliyini elan etmiş sovet respublikaları kimi Azərbaycan da özünün eyni əsrdə itirmiş olduğu müstəqilliyini yenidən bərpa etmişdir. Bu müstəqilliyi möhkəmləndirmək məqsədi ilə müstəqil xarici siyasət yeridərək mövcud təbii sərvətlərindən olan karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarmaq istiqamətində fəaliyyətini gücləndirmişdir. Bununla da dünya birliyində layiqli yerini tutmağa çalışmışdır. Lakin dünya siyasətində öz mövqeyini möhkəmləndirməyə çalışan Azərbaycanın həyata keçirməkdə olduğu beynəlxalq layihələrə ABŞ və Rusiyanın mövqeləri müxtəlif olmuşdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi gündən dünyanın demokratik düşərgəsinə öz inteqrasiyasını həyata keçirmək üçün daimi fəaliyyətini gücləndirmiş və demək olar ki, faktiki olaraq ona nail ola bilmişdir.

### "Xəzərin statusu" məsələsində ABŞ-Rusiya rəqabəti

Sovet İttifaqının dağılmasından sonra Rusiyanın Cənubi Qafqaz siyasətinin əsasında hələ XVIII əsrdən başlayaraq I Pyotrun vəsiyyətlərində tövsiyə edilmiş vəzifələrin yeni reallıqlara uyğunlaşdırılmış mahiyyətcə yeni işğalçılıq konsepsiyası təşkil edirdi. Hətta Rusiya Federasiyası parlamentinin üzvü K.Zatulin 1995-ci ildə həmkarlarına xəbərdarlıq tipli bəyanatla bildirmişdir ki, "Qərb şirkətlərinin Xəzər regionunda fəaliyyət göstərməsinə icazə vermək Rusiya üçün fəlakət olacaqdır" [17].

Rusiya dövlətinin yarandığı gündən təcavüzkar olması, demək olar ki, Rusiya cəmiyyətinin bütün səviyyələrində etiraf edilirdi. O, bu xəbərdarlığı belə əsaslandırırdı: Əvvəla, Xəzərdə Rusiya əsrlərdən bəri qazanmış olduğu nüfuz dairəsini itirmişdir və qərb şirkətlərinin bu regionla sıx

* *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, Azərbaycan, Bakı*
*E-mail:* naila.abdurahmanova@gmail.com

əməkdaşlıq etməsi milli münaqişələrin daha çox olduğu Rusiya üçün gələcəkdə ciddi təhlükə yarada bilər.

İkincisi, Xəzərin milli sektorlara bölünməsi Rusiyanın Həştərxan şəhərində yerləşən və nisbətən böyük olan balıqçılıq donanmasını ənənəvi ov yerlərindən məhrum edərdi. Üçüncüsü, bu prinsip uzun illərdən bəri Rusiyanın İran ilə beynəlxalq nəzarətdən kənar həyata keçirdiyi qarşılıqlı yükdaşımasını sual altına qoyurdu. Belə ki, Xəzərin milli sektorlara bölünməsi burada gəmiçiliyin hərəkətini və yük daşımalarının sektor dövlətlər tərəfindən nəzarət altına alınmasına gətirib çıxarırdı. Bu halda Rusiyanın ticarət, ya da hərbi gəmisi İrana getmək üçün mütləq digər ölkənin sektorundan keçməli olurdu. Bu da həmin ölkələrin ərazisindən keçməyə bərabər olduğuna görə Xəzərin sektorlara bölgüsü Rusiya üçün sərfəli deyildir. Rusiyanın bu mövqeyini İran da müdafiə edirdi. Bunun da səbəbi onunla bağlı idi ki, İran özünə düşmən hesab etdiyi ABŞ-ın və regiondakı başlıca rəqibi olan Türkiyənin Azərbaycan neftindən böyük şəkildə pay almasından, habelə neft müqavilələrinə İranın da cəlb olunmamasından ciddi narahatçılıq keçirirdi. Xəzəryanı bölgədə hər-hansı sahədə əməkdaşlığa can atan hər bir dünya dövlətinin özünün iqtisadi-siyasi maraqları vardır. Belə ki, 1997-ci ilin iyun ayında ABŞ dövlət katibinin müavini S.Ayzenstat Vaşinqtonun Qafqaz siyasətinin əsas prinsiplərini sadalayarkən, regionda İran siyasətinin məhdudlaşdırılmasının zəruriliyini bildirmişdir [18].

Xəzərin statusu məsələsini gərginləşdirməklə Azərbaycan neftinin ixracının reallaşmasına hər vəchlə maneçilik törətmək istəyən Rusiya İranın köməyini lazımi qədər hiss edirdi. ABŞ-ın siyasətində isə incə nöqtələrdən biri İran siyasətindəki Rusiya maraqlarına uyğunluğun zəiflədilməsi idi. Bir şeyi də nəzərə almaq lazımdır ki, ABŞ-ın Xəzərin statusu məsələsinə müdaxiləsi Rusiyanın ürəyincə deyildir. Ona görə ki, Rusiya öz milli maraqlarına uyğun təkliflərlə yox, beynəlxalq hüququn tələb etdiyi normalar çərçivəsində hərəkət etməli idi. Bu isə Xəzərin statusunun Rusiya üçün əhəmiyyətinə zərbə vurar və ya Xəzər məsələsinin birdəfəlik həllinə gətirib çıxara bilərdi. Problemin bu cür həlli isə Rusiyaya sərf etmirdi. Hətta 1997-ci il 23 oktyabr tarixində ABŞ Senatının Beynəlxalq Münasibətlər Komitəsində müzakirələr zamanı Vaşinqtonun regiondakı maraqlarının əsas prinsipləri içərisində status məsələsinin mühüm yer tutması və bununla bağlı nümayəndə heyətinin regiona səfərinin planlaşdırılması Rusiyanı çox narahat etmişdir.

**Azərbaycanın neft konsorsiumu və ABŞ-Rusiya münasibətləri**

Müstəqilliyini bərpa etmiş Azərbaycan dövləti sahib olduğu neft yataqlarının işlənməsi üçün xarici şirkətlərin cəlb olunmasını məqsədəuyğun hesab etmişdir. nəzərə alınaraq belə qərar qəbul edilmişdir. Əsas məsələ isə Azərbaycan müstəqil ölkə kimi beynəlxalq aləmə nüfuz etmək zərurəti qarşısında idi. 1992-ci ilin iyul ayında Müsavat və Xalq Cəbhəsi hökumətinin hakimiyyətə gəlməsi ilə Qərbə doğru meyillər güclənməyə başladı. 1990-1991-ci illərdə bu sahədə heç bir müsbət irəliləyiş olmasa da, artıq 1992-ci ildə “Bi-Pİ Statoyl”, “Pennzoyl Remko” şirkətləri ilə Azərbaycan hökuməti bir neçə neft sazişləri imzalamışdır [8, s.30-32]. 1994-cü il 20 sentyabr tarixində “Əsrin müqaviləsi” imzalandıqdan sonra Azərbaycan hökuməti dünyada tanınmış iri neft şirkətləri ilə - 1995-ci ildə 1, 1996-cı ildə 2, 1997-ci ildə 5, 1998-ci ildə 7, 1999-cu ildə 3 və 2000-ci ildə isə 1 belə müqavilələr bağlamışdır. Ümumiyyətlə 1994-2000-ci illərdə Azərbaycan hökuməti ilə dünyanın 14 ölkəsinin 32 neft şirkətinin iştirak etdiyi 21 beynəlxalq müqavilə imzalanmışdır [6, s.26].

Qeyd etmək lazımdır ki, Azərbaycanın bu uğurlarını qəbul edə bilməyən Rusiya hər vəchlə həmin müqavilələrə əngəl olmaq və Qərb şirkətlərinin Xəzər hövzəsinə gəlişinə maneəçilik etmək istəyirdi. Qərb dövlətləri, əsasən də ABŞ-ın mövqeyi fərqli idi. ABŞ-ın Milli Təhlükəsizlik Şurasının nümayəndəsi Uilyam Kurtni qeyd etmişdir ki, “Xəzərin enerji ehtiyatlarının beynəlxalq bazarlara yol tapması ABŞ-ın, həm də Xəzər regionu ölkələrinin xeyirinədir. Bu Xəzər hövzəsindəki yeni müstəqil dövlətlərin suverenliyinin və tərəqqisinin dəstəklənməsi üçün mühüm amildir” [7, s.159-177]. ABŞ dövlətinin Azərbaycan neftinə olan marağını isə dövlət katibinin müavini S.Talbott belə qiymətləndirmişdir: “Heydər Əliyev kiçik, amma mühüm Asiya ölkəsinin

prezidentidir. Elə bir ölkənin ki, o öz nefti və coğrafi mövqeyi sayəsində ABŞ-ın maraqlarının ön sıralarına çıxmışdır" [1].

